# Aİ missiyasının şübhəli fəaliyyəti davam edir



**Avropa İttifaqının (Aİ) 2022-ci ilin oktyabrında müvəqqəti – iki ay müddətinə regiona göndərdiyi və sonradan müddəti uzadılan mülki müşahidə missiyasının fəaliyyəti Azərbaycanla yanaşı, Rusiyada da narazılıqla qarşılanır. Narazılığın əsas səbəbi bununla bağlıdır ki, missiya mülki adlansa da, onun tərkibində Avropanın bir sıra ölkələrinin, o cümlədən regionda destruktiv siyasət yürüdən Fransanın ehtiyatda olan jandarm qüvvələri, polis zabitləri təmsil olunurlar. Digər səbəblər isə missiyanın say tərkibinin razılaşmada nəzərdə tutulan 40 nəfər əvəzinə 50 nəfər olması, müddətinin uzadılmasının Azərbaycanla razılaşdırılmaması və bölgədə sülhün təmin olunmasına heç bir formada töhfə verməməsidir.**

**(ardı 3-cü səhifədə)**


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 195 (30599) 8 sentyabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan – İtaliya: Avropa məkanında əməkdaşlıq və tərəfdaşlıq örnəyi

## Tarixi yaşantılardan Bakı–Roma xəttinin “köhnə qitə”yə inam və etimad dərslərinədək




**XX əsrin əvvəllərində İngiltərədə Qafqazın bilicisi sayılan lord Kerzon ölkənin Xarici işlər naziri lord Balfura 25 mart 1919-cu il tarixli məktubunda yazırdı ki, Cənubi Qafqaza ordu çıxarmaq İtaliyanın milli maraqlarına uyğun deyil. Onlar, yəni italyanlar Qafqaza doğru irəliləyən bolşevizmə qarşı davam gətirə bilməyəcəklər. Lord Kerzon, həmçinin italyanların Qafqaz xalqları arasında heç bir siyasi nüfuzunun olmadığını vurğulayır və onların ingilislərin Qafqazdan çıxmasından sonra bölgədə ağırlaşması ehtimal olunan vəziyyətdən çıxa bilməyəcəklərini bildirirdi.**

Lakin Kerzonun təklifi nəzərə alınmadı və 1919-cu il aprelin 9-da İngiltərənin hərbi şurası martın 24-də gizli şəkildə imzalanmış Britaniya – İtaliya sazişini bəyəndi. Yəqin, təxmin etdiniz ki, sazişə görə, Qafqazda Britaniyanın yerini İtaliya tutmalı idi və regionda qoşun saxlamaq istəməyən ingilislər bölgə ilə bağlı maraqlarının saxlanılması üçün italyanlara etimad göstərmişdilər. Daha doğrusu, “yağlı tikə” olan Qafqaza digər dünya nəhənglərinin “diş qıcaması” fonunda “cənubluları” daha az təhlükəsiz saymışdılar.

Ancaq lord Kerzon haqlı çıxdı. Birinci dünya müharibəsindən sonrakı mandat sisteminin üstünlükləri şəraitində belə italyanlar Qafqazda, eləcə də Azərbaycanda artan bolşevizm dalğası qarşısında duruş gətirə bilmədilər. Sonra nələr yaşandı, bu barədə danışmaq istəməzdik, çünki ölkəmizin XX əsrdəki birinci dövlət müstəqilliyinin itirilməsini doğuran şərait hər kəsə yaxşı məlumdur.

Ancaq tarixdə yaşananları xatırlamağımızın bir səbəbi var. Üzərindən illər keçməsinə baxmayaraq, imperialist dairələrin baxışları deyil, yalnız metodları və yanaşmaları dəyişib. Məqsəd yenə də eynidir – Qafqazda üstünlüyə yiyələnmək. Baxın, bu gün də Ermənistan vasitəsilə bölgəyə yönələn çeşidli siyasi oyunlar qurulur, yüz il əvvəl də elə idi.

Keçmişdə olanlara görə, belə demək mümkünsə, qınaq ritorikasından da uzağıq. Ölkəmiz müasir müstəqillik illərində bir çox məqamlardan, o cümlədən, tarixdə yaşananlardan nəticə çıxardı. Siyasətini doğru və dürüst şəkildə qurdu, prinsiplərindən geri dönmədi, səmimiyyət paradiqmasını daim aktiv saxladı. Düşünürük ki, İtaliya Avropada dövlətimizin malik olduğu bu xarakterə qiymət verən, adekvat davranan məmləkətlərdəndir, onların önündə gəlir. Prezident İlham Əliyevin dost ölkəyə işgüzar səfəri də həmin adekvatlığın və qiymətin təntənəli səhnələri ilə yadda qaldı.

Biz güclü olmalıyıq ki, eşidilək, duyulaq. Əlbəttə, daha güclü olmağımız da şərtdir. Təkcə İtaliyadan ibarət olmayan Avropada günü bu gün də ölkəmizə qarşı ikili standartlar siyasətinin aktiv məcrada olduğunu görürük. Ancaq Avropa yalnız İtaliyadan ibarət olmasa da, ölkə qitədə, kifayət qədər ciddi amildir. Elə bir amil ki, ənənəvi imperialist baxışlardan uzaqlaşma, səmimiyyətə əsaslanma, tipik stereotiplərə meydan oxuma, öz düzgün bildiyi yolu ilə getmə xarakterinə maliklik ona heç bir maneə törətmir. Bu mənada, yəni qətiyyət anlamında Azərbaycanı və İtaliyanı birləşdirən bir çox cəhətlər var. Deməli, həm bu cəhətlərin mövcudluğu, həm də indiyədək keçilmiş əməkdaşlıq yolu ölkələrimizi daha sıx birləşdirir. Prezident İlham Əliyevin səfəri isə həm ortaq dəyərlərin vurğulanması baxımından əhəmiyyət daşıdı, həm də əlaqələrin gələcək perspektivi baxımından son dərəcə nikbin ovqat formalaşdırdı.

**(ardı 3-cü səhifədə)**

## Bakı qlobal iqlim savaşının baş qərargahıdır




Səhifə ⇨ 8

## Türk dövlətləri “ASAN” ticarət edəcək



Səhifə ⇨ 7

## Azərbaycan təhsili: yeniyə – “hə”, köhnəyə – “yox



Səhifə ⇨ 9

## İran Rusiyaya qarşı, yoxsa “Sobhaniçilik”?




**Əlbəttə, səfirlərin təmsil etdikləri ölkələrin auditoriyasına hesablanmış fikirlər səsləndirmələrini başa düşürük. İndiki halda, İranın Ermənistandakı səfiri Mehdi Sobhaninin, eyni zamanda, öz ölkəsinin maraqları çərçivəsində dillənməsini də həmçinin. Ancaq ali diplomatik təmsilçilərin, belə demək mümkünsə, Roma papasından daha artıq katolik olmağa hesablanmış ritorikasını anlamırıq.**

Yəni, M.Sobhaninin erməni ağzına güc verən dilini qəbul etmirik. Görəsən, İranın Ermənistana səfir göndərdiyi şəxslər hamısı belədir, yoxsa Sobhani unikal nüsxədir? Erməni xislətindəki “parametrlər” iranlı diplomatlara beləmi çox təsir göstərir ki, elementar etikanı bir kənara qoyur, körpüləri yandırırmış kimi davranırlar? Nə deyək, bəlkə məsələ heç etikada da deyil. Görək nədədir.

**(ardı 5-ci səhifədə)**

# Dünya Bankı ölkəmizdə ÜDM-in davamlı artacağını proqnozlaşdırıb




**Dünya Bankı Azərbaycanın iqtisadi artım proqnozunu yeniləyib. Bu barədə məlumat bankın qlobal iqtisadiyyatla bağlı hesabatında yer alıb. Bu sənədə əsasən, ölkəmizdə ümumi daxili məhsul istehsalının 2024-cü ildə 2,3 faiz, 2025-ci ildə isə 2,4 faiz artacağı proqnozlaşdırılıb. Bu isə qurumun cari ilin yanvar proqnozu ilə müqayisədə çox da fərqli deyil.**

Dünya Bankının qlobal iqtisadiyyatla bağlı hesabatında 2026-cı ildə Azərbaycanda iqtisadi artımın 2,4 faiz təşkil edəcəyi vurğulanıb. Ümumilikdə isə bank Cənubi Qafqaz ölkələrində iqtisadi artımın 2024–2026-cı illərdə təxminən 3,5 faiz səviyyəsində sabitləşəcəyini proqnozlaşdırır. Hesabatda qeyd olunur: “Azərbaycanın 2023-cü ildə nəzərəçarpacaq dərəcədə aşağı olan karbohidrogen ixracının müəyyən qədər bərpası gözlənilir. Bu dirçəlişin Ermənistan və Gürcüstanda son illərdə qeyri-adi yüksək artımdan sonra yavaşlamanı balanslaşdıracağı gözlənilir. Ukraynanın işğalı nəticəsində region ölkələrinin ticarətində isə artım davam edəcək”.

**(ardı 7-ci səhifədə)**

# Braziliya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Luiz İnasio Lula da Silvaya

**Hörmətli cənab Prezident,**

7 Sentyabr – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün Braziliya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Braziliya ilə dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Ötən dövr ərzində Azərbaycan-Braziliya əlaqələrinin həm ikitərəfli, həm də çoxtərəfli əsasda genişlənməsi bizi sevindirir.

Bu il Bakıda təşkil ediləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası zamanı Braziliya ilə birgə sıx əməkdaşlıq edəcəyimizə inanıram. Qlobal istiləşməni 1,5 C° səviyyəsində saxlamaq məqsədilə Üçlük mexanizmi çərçivəsində ölkəniz və Birləşmiş Ərəb Əmirlikləri ilə apardığımız birgə fəaliyyəti yüksək qiymətləndirirəm.

Fürsətdən istifadə edərək G20 Sammitinin keçirilməsində ölkənizə uğurlar arzulayıram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 sentyabr 2024-cü il**

# Mehriban Əliyevanın Paralimpiya Oyunlarında qızıl medal qazanan Orxan Aslanova təbriki

**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Orxan Aslanovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**




**Paylaşımda deyilir:** "Uzunluğa tullanma yarışında mübarizə aparan Orxan Aslanovu qızıl medal münasibətilə təbrik edirəm! "Paris-2024" Yay Paralimpiya Oyunlarında Azərbaycana medal qazandırmış bütün idmançılara minnətdaram! Paraatletimizə güc, enerji və yeni qələbələr arzulayıram!".

# Birinci xanım Paralimpiya Oyunlarının gümüş medalçısı Lamiyə Vəliyevanı təbrik edib




**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Lamiyə Vəliyevanın "Paris-2024" Yay Paralimpiya Oyunlarında növbəti uğuru – gümüş medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir:** "Paris-2024" Yay Paralimpiya Oyunlarında dünya rekordunu yeniləmiş qızıl mükafatçımız Lamiyə Vəliyevanın növbəti qələbəsi! Gümüş medal! Azərbaycanı layiqincə təmsil edən idmançımızı səmimi-qəlbdən təbrik edir, ona güc, enerji və yeni qələbələr arzulayıram!".

# Birinci vitse-prezidentin Paralimpiya Oyunlarında bürünc medal qazanan İlham Zəkiyevə təbriki

**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paracüdoçusu İlham Zəkiyevin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**




**Paylaşımda deyilir:** "Növbəti qələbəmiz! İlham Zəkiyev "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazandı! Gərgin əməyinə və qələbə əzminə görə paracüdoçumuza təşəkkür edirəm! Milli yığmamızın bütün üzvlərinə yeni qələbələr və nailiyyətlər arzulayıram!".

# Mehriban Əliyeva Paralimpiya Oyunlarında bürünc medal qazanan Raman Saleyi təbrik edib




**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraüzgüçüsü Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir:** "Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında 3-cü medalı! Bürünc mükafatçını təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərimizə təşəkkür edirəm! Hər bir idmançıya möhkəm cansağlığı, güc və yeni nailiyyətlər arzulayıram".

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I); 2024, № 1, maddə 31, № 3, maddə 257, № 5 (I kitab), maddələr 516, 518) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 9.13-cü bənddən "siyasi partiyaların," sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 9.13-1-ci bənd əlavə edilsin:

"9.13-1. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq siyasi partiyanın fəaliyyətinin normativ hüquqi aktların və nizamnaməsinin tələblərinə uyğunluğunu yoxlamaq;".

3. 10.6-cı bəndə "şəxsin" sözündən sonra "(siyasi partiyalar istisna olmaqla)" sözləri əlavə edilsin.

4. 10.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"10.7. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda siyasi partiyaya münasibətdə məlumatları nəzərdən keçirmək, araşdırma aparmaq, izahat almaq, yazılı xəbərdarlıq etmək və digər tədbirlər görmək;".

5. 10.9-cu bənddə "qanunvericiliklə" sözü "qanunla" sözü ilə əvəz olunsun və həmin bəndə "partiyaların" sözündən sonra "fəaliyyətinin dayandırılması və ya" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

## "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1642 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci və 4-cü hissələrə "gizir" sözündən sonra "(miçman)" sözü əlavə edilsin;

1.2. 5.2-ci bənd üzrə:

1.2.1. birinci abzasa "hallarda" sözündən sonra "ayrılıqda" sözü əlavə edilsin;

1.2.2. 5.2.1-ci yarımbəndə "gizir" sözündən sonra "(miçman)" sözü əlavə edilsin;

1.2.3. 5.2.2-ci yarımbənddə "ali təhsil müəssisəsinə qəbul olduqda" sözləri "müvafiq vəsaitin 50 faizi ali təhsil müəssisəsinə və ya hərbi kollecə qəbul olduqda, qalan 50 faizi isə bu Fərmanın 5.2.1-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir (miçman) kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

# Şamaxı aqroturizmə qapı açır



**Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Meysəri kəndində III Üzüm və Şərab Festivalının açılışı olub.**

Təntənəli açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və digər şəxslər iştirak ediblər.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov bildirib ki, regionun turizm potensialı çox böyükdür. Vaxtilə yalnız aqrar region kimi tanınan Şamaxı bu gün həm aqroturizm, həm də turizmin digər bütün istiqamətlərində inkişaf edir. Şamaxının poeziyası, musiqisi, xalçaçılığı, qədim tarixi abidələri, turistlərə çox yüksək səviyyədə təqdim etmək yeni layihələr icra olunacaq.



Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə deyib ki, festivalın miqyası ildən-ilə genişlənəcək, beynəlxalq xarakter daşıyacaq. Azərbaycan şərabçılıq, eləcə də Şirvanda üzümçülük ənənələri çox qədim və zəngindir. Dövlət Turizm Agentliyi şərabçılığın təbliğində bu irsdən geniş istifadə edəcək.

Festivalın ilk günündə 4 mindən çox adam müxtəlif tədbirlərin iştirakçısı oplub. Təqdimatlarda ölkənin müxtəlif bölgələrində hazırlanan şərblar və üzüm məhsulları sərgilənib.

Xatırladaq ki, Azərbaycan 20 ölkənin şərabçılıq marşrutunu özündə birləşdirən, Avropa Şurası və Avropa Mədəni Marşrutlar İnstitutu tərəfindən şərab irsi və şərabçılıq turizmini, eləcə də dayanıqlı turizm növlərini təşviq etmək məqsədi ilə yaradılmış "İter Vitis" maddi və qeyri-maddi şərabçılıq mədəni marşrutunun üzvüdür. Festivalın keçirilməsinin məqsədi isə yerli üzüm və şərab istehsalını təşviq etmək, şərab məhsullarının ixrac potensialını artırmaq, Azərbaycanda üzümçülük və şərab istehsalı tarixinin və bu sahədə görülən işlərin geniş ictimaiyyətə çatdırılmasıdır.

***XQ***

# 91 ailə də Şuşasına qovuşdu





**Sentyabrın 7-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Şuşaya çatıb. Bu mərhələdə şəhərə köçürülən 91 ailəyə mənzillərin açarları təqdim edilib.**

Mərasimdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmiləri iştirak ediblər.

Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzil verilir. İndiyədək şəhərdə 204 ailə (763 nəfər) mənzillə təmin edilib.

**XQ**

# Azərbaycan – İtaliya: Avropa məkanında əməkdaşlıq və tərəfdaşlıq örnəyi

(əvvəli 1-ci səhifədə)

Qətiyyətlə demək olar ki, Prezident İlham Əliyev İtaliyaya səfəri zamanı, ümumən, Avropada Azərbaycan fırtınası əsdirdi – ölkəmizin qitə üçün önəmini son dərəcə aydın və səlist şəkildə ortaya qoydu. Təkcə İtaliya deyil, bütövlükdə, regionun media orqanları dövlətimizin başçısının səfərinə böyük əhəmiyyət verdilər. Konkret olaraq, İtaliyanın RAI, ANSA, "Borsa Italiana" və digər mətbu orqanlarında dərc olunan yazılarda Prezident İlham Əliyevin Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyadakı çıxışından ətraflı söz açıldı. Ölkəmizin liderinin Azərbaycan və İtaliyanın uzun illər ərzində strateji tərəfdaşlar kimi fəaliyyət göstərdiyini vurğulaması üzərində geniş dayanıldı. Əlbəttə, dövlətimizin başçısının İtaliya səfəri ilə bağlı üzərində dayanılmalı məqamlar yetərincə çoxdur.



Strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan – İtaliya münasibətlərinə dair ayrı-ayrı məqamlar baxımından Prezident İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşündə səslənmiş tezislərə diqqət yetirmək son dərəcə vacibdir. Görüşdə dövlətimizin başçısının səfərinin əhəmiyyəti yüksək dəyərləndirildi, iki ölkə arasında əlaqələrin gündən-günə inkişafının, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığın möhkəmlənməsinin xüsusi məmnunluq doğurduğu vurğulandı. Bildirildi ki, ikitərəfli iqtisadi-ticari əlaqələrin, xüsusilə sənaye, energetika sahələrində işbirliyinin genişləndirilməsi qarşıda yeni üfüqlər açır. Eyni zamanda, humanitar-mədəni əlaqələrin də ikitərəfli gündəmin başlıca prioriteti olduğu diqqətə çatdırıldı. Hesab edirik ki, burada ADA Universiteti ilə İtaliya universitetləri arasında İtaliya–Azərbaycan Universiteti layihəsinin önəmi xüsusi qeyd edilməlidir.

Bəli, həyata keçirilən Azərbaycan – Türkiyə Universiteti, Azərbaycan – Rusiya Universiteti təşəbbüsü, ardınca İtaliya – Azərbaycan Universiteti ideyası. Dahi Nizaminin dediyi kimi, qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz. Azərbaycan dövləti İtaliya ilə müştərək təhsil məsələsini qaldırmaqla, ikitərəfli münasibətlər sisteminə ayrıca strateji seqment əlavə edir. Nəzərə alaq ki, Avropanın göbəyində yerləşən İtaliya nəinki qitənin, bütövlükdə dünyanın qədim mədəniyyət mərkəzlərindən, sivilizasiya ocaqlarındandır, dövlətçilik ruhunun tarixi tərənnüm plasdarmıdır. Universitet ideyası isə Azərbaycan insanının Avropanı duymasıdır, eyni zamanda, əksinə Avropa insanının Azərbaycan xalqı, onun mədəniyyəti, məişəti, ümumən azərbaycanlı nəfəsi ilə daha yaxından tanışlığıdır. Bu tanışlıq yüzilliklərə, minilliklərə miras qalacaq sərvətdir. Məsələyə siyasi baxımdan yanaşsaq, yalnız bir məqamı vurğulaya bilərik: mənəvi və humanitar mühit hər bir halda siyasətə də təsirini göstərir.

Nəzərə alaq ki, hazırda Azərbaycan – İtaliya münasibətləri oturuşmuş möhkəm təmələ əsaslanır və həmin təməl üzərində uğurla inkişaf etməkdədir. Prezident İlham Əliyevin Beynəlxalq Çernobbio Forumundakı çıxışında bildirdiyi kimi, uzun illər ərzində Azərbaycanın və İtaliyanın strateji tərəfdaşlar kimi fəaliyyətinə əsas yaradan 10 il əvvəl qəbul edilmiş müvafiq bəyannamə var: "Bizim əməkdaşlığımız bir çox sahəni əhatə edir. Bizim müntəzəm siyasi təmaslarımız var. Bu, 2020-ci ildən bəri mənim İtaliyaya 3-cü səfərimdir. Prezident Matarella 2018-ci ildə Azərbaycana səfər etmişdir. Yüksək səviyyəli siyasi təmaslarımız bizim yaxın siyasi tərəfdaş olduğumuzu nümayiş etdirir".

Dövlətimizin başçısının Azərbaycan – İtaliya əməkdaşlığındakı "uzun illər" məntiqi özündə bir çox məsələləri birləşdirir. Məlum olduğu kimi, 1995-ci il noyabrın 10-da Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın ENİ/Agip şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1996-cı il iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1998-ci il iyunun 2-də isə Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər imzalanıb. Nəticə etibarilə İtaliya Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşına çevrilib. Eyni zamanda, onu da deyək ki, Cənub Qaz Dəhlizi (CQD) və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəməri (TAP) ikitərəfli enerji əməkdaşlığını və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən vacib amil kimi qiymətləndirilir. Ümumən, Azərbaycan–İtaliya münasibətlərinin iqtisadi və siyasi spektrini vurğulayan çoxsaylı məqamlar var ki, onların hər biri barədə geniş danışmaq mümkündür.

Bəli, Azərbaycan – İtaliya münasibətləri nümunəvidir. Yazımızda bu nümunəviliyi təsdiqləyən bəzi cəhətlərin üzərində dayandıq. Hesab edirik ki, əlaqələrimizin belə bir xarakter qazanması inkişafımızı gözü götürməyən qüvvələrə, o cümlədən, ermənipərəst mövqe tutan Avropa dövlətlərinə də mesaj olmalıdır. Onlar anlamalıdırlar ki, rəsmi Bakı ilə əməkdaşlıq yüksək dividend vəd edir və bunun mənəvi tərəfi olduğu kimi, maddi və sosial tərəfi də var.

Təkcə bir faktı qeyd edək ki, bu gün Azərbaycan Avropanın enerji təchizatında son dərəcə mühüm yer tutur. Bu, dövlətimizin başçısının İtaliyaya səfəri zamanı keçirdiyi görüşlərdə, forum və toplantılarda kifayət qədər, dolğunluğu ilə vurğulandı, perspektivlərdən yetərincə, özü də fundamental notlarla söz açıldı.

Ümumiləşdirmə aparsaq, tam qətiyyətlə demək olar ki, Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri Azərbaycanın xarici siyasətinin növbəti uğur salnaməsi kimi tarixə düşəcək. Uğurun təminat faktorunu vurğulayan cəhətləri isə diqqətə çatdırdıq. Bir daha onların üzərində dayanaraq bildirək ki, prinsipiallığa söykənmiş rasionallıq ölkəmizin qlobal aktora çevrilməsində mühüm rol oynayıb. Azərbaycan – İtaliya əməkdaşlığı respublikamızın qlobal aktorluq ampluasını zənginləşdirir. Mövcud amplua isə diplomatiyamızın balanslılıq xəttinin parlaqlıq göstəricisidir. Nəzərə alaq ki, dövlətimizin başçısı bu il Böyük Britaniyaya, Almaniyaya və "köhnə qitə"-nin digər paytaxtlarına, həmçinin Mərkəzi Asiya, yaxın Şərq ölkələrinə də səfərlər gerçəkləşdirib. Haqqında söz açdığımız parlaqlıq bu intensiv qrafiklə və istiqamət müxtəlifliyi ilə təsdiqini tapır. Deməli, ölkəmizin balanslı xarici siyasət kursunun keyfiyyət trayektoriyası yüksəkdir. Nəticə isə göz önündədir. Azərbaycanın Qərblə Şərq arasındakı körpü rolunu vurğulayır, ölkəmizə inamı və etimadı daha da yüksəldir.

Bəli, Azərbaycanın bütün qütblərlə münasibətlərdə balanslı siyasət xəttini əsas götürməsi, onu dövrün mürəkkəb siyasi kataklizmlərdəki mövqeyini gücləndirir. Güclü isə həm də inam və etimad bəslənilən tərəfdir. Bu gün nəinki İtaliyada, habelə bütün dünyada Azərbaycana yüksək etimad və inam mühiti formalaşıb. Baxın, Prezident İlham Əliyev Rusiya – Ukrayna müharibəsinin dayanması naminə ölkəmizin vasitəçilik missiyasını təklif edir. Dövlətimizin başçısının təşəbbüsünün reallıqla ciddi fiksasiya təbiəti şübhəsizdir. Deməli, qlobal aktorluq ampluasının sülhyaratma missiyası da aktualdır.

***XQ-nin analitik qrupu***

# Aİ missiyasının şübhəli fəaliyyəti davam edir

(əvvəli 1-ci səhifədə)

Qeyd etdiyimiz kimi, missiyanın fəaliyyəti Rusiyada da tənqid obyektidir. Bugünlərdə Rusiyanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Sergey Kopırkin İrəvanda yerli mediaya açıqlamasında bildirib ki, Aİ missiyası Ermənistanda sərhədləri qorumur, kəşfiyyat məlumatları toplayır. "Təəssüf ki, Ermənistan rəhbərliyi dövlətin sərhədlərini heç də qorumayan, "monitorinq" adı altında Azərbaycan, İran və Rusiyaya qarşı kəşfiyyat məlumatları toplayan Aİ missiyasını dəvət etməyi üstün tutdu" – deyən səfir əlavə edib ki, Cənubi Qafqazın taleyini müstəsna olaraq region ölkələri və qonşu tərəfdaş dövlətlər müəyyənləşdirməlidirlər.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov da bir neçə gün öncə buna bənzər fikirlər səsləndirib. Diplomat "RİA Novosti"yə müsahibəsində Aİ-nin Ermənistandakı mülki müşahidə missiyasının faktiki olaraq Azərbaycan, Rusiya və İran əleyhinə kəşfiyyat məlumatları topladığını deyib. Onun sözlərinə görə, ABŞ və müttəfiqləri Ukrayna və bir sıra dövlətlərdə mövcud marionet hakimiyyətlər vasitəsilə Rusiyanın qonşuluğundakı münaqişə ocaqlarını alovlandırmaq üçün istənilən addımlara hazırdır: "Bu regiona müdaxiləyə, məsələn, Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasını göstərmək olar. Kanadadan olan "ekspertin" də onun tərkibinə daxil edilməsi ilə bu missiya NATO-nun naməlum məqsədlərə xidmət edən əməliyyatına çevrilib. Bu müşahidə missiyasının məxfiliyi və nə Ermənistana, nə də Azərbaycana tabe olması onun Qərbin hibrid müharibə aləti olduğunu deməyə əsas verir. Faktiki olaraq bu missiya Azərbaycan, İran və Rusiyaya qarşı kəşfiyyat məlumatları toplamaqla məşğuldur".



Səfir Ermənistanın Qərb ölkələri ilə təhlükəsizlik sahəsindəki əməkdaşlığının bu dövlət üçün yaxşı heç nə vəd etmədiyini açıqlayıb. Rusiyalı diplomatın sözlərinə görə, Cənubi Qafqazdakı problemlər kənar müdaxilə olmadan region ölkələrinin bilavasitə iştirakı ilə həll edilməlidir.

Ancaq Ermənistan hakimiyyəti Aİ missiyasının şübhəli fəaliyyəti ilə bağlı Rusiyanın narazılığını qulaqardına vurur. Rəsmi İrəvan missiyaya Aİ və bütövlükdə, Qərb ilə əlaqələrin möhkəmləndirilməsi üçün bir vasitə kimi baxır. Eyni zamanda, Nikol Paşinyan hökuməti müşahidəçilərə bir növ Ermənistanın təhlükəsizliyinin təminatçısı kimi yanaşır. Bu səbəbdən missiyaya Ermənistanda "gözün üstə qaşın var" demirlər. Əksinə, Paşinyanın silahdaşları yeri gəldikcə, Rusiyadan missiyaya yönəlik tənqidlərə cavab verirlər. Bu mənada Ermənistan parlamentinin Avropaya inteqrasiya üzrə daimi komissiyasının rəhbəri, hakim "Mülki müqavilə" partiyasından olan deputat Arman Yeqoyanın fikirləri diqqəti cəlb edir. Jurnalistlərə açıqlama verən Yeqoyan deyib ki, səfir Sergey Kopırkin Aİ-nin Ermənistandakı müşahidə missiyası ilə bağlı yanlış informasiyalara və təsəvvürlərə malikdir. Onun fikrincə, Kopırkin dərindən yanılır. Deputat əlavə edib ki, bu və ya digər dövlətdə fəaliyyət göstərən xarici nümayəndələrin heç də hamısı kəşfiyyat məlumatlarının toplanması ilə məşğul olmur.

Qeyd etdiyimiz kimi, Aİ missiyası regiona 2022-ci ilin oktyabrında iki aylıq müvəqqəti missiya adı ilə gəlmişdi. Müşahidəçilər ilk gündən ölkəmizlə əldə olunmuş razılaşmalara zidd fəaliyyəti ilə seçiliblər. Amma Ermənistanın "açıq qapı" siyasəti sayəsində regiona daxil olan Aİ bu missiyanı fürsət bilərək, fəaliyyətini genişləndirmək, Azərbaycanın razılığı olmadan şərti sərhəddə mandatını və missiya üzvlərinin sayını özbaşına artırmaq yolunu tutub. Bu isə Bakıda haqlı narazılıq doğurub.

Bu istiqamətdə fikirlərini jurnalistlərlə bölüşən Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, hazırda Ermənistan və Azərbaycan arasında reqlament razılaşdırılıb. Razılaşmaya uyğun olaraq zəmin və çərçivə yaradılır ki, delimitasiya prosesi aparılsın. Qarşılıqlı anlaşma şəraitində proses bundan sonra da ikitərəfli əsasda davam edəcək: "Sərhədlərin delimitasiya prosesi sırf ikitərəfli xarakter daşıyır. Prosesin iki dövlət arasında sülh, qarşılıqlı anlaşma şəraitində gedişatını nəzərə alaraq hesab edirik ki, artıq Avropa İttifaqının sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyət göstərməyinə ehtiyac yoxdur. Bu missiyanın da fəaliyyətinə xitam verilməsinin zamanı yetişib".

Ermənistan isə Aİ missiyası ilə bağlı yersiz inadkarlıq göstərməkdən əl çəkənə oxşamır. Rusiya səfirinin açıqlamasına Ermənistan mediasında verilən isterik reaksiya belə demək üçün əsaslar yaradır. Məsələn, "Armenian Report" saytında dərc olunmuş "İki addım irəli üçün bir addım geri" sərlövhəli məqalədə səfir Kopırkin tənqid olunub. Onun Ermənistan–Azərbaycan şərti sərhədində fəaliyyət göstərən Aİ missiyasının monitorinq adı altında Rusiya, Azərbaycan və İrana qarşı mübarizə aparmaq üçün kəşfiyyat məlumatları toplamasına dair açıqlaması "yalan bəyanat" adlandırılıb. Qeyd edilib ki, Azərbaycan, Türkiyə, Rusiya və İranda eyni şeylərdən danışılır, amma hər bir ölkə məsələyə ancaq öz maraqları prizmasından yanaşır: "Eyni zamanda, Moskva ilə Tehran arasında, eləcə də Moskva ilə Ankara arasında regionumuzun gələcəyi ilə bağlı fikir ayrılıqları var. Onların hamısı yalnız bir məsələdə həmfikirdir – burada demokratik Qərbin (?) təsiri olmamalıdır. Mahiyyət etibarı ilə bu, ölkəmizin hazırkı rəhbərliyinə ultimatumdur".

Bütün bu baş verənlər fonunda Ermənistanın son günlər şərti sərhəddə bir neçə dəfə təxribat törətdiyi diqqətdən yayınmır. Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Ermənistan silahlı qüvvələrinin bölmələri ordumuzun Kəlbəcər rayonu istiqamətində və Naxçıvanda yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Situasiyanı şərh edən **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "XQ"yə açıqlamasında bildirdi ki, rusiyalı rəsmi şəxslər, o cümlədən diplomatlar Ermənistandakı Aİ missiyasının bölgə ölkələri barədə kəşfiyyat məlumatları toplamaqla məşğul olması barədə



çoxdan danışırlar. Onun sözlərinə görə, ancaq missiyanın bu məlumatı necə toplaya bilməsi maraqlıdır: "Ümumiyyətlə, Ermənistanda Rusiya ilə bağlı hansı məlumatı toplamaq olar? Rusiyanın Ermənistanda hərbi bazası var. Ancaq bu barədə məlumat toplamaq olar. Amma Avropa missiyası həmin hərbi bazadan uzaq məsafədə yerləşir. Digər tərəfdən, səfir Kopırkin İranın da adını çəkir. Amma mən İrandan bununla bağlı Ermənistanın və Avropa missiyasının ünvanına açıq etiraz eşitməmişəm. Tehran heç ABŞ-nin Ermənistanda keçirdiyi hərbi təlimlərə də etirazını bildirmir. İranın yeganə etirazı Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Amma Avropa missiyası və ABŞ–Ermənistan birgə hərbi təlimləri ilə bağlı heç bir irad bildirmir. Ümumi sözlərin ifadə edildiyi bəyanatlar verir".

E.Şahinoğlu qeyd etdi ki, əlbəttə, Aİ missiyasının fəaliyyəti mənasız və məntiqsizdir: "Məsələnin bu hissəsi aydındır. Onlar nəyi monitorinq edirlər ki? Ola bilsin ki, onları ora göndərənlərin müəyyən məqsədləri olub. Açıqlanan əsas məqsəd o idi ki, bölgədə hansısa yeni müharibənin qarşısı alınsın. Düşünürdülər ki, guya, ölkəmiz Zəngəzur dəhlizini açmaq üçün o əraziyə hücum edə bilər və Aİ missiyası orada olsa, bu, Azərbaycan üçün çəkindirici faktor olacaq. Amma Ermənistan ərazisinin bizim tarixi torpaqlarımız olmasına baxmayaraq, bizim ora hücum etmək kimi bir planımız olmayıb. Ona görə də belə çıxır ki, Avropa missiyası orada faktiki olaraq işsiz-gücsüz qalıb. Əlbəttə, bu vəziyyətdə missiyanın geri çağırılması məntiqli olardı".

Ancaq müsahibimiz qeyd etdi ki, görünür, Avropa və ABŞ-nin Ermənistana yerləşməklə bağlı strateji planları var: "Belə bir plan ola bilər. Amma belə bir planın olması o demək deyil ki, orada Rusiyanı izləyir, hansısa informasiya toplayırlar. Brüssel və Vaşinqtonun əsas məqsədi Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmaqdır. Bunu Rusiya da başa düşür. Sadəcə, rusiyalı rəsmi şəxslər bunu açıq şəkildə deyə bilmədikləri üçün bəhanə edirlər ki, guya, Aİ missiyası Ermənistanda Rusiya və İran haqqında məlumat toplayır".

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** isə ermənilərin məqsədini anlamağın çətin olduğunu bildirib. Onun sözlərinə görə, vizual şəkildə hansısa kəşfiyyat məlumatını toplamağın mümkün olub-olmadığı da sual altındadır: "Zənnimcə, kəşfiyyat məlumatları onlara Fransa tərəfindən ötürülür. Onlar bu məlumatları müxtəlif müasir üsullar və avadanlıqlarla toplayırlar".



Fransa prezidenti Emmanuel Makronun Ermənistana səfərinin planlaşdırıldığını vurğulayan T.Zülfüqarov ermənilərin son günlər sərhəddə təxribatlar törətmələrinin də məhz bununla bağlı olduğunu deyib. Göstərmək istəyirlər ki, guya, onlar üçün təhlükə var. Bu barədə Fransa tərəfdən hansısa bəyanatların və vədlərin verilməsini istəyirlər. Yəni, həmişəki kimi, ermənilər təxribat xarakterli siyasət yürüdürlər və köhnə üsullarından istifadə edirlər.

***Səxavət HƏMİD***
***XQ***

## “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası”nın təsdiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş Əlavə 2 – “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.10-cu yarımbəndin birinci cümləsində “gəlirinin” sözündən sonra “(“Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 7.3-cü bəndinə əsasən hərbi qulluqçulara verilən maliyyə dəstəyi nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

2.2. 3.1.11-ci yarımbənddə “qanunla” sözü “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində” sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 30 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 898 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Elektron ipoteka və kredit zəmanət” sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.3-cü yarımbəndə “qiymətləndirici” sözündən sonra “, bu Əsasnamənin 8.7-ci bəndinə münasibətdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (bundan sonra – Nazirlik)” sözləri əlavə edilsin;

3.2. 8-ci hissə üzrə:

3.2.1. 8.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.1.4. ipoteka kreditinin verilməsi üçün müvəkkil banka, habelə “Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanında nəzərdə tutulmuş hallarda dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi üzrə elektron müraciəti real vaxt rejimində Nazirliyə göndərmək;”;

3.2.2. aşağıdakı məzmunda 8.7-ci bənd əlavə edilsin:

“8.7. Hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi üzrə Nazirlik aşağıdakı istifadə imkanlarına malikdir:

8.7.1. maliyyə dəstəyi göstərilməsi üçün tələb olunan məlumatları almaq;

8.7.2. maliyyə dəstəyi göstərilməsinə dair müvafiq qərar qəbul edildiyi gün bunu ipoteka krediti almaq istəyən şəxsə bildirmək;

8.7.3. maliyyə dəstəyi göstərilməsi dayandırıldıqda, yaxud yenidən bərpa edildikdə Fonda və müvəkkil banka məlumat vermək;

8.7.4. elektron sistem üzrə aidiyyəti statistik məlumatlardan və hesabatlardan istifadə etmək.”;

3.3. 9.5-ci bəndə “Ərizəçi” sözündən sonra “və Nazirlik” sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təklifləri əsasında bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydada nəzərdə tutulmuş maliyyə dəstəyi üçün tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulmasını və Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ayrılmasını təmin etsin;

5.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydada nəzərdə tutulmuş hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditinin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması üçün müvafiq illərdə dövlət büdcəsindən vəsait ayrılması ilə bağlı tədbirlər görsün.

**6** Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

---

*Azərbaycan Respublikası Prezidentinin*
*2024-cü il 7 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi qaydası

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 7.3-cü bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsində, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursunda, Bakı Hərbi Kollecində, Gəncə Hərbi Kollecində və Naxçıvan Hərbi Kollecində (bundan sonra – xüsusi təyinatlı təhsil müəssisələri) təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsinə dair tələbləri və digər təşkilati məsələləri müəyyən edir.

1.2. Bu Qaydada nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Qaydanın 1.1-ci bəndində nəzərdə tutulan hərbi qulluqçulara güzəştli ipoteka kreditinin verilməsi proseduru və şərtləri Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası” (bundan sonra – İpoteka kreditinin verilməsi Qaydası) ilə müəyyən edilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar İpoteka kreditinin verilməsi Qaydasında müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Bu Qaydanın müddəaları 2024–2025-ci tədris ilindən başlayaraq dövlətlərarası müqavilə əsasında xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 (beş) təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən Azərbaycan Respublikasının vətəndaşları olan hərbi qulluqçulara da şamil edilir.

### 2. Maliyyə dəstəyi göstərilməsi şərtləri

2.1. 2024–2025-ci tədris ilindən başlayaraq xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 (beş) təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə maliyyə dəstəyi göstərilir.

2.2. Maliyyə dəstəyi bu Qaydanın 3.1-ci və 3.2-ci bəndlərinə uyğun olaraq güzəştli ipoteka kreditinin verildiyi tarixə ipoteka ilə yüklü edilən yaşayış sahəsinin qiymətinin bir hissəsi (bundan sonra – ilkin ödəniş) və aylıq annuitet ödənişlərinin (bundan sonra – annuitet ödənişləri) bir hissəsi üzrə yalnız bir yaşayış sahəsinin satın alınması məqsədilə müddəti azı 15 (on beş) il olan güzəştli ipoteka kreditləri üzrə göstərilir.

### 3. Maliyyə dəstəyinin həcmi

3.1. İlkin ödəniş İpoteka kreditinin verilməsi Qaydasının 3.1.6-cı yarımbəndinə əsasən müəyyən edilmiş güzəştli ipoteka kreditinin maksimal məbləğinin 15 faizindən yuxarı olmamaqla, güzəştli ipoteka kreditindən istifadə etməklə satın alınan yaşayış sahəsinin alqı-satqı müqaviləsi üzrə qiymətinin 15 faizi məbləğində verilir.

3.2. Annuitet ödənişləri üzrə verilən maliyyə dəstəyi annuitet ödənişlərinin 50 faizi həcmində müəyyən edilir.

3.3. Güzəştli ipoteka krediti üzrə əsas borc məbləğinin bir hissəsi kredit müqaviləsində nəzərdə tutulmuş müddətdən əvvəl qaytarılarsa və ya borc restrukturizasiya edilərsə, annuitet ödənişləri üzrə maliyyə dəstəyi yenidən hesablanmış annuitet ödənişinin bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş həcmində müəyyən edilir.

### 4. Maliyyə dəstəyi göstərilməsi proseduru

4.1. Maliyyə dəstəyi göstərilməsi ilə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (bundan sonra – Nazirlik), Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra – Fond) və müvəkkil bank arasında informasiya mübadiləsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən “Elektron ipoteka və kredit zəmanət” sistemi (bundan sonra – elektron sistem) vasitəsilə həyata keçirilir və bu məqsədlə Nazirliyə elektron sistemdən istifadə imkanı yaradılır.

4.2. Maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsində nəzərdə tutulan vəsait Nazirliyin bu məqsədlə açılmış bank hesabında saxlanılır.

4.3. İpoteka kreditinin verilməsi Qaydasına əsasən müvəkkil bank tərəfindən güzəştli ipoteka kreditinin verilməsinə ilkin razılıq barədə qərar elektron sistemdə yerləşdirildiyi gün güzəştli ipoteka krediti almaq istəyən hərbi qulluqçunun (bundan sonra – borcalan) maliyyə dəstəyi göstərilməsinə dair müraciəti elektron sistem vasitəsilə real vaxt rejimində Nazirliyə göndərilir.

4.4. Nazirlik 5 (beş) iş günü müddətində maliyyə dəstəyi göstərilməsinə dair müraciətin bu Qaydanın tələblərinə uyğunluğunu yoxlayır, maliyyə dəstəyi göstərilməsinə dair razılıq və ya bu Qaydanın 6.1.1–6.1.3-cü yarımbəndləri ilə müəyyən edilmiş imtina əsasları aşkarlanarsa, imtina barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar qəbul edildiyi gün elektron sistemdə yerləşdirilir və real vaxt rejimində elektron sistem vasitəsilə borcalana da göndərilir.

4.5. Müvəkkil bank tərəfindən borcalana güzəştli ipoteka kreditinin verilməsinə razılıq verildiyi təqdirdə, həmin qərar elektron sistem vasitəsilə real vaxt rejimində Nazirliyə və borcalana göndərilir. Nazirlik 1 (bir) iş günü müddətində bu Qaydanın 3.1-ci bəndinə uyğun hesablanmış ilkin ödəniş üzrə vəsaiti borcalanın müvəkkil bankda bu məqsədlə açılmış bank hesabına köçürür.

4.6. Bu Qaydanın 4.5-ci bəndinə əsasən Nazirlik tərəfindən hərbi qulluqçunun müvəkkil bankda bu məqsədlə açılmış bank hesabına köçürülmüş vəsaitin təyinatından kənar məqsədlərlə istifadəsinə məhdudiyyət qoyulmasına dair müddəanın nəzərdə tutulması bank hesabı müqaviləsində təmin edilir.

4.7. İpoteka kreditinin verilməsi Qaydasına uyğun olaraq güzəştli ipoteka rəsmiləşdirilmədikdə və (və ya) yaşayış sahəsinin alqı-satqı prosesi başa çatmadıqda, bank hesabı müqaviləsinə uyğun olaraq, müvəkkil bank göstərilən halların baş verdiyi gündən 10 (on) iş günü müddətində ilkin ödəniş üzrə vəsaiti Nazirliyin bu məqsədlə açılmış bank hesabına geri qaytarır.

4.8. Güzəştli ipoteka krediti hesabına alınmış yaşayış sahəsi üzrə kredit və alqı-satqı müqavilələrinin surətləri elektron sistem vasitəsilə müvəkkil bank tərəfindən Nazirliyə göndərilir.

4.9. Nazirlik borcalanlar və güzəştli ipoteka kreditləri ilə bağlı bu Qaydaya əlavə olunmuş formaya uyğun məlumatları elektron sistemdən real vaxt rejimində əldə edir.

4.10. Nazirlik annuitet ödənişlərinə maliyyə dəstəyi üzrə vəsaiti bu Qaydanın 4.9-cu bəndində nəzərdə tutulan məlumatlar əsasında ödəniş ayından əvvəlki ayın son 10 (on) günündə borcalanın müvəkkil bankda bu məqsədlə açılmış bank hesabına köçürür.

4.11. Nazirlik növbəti ayın annuitet ödənişləri üzrə maliyyə dəstəyi verilərkən ötən ayın annuitet ödənişinin borcalan tərəfindən ödənilməsini bu Qaydanın 4.9-cu bəndində nəzərdə tutulmuş məlumatlar əsasında yoxlayır.

4.12. Bu Qaydanın 7.1-ci bəndinə əsasən maliyyə dəstəyi göstərilməsi dayandırıldıqda, yaxud yenidən bərpa edildikdə Nazirlik 3 (üç) iş günü müddətində elektron sistem vasitəsilə Fonda, müvəkkil banka və borcalana bildiriş göndərir.

4.13. Maliyyə dəstəyi göstərilməsindən imtina edilmiş hərbi qulluqçuların, maliyyə dəstəyi göstərilməsindən imtinaya əsas olmuş hallar aradan qalxdıqdan sonra, təkrar müraciət etmək hüququ vardır.

### 5. Sonradan maliyyələşmə

5.1. 2024–2025-ci tədris ilindən başlayaraq xüsusi təyinatlı təhsil müəssisələrində təhsil aldıqdan sonra məzun olan Azərbaycan Ordusunun hərbi qulluqçuları həqiqi hərbi xidmət müddətinin 5 (beş) təqvim ilini tamamlamadan güzəştli ipoteka krediti hüququndan istifadə etdikləri təqdirdə, onlar aşağıdakı şərtlərlə Nazirliyə yazılı formada ərizə ilə müraciət edərək sonradan maliyyə dəstəyi (bundan sonra – sonradan maliyyələşmə) ala bilərlər:

5.1.1. həqiqi hərbi xidmət müddətinin 5 (beş) təqvim ilini tamamladıqda;

5.1.2. güzəştli ipoteka krediti bu Qaydanın 2-ci hissəsinin tələblərinə uyğun olduqda.

5.2. Sonradan maliyyələşməyə aşağıdakılar aiddir:

5.2.1. bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş həcmdə yaşayış sahəsinin satın alındığı tarixə müəyyən edilmiş ilkin ödənişin hərbi qulluqçuya birdəfəlik ödənilməsi;

5.2.2. maliyyə dəstəyi göstərilməsinin təsdiq edildiyi tarixədək hərbi qulluqçu tərəfindən ödənilmiş annuitet ödənişlərinin bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş həcmdə hərbi qulluqçuya birdəfəlik ödənilməsi;

5.2.3. maliyyə dəstəyi göstərilməsinin təsdiq edildiyi tarixdən sonra annuitet ödənişlərinin bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş həcmdə aylıq olaraq ödənilməsi.

5.3. Nazirlik sonradan maliyyələşmə ilə bağlı edilmiş müraciətə 15 (on beş) iş günü müddətində baxır və müraciət üzrə tələbin bu Qaydaya uyğunluğunu yoxlayır. Sonradan maliyyələşməyə dair razılıq barədə və ya bu Qaydanın 6.1.1–6.1.3-cü yarımbəndləri ilə müəyyən edilmiş imtina əsasları aşkarlanarsa, imtina barədə əsaslandırılmış qərar qəbul edilir. Həmin qərar qəbul edildiyi gün elektron sistemdə yerləşdirilir və elektron sistem vasitəsilə hərbi qulluqçuya da göndərilir.

5.4. Sonradan maliyyələşməyə dair razılıq verildiyi təqdirdə, həmin hərbi qulluqçu bu Qaydaya uyğun olaraq borcalan hesab edilir.

5.5. Nazirlik:

5.5.1. bu Qaydanın 5.2.1-ci yarımbəndində nəzərdə tutulmuş ilkin ödənişi razılıq verildiyi tarixdən 5 (beş) iş günü müddətində borcalanın təqdim etdiyi müvafiq bank hesabına köçürür;

5.5.2. bu Qaydanın 5.2.2-ci yarımbəndində nəzərdə tutulmuş maliyyə dəstəyini razılıq verildiyi tarixdən növbəti təqvim ilinin 1-ci rübü ərzində borcalanın təqdim etdiyi müvafiq bank hesabına köçürür;

5.5.3. bu Qaydanın 5.2.3-cü yarımbəndində nəzərdə tutulmuş maliyyə dəstəyini güzəştli ipoteka krediti ilə bağlı müqaviləyə uyğun olaraq hər ayın son 10 (on) günündə borcalanın kreditə xidmət edən müvəkkil bankda bu məqsədlə açılmış hesabına köçürür.

### 6. Maliyyə dəstəyi göstərilməsindən imtina halları

6.1. Maliyyə dəstəyi göstərilməsindən Nazirlik aşağıdakı hallarda imtina edir:

6.1.1. hərbi qulluqçu bu Qaydanın 1.1-ci və ya 1.4-cü bəndlərində müəyyən edilmiş tələblərə uyğun olmadıqda;

6.1.2. yaşayış sahəsinin satın alınması məqsədilə verilən güzəştli ipoteka kreditinin müddəti 15 (on beş) ildən az olduqda;

6.1.3. hərbi qulluqçu “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 41.0.1-ci, 41.0.5-ci, 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.9-cu, 41.0.10-cu, 42.0.3-cü və ya 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarla əlaqədar ehtiyata və ya istefaya buraxılmış olduqda.

### 7. Maliyyə dəstəyinin dayandırılması və ya ona xitam verilməsi

7.1. Bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulan maliyyə dəstəyi aşağıdakı hallarda dayandırılır:

7.1.1. borcalan “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 41.0.1-ci, 41.0.5-ci, 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.9-cu, 41.0.10-cu, 42.0.3-cü və ya 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarla əlaqədar ehtiyata və ya istefaya buraxıldıqda;

7.1.2. ötən ayın annuitet ödənişi 30 (otuz) gün müddətində borcalan tərəfindən ödənilmədikdə.

7.2. Bu Qaydanın 7.1.1-ci yarımbəndinə əsasən maliyyə dəstəyi dayandırılan borcalan yenidən xidmətə qəbul edilərsə, xidmətə qəbul edildiyi gündən maliyyə dəstəyi göstərilməsi bərpa olunur.

7.3. Bu Qaydanın 7.1.2-ci yarımbəndinə əsasən maliyyə dəstəyi yalnız həmin ay üçün dayandırılır.

7.4. Maliyyə dəstəyinin dayandırılmasından bərpa edilməsinədək keçən müddətdə borcalan tərəfindən ödənilmiş annuitet ödənişləri üzrə ona hesablanan maliyyə dəstəyi üzrə vəsait 10 (on) iş günü müddətində birdəfəlik olaraq onun bu Qaydanın 4.10-cu bəndinə uyğun açılmış bank hesabına köçürülür.

7.5. Bu Qaydanın 7.1.1-ci yarımbəndində nəzərdə tutulan hallar olmadıqda, borcalan ehtiyata və ya istefaya buraxıldıqdan sonra da annuitet ödənişləri üzrə ona verilən maliyyə dəstəyi davam etdirilir.

7.6. Borcalan ölərsə və ölüm halı İpoteka kreditinin verilməsi Qaydasında nəzərdə tutulmuş sığorta təminatından kənar qalarsa, borcalanın vərəsəsi annuitet ödənişlərini ödədiyi halda, həmin şəxs bu Qaydaya əsasən borcalan hesab edilir və bu Qaydaya müvafiq olaraq maliyyə dəstəyindən yararlanır. Həmin şəxslə bağlı müvafiq məlumatlar müvəkkil bank tərəfindən elektron sistem vasitəsilə Nazirliyə göndərilir.

7.7. Güzəştli ipoteka kreditindən istifadə etməklə satın alınan yaşayış sahəsi özgəninkiləşdirildikdə və ya borcalanların güzəştli ipoteka kreditləri üzrə öhdəlikləri tam yerinə yetirildikdə maliyyə dəstəyinə xitam verilir.

### 8. Yekun müddəa

Maliyyə dəstəyi göstərilməsi üçün bu Qaydaya uyğun tələb olunan sənədlərin və ya məlumatların Nazirlik tərəfindən elektron sistem vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq Fond tərəfindən təmin edilir. Həmin sənədlər Fond tərəfindən kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər.

---

**“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası”na**

**Əlavə**

**“Elektron ipoteka və kredit zəmanət” sistemində borcalanlar və güzəştli ipoteka kreditləri üzrə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə təqdim olunmalı məlumatlar**

| Sıra №-si | Borcalanın fərdi identifikasiya nömrəsi | Borcalanın soyadı, adı, atasının adı | İpoteka ilə yüklü edilmiş əmlakın ünvanı | İpoteka ilə yüklü edilmiş əmlakın qiyməti (manatla) | Güzəştli ipoteka krediti üzrə borcun ümumi məbləği (manatla) | Güzəştli ipoteka kreditinin ilkin ödənişi üzrə ümumi məbləğ (manatla) | Güzəştli ipoteka kreditinin ilkin ödənişi üzrə maliyyə dəstəyinin məbləği (manatla) | Güzəştli ipoteka krediti üzrə borcun qalıq məbləği (manatla) | Növbəti annuitet ödənişinin məbləği (manatla) | Ötən ayın ödənilmiş annuitet ödənişinin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | | | | | | | | | | |
| 2. | | | | | | | | | | |
| 3. | | | | | | | | | | |
| … | | | | | | | | | | |

I MƏQALƏ

# Liderin sözü və əməli

## *Tarixi Çernobbio bəyanatı kontekstində*

### 2022-ci il, Çernobbio

İki il bundan əvvəl sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House – Ambrosetti" Beyin Mərkəzinin "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzulu beynəlxalq Çernobbio Forumu başlamışdı. Azərbaycan Prezidenti İlham Əliyevi İtaliya Prezidenti, baş naziri və "The European House – Ambrosetti" Mərkəzi tədbirdə iştiraka və orada nitq söyləməyə dəvət etmişdilər. Dövlət başçımız forumun plenar iclasında "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda çıxış etmişdi. Bu, adi bir çıxış deyildi, çünki İlham Əliyev enerji siyasəti, təhlükəsizlik və əməkdaşlığın dinamikası ilə bağlı tarixi əhəmiyyətli tezislər irəli sürmüşdü.

İlham Əliyevin həmin tədbirdəki çıxışı həm də rəsmi Bakının dünyaya mesajları idi. Bəlkə də Qərbdə çoxları Azərbaycan Prezidentinin ifadə etdiyi fikirlərin siyasi və geosiyasi dərinliklərinə varmaq həvəsində olmadılar. Lakin 2024-cü ildə yenə də Çernobbioda İlham Əliyevin bəyan etdiyi fikirlər onların nə qədər yanıldığını əyani göstərdi. Əlahəzrət faktlar bu fikri təsdiq edir. Öncə, ümumi xarakterli iki məqama nəzər yetirək.




### Bir ümumiləşdirmə və bir müqayisə

Bizim üçün əhəmiyyətli olan məqam Azərbaycan Prezidentinin ardıcıl, düşünülmüş, şəffaf və aydın strateji məqsədi olan siyasət həyata keçirdiyini Çernobbio konfransları timsalında bir daha göstərməkdir. Məsələ ondan ibarətdir ki, 2022-ci ildə Azərbaycan Prezidentinin Çernobbioda apardığı təhlili 2024-cü ildə yenə də Çernobbioda apardığı təhlil incəliyinə qədər tamamlayır. İndi bu cür ardıcıllığı, məntiqi bütövlüyü və xoşniyyətli siyasəti nadir hallarda görə bilirik. Böyük dövlətlər də daxil olmaqla kiçik və zəif ölkələrin də liderləri bu ardıcıllığı gözləmirlər və ya gözləyə bilmirlər. Bəzən onlardan birinin bu gün dediyini sabah söylədikləri inkar edir. Bunu C.Baydenin də, E.Makronun da, A.Şoltsun da müxtəlif zamanlarda eyni məsələ ilə bağlı dediklərində görmüşük. Kiçik dövlətlərə gəldikdə isə çəkinmədən deyə bilərəm ki, müasir dövrdə Nikol Paşinyan kimi ziddiyyətli və qeyri-ardıcıl fəaliyyət göstərən ikinci bir siyasətçi yoxdur. Bu adam o qədər "tələsir" ki, bəzən indi dediyi fikri 2 saat sonra özü təkzib edir. Misallar çoxdur. Ancaq əsas məsələ siyasi-diplomatik baxımdan ondan ibarətdir ki, bu tip siyasətçilərlə konstruktiv olmaq mümkün deyildir.

Ermənistan və Gürcüstan həm ərazicə, həm də təsir dairəsinə görə kiçik dövlətlərdir. Məsələ daha geniş miqyasda ABŞ, Fransa və Almaniya kimi ölkələrin siyasi liderlərinə gəldikdə çox düşündürücü görünür. Bunun fonunda bir müqayisə aparaq.

### İtaliya udur, Fransa uduzur

E.Makronun siyasəti Fransa kimi qüdrətli dövləti geosiyasi turbulentliyin oyuncağına çevirmişdir. ATƏT-in keçmiş Minsk qrupunun sabiq həmsədri kimi Fransa söz vermişdi ki, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində obyektiv mövqe tutacaq. Emmanuel Makron qeyri-ardıcıl davranışları və yalan vədləri ilə bu mövqeyini alt-üst etdi. Lakin Azərbaycan həmin dövrdə təmkinlə Fransa ilə konstruktiv əlaqələr qurmaq istiqamətində fəaliyyətini dayandırmadı.

E.Makron bu müsbət mesajı ya anlamadı, ya da ciddi hesab etmədi. Hər bir halda bütün imkanları ilə nümayiş etdirdi ki, Fransa obyektiv və tərəfsiz deyildir, Paris, birmənalı şəkildə təcavüzkar Ermənistanın yanındadır. Bunun fonunda Fransa II Qarabağ savaşından sonra daha da azğınlaşdı. Açıq-aydın İrəvanı dəstəklədi və hətta onu təxribatlara sövq etdi. Eyni zamanda, E.Makron sifətində heç bir səmimiyyət ifadəsi olmadan haray-həşir saldı ki, vasitəçi olmağa layiqdir. Bununla qeyri-ardıcıl mövqeyin yeni səhifəsi başladı və rəsmi Bakı Fransa ilə pozitiv əlaqələri qurmağa xeyli şübhəli yanaşmağa başladı. Bakı tam haqlıdır!

Həm də ona görə ki, Fransa qonşusu İtaliyanın davranışları fonunda olduqca qeyri-konstruktiv, qeyri-obyektiv və zavallı görünür. Bakının çağırışlarını demirəm, heç olmasa, İtaliya rəsmilərinin fəaliyyətindən bir müsbət nəticə çıxara bilmədilər və indi də çıxarmırlar. Hətta müəyyən müddətdə Fransanın dikbaşlığı ucbatından İtaliya ilə münasibətləri gərginləşdi. Rəsmi Brüssel güclə aranı sakitləşdirdi (nə qədər sürəcək?). Məsələ ondan ibarətdir ki, E.Makron İtaliya rəsmi dairələrinə təhqiramiz yanaşmışdı və Roma cavabını verdi. E.Makron Almaniyanın Kansleri O.Şoltsu da "qorxaq" adlandırmışdı. Çünki O.Şolts Azərbaycana süni təzyiq etməmişdi və E.Makronun Azərbaycan – Ermənistan danışıqlarında iştirakında israr etməmişdi.

E.Makronun neqativ enerjisini bir kənara qoyaq. Gələk italiyalı tərəfdaşlara. İtaliya Azərbaycanla real olaraq əməkdaşlıq etməyə başlamışdır. Müxtəlif istiqamətlərdə bu əməkdaşlıq o dərəcədə irəli getmişdir ki, indi İtaliya Azərbaycan Prezidendinin ifadə etdiyi kimi, Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sazişi də imzalanmışdır. Bundan başqa, İtaliya Azərbaycan neft və qazının Avropaya nəql olunmasında mühüm məkan rolunu uğurla oynayır. İtaliya Prezidenti Azərbaycana səfər etdiyi zaman vacib razılaşmalar əldə olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev bir neçə dəfə İtaliyaya rəsmi səfər etmişdir və hər dəfə də irəliyə doğru real addımlar atılmışdır.

Azərbaycan Prezidenti 2022-ci il Çernobbio tədbirində çıxışı zamanı əməkdaşlığın əhəmiyyətli aspektləri haqqında fikirlər səsləndirmişdir. İlham Əliyev demişdir: "Beləliklə, bu, onu nümayiş etdirir ki, bizim siyasi dialoqumuz olduqca fəaldır və biz ikitərəfli gündəliyimizə yeni, vacib mövzular daxil edirik. Onlardan biri təhsildir. Dünən biz yalnız enerji və iqtisadi inkişaf məsələləri haqqında deyil, həm də təhsil barədə danışdıq. Dünən Azərbaycanın Romadakı səfirliyinin binasında İtaliya-Azərbaycan Universitetinin yaradılmasına həsr edilmiş gözəl mərasim təşkil olundu. Azərbaycanın ADA Universiteti İtaliyanın beş aparıcı universitetinin tərəfdaşıdır. Bunlar Luiss Universiteti, Turin Politexnik Universiteti, Milan Politexnik Universiteti, Bolonya Universiteti və Romanın Sapienza Universitetidir. Bu, o deməkdir ki, bizim gündəliyimiz çox genişdir". Azərbaycanın dövlət başçısı fikirlərinə davam edərək demişdir: "Əlbəttə, bu mürəkkəb dönəmdə müzakirələrin əsas mövzusu enerji siyasəti idi".

Bundan sonra bütün dünyanı müsbət mənada silkələyən tarixi Çernobbio bəyanatı gəlir.

### Enerji strategiyasının 3 mərhələsi

Bu bəyanat ona görə tarixi və möhtəşəmdir ki, XXI əsrdə ilk dəfə olaraq müstəqil Azərbaycanın enerji siyasətinin həm konkret məzmunu, həm reallaşma mərhələləri, həm də strateji məqsədini Prezident İlham Əliyev dünyaya açırdı.

Bəyanatın ana tezisində deyilir: "Bizim enerji strategiyamız mərhələlərə bölünüb".

Bu, o demək idi ki, birincisi, Ulu öndər keçən əsrin 90-cı illərində ölkənin enerji strategiyasını müəyyən edərkən hər şeyi zərgər dəqiqliyi ilə nəzərə almışdır ki, seçilən xətt asbtrakt deyil. Konkret nəticəverici mahiyyətə malikdir. Yəni Azərbaycan Respublikası ciddi, təmkinli, xeyirxah və strateji məqsədi aydın olan müstəqil dövlətdir. Bu dövlət verdiyi sözə tam olaraq əməl etmək niyyətindədir.

İkincisi, Azərbaycan enerji strategiyası sistem mahiyyətlidir. Yəni onun tərkib hissələri arasında bir-birini tamamlayan konkret qaydalara uyğunlaşdırılmışdır.

Üçüncüsü, Azərbaycanın enerji strategiyası ierarxik reallaşma strukturna və funkisonallığa malikdir. Onun mərhələlərə bölünməsi həmin özəlliyin əyani təzahürüdür. Deməli, rəsmi Bakı ardıcıl olaraq hər mərhələni həyata keçirir və nəticəverici vəziyyət yaranandan sonra növbəti mərhələyə çəkinmədən və inamla qədəm qoyur.

Dördüncüsü, Azərbaycanın enerji strategiyası qapalı deyildir və daim yeniləşir, yeni mərhələlər müəyyən edilir. Bu artıq yeni tarixi mərhələnin vəzifələrindən biridir. Lakin ilkin əlaməti artıq məlumdur: "yaşıl enerji", "bərpaolunan enerji" istiqamətində Azərbaycanı "yaşıl ölkəyə" çevirmək!

Deməli, 2022-ci ilə olan vəziyyətə görə, enerji strategiyasının birinci mərhələsi Azərbaycanın dünyanın tanınmış enerji şirkətlərini əməkdaşlığa dəvət etməsi, onlar arasında "Əsrin müqaviləsi" əsasında dəqiq pay bölgüsü aparması və nəqliyyat marşrutlarının müəyyənləşdirilməsini əhatə edir. İkinci mərhələ "nəhəng qaz yataqlarının istismarı ilə bağlıdır". Üçüncü mərhələ isə "yaşıl enerji" sferasında Avropa İttifaqı ilə əməkdaşlığın başlamasıdır. Göründüyü kimi, bu mərhələ müəyyən mənada açıqdır və o, mütləq inkişaf etdiriləcəkdir ki, növbəti mərhələ üçün ciddi əsas yaransın.

Şərti olaraq İlham Əliyevin "Çernobbio bəyanatı" adlandırdığımız bu parametrlərin izah edilməsinin tarixiliyi həm də onunla bağlıdır ki, dövlət başçısı məsələyə Avropa İttifaqı ilə razılaşdırdığı bir rəsmi sənəd çərçivəsində baxdığını ifadə etdi. İlham Əliyev 2022-ci ildə Çernobbio bəyanatında bunu xüsusi vurğuladı: "Ötən ay Bakıda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen və mən Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq. Bu, bizim enerji resurslarımızın daha da inkişaf etdirilməsi istiqamətində atılmış çox vacib addımdır. Mən bunu gələcək fəaliyyətimizin yol xəritəsi adlandırdım".

Deməli, Azərbaycanın Avropa istiqamətində seçdiyi yol aydın, dəqiq və konstruktivdir. Rəsmi Roma bunu gördü və adekvat qiymətləndirdi, rəsmi Paris isə görə bilmədi. İtaliya qazandı, Fransa uduzdu. Fransa hələ də uduzmaqda davam edir. Və hətta gözləmədiyi yeni istiqamətlərdə zərbələr almaqdadır. Məsələn, yeni müstəmləkəçiliyə qarşı mübarizə getdikcə dərinləşir və genişlənir. Fransa dövlətçiliyi strateji cəhətdən uduzur!

Bu qənaətimiz 2022-ci ildə Çernobbioda Azərbaycan Prezidentinə verilən bir sualdan və dövlət başçısının cavabından da aydın görünür. Həmin dialoqu olduğu kimi tədqim edirik: "Sizin dedikləriniz çox önəmlidir. Siz regionda və regiondan kənarda yeni əlaqələrdən bəhs etdiniz. İtaliya ilə mədəni, təhsil və özəlliklə də enerji sahələrində əlaqələr inkişaf edir. Növbəti paneldə biz yeni qlobal düzəni müzakirə edəcəyik. Sizin ölkənizin mövqeyi nədən ibarət olacaq?

– Bu, bir çox məsələlərdən asılıdır. Təbii ki, yeni qlobal vəziyyətin necə olacağını öncədən təxmin etmək çətin məsələdir. Yalnız bu aydındır ki, dünya fevraldan əvvəl olduğu vəziyyətdə heç vaxt olmayacaq".

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

*(əvvəli 1-ci səhifədə)*

# İran Rusiyaya qarşı, yoxsa "Sobhaniçilik"?

Ancaq artıq neçənci dəfədir M. Sobhani etikasızlığını görürük, hardasa buna öyrəncəliyik. ...Başa düşdük ki, İranın "qırmızı xətti" var. Qəbul edirik ki, Ermənistan İran üçün çox vacibdir və ona görə də otuz ilə yaxın müddətdə birincinin ərazilərimizi işğalda saxlamasına göz yumdu. Nə isə, bu barədə çox danışmışıq, yenidən əvvəl dediklərimizin üzərinə gəlmək istəməzdik. Həm də İran cənub qonşumuzdur, hər bir halda, bu coğrafiyada onunla birgə yaşamağa məhkumuq. Üstəlik, ölkənin böyük türk kəsimi var ki, İran, eyni zamanda, onların, yəni, soydaşlarımızın vətənidir.

Bəli, Azərbaycan-İran münasibətlərinin kəskinləşdiyi, dünyanın ölkənin üzərinə "şığıdığı" vaxtlarda rəsmi Bakı İranda soydaşlarımızın mövcudluğu amilini nəzərə alıb, ayrı-ayrı beynəlxalq dairələrin anti-Tehran ritorikasına plasdarm olmayıb. Azərbaycan bundan sonra da bilavasitə özünün milli maraqları kontekstindən kənar addımlar atmayacaq. Ancaq Naxçıvana maneəsiz yol ölkəmizin mənafeyi baxımından mühüm yer tutur. Ona görə də Azərbaycan 44 günlük müharibə qalibi kimi Ermənistana yaşam şansını ikincinin məhz bu yola təminat verməsinə görə tanıdı. Savaşı bitirən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata imza atanlardan biri isə erməni baş nazir Nikol Paşinyandır. Bəyanatda hansısa İran rəsmisinin imzası yer almır. Deməli, prinsip etibarilə, hazırda Naxçıvana yol xüsusunda rəsmi İrəvana yönəlmiş tələbimizin Tehrana heç bir aidiyyatı yoxdur.

Məsələyə mövcud xüsusda yanaşsaq, M.Sobhaninin "qondarma dəhliz" reallaşmayacaq" ritorikasının hardan qidalandığı bilinməyən əminlik tam anlaşılmazdır. Çox qəribədir, vaxt var idi kollektiv Qərbin bəzi dairələri Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesini qabardıb, Azərbaycanın Naxçıvana yolla bağlı mövqeyini, bir növ, süngü ilə qarşılayırdılar. Sobhaninin deyim formasından belə çıxır ki, hazırda bu "ampluada" olan İrandır. Sanki Qərb Ermənistanı qorumaq "missiyasını" Tehrana təhvil verib.

Bir məqama da diqqət yetirək. Son günlər İran rəsmilərinin Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığının vacibliyi, regionda sərhədlərin dəyişilməsinin yolverilməzliyi ilə bağlı açıqlamaları artmaqdadır. Xarici işlər naziri Abbas Əraqçı, onun köməkçisi Mürtəca Dəmirçulu məsələ barədə fikirlərini bildiriblər. Qeyd edək ki, onların heç biri birbaşa Ermənistan üzərinə köklənməyib. M.Sobhani isə açıq şəkildə bildirir ki, Tehranın bütün addımları İrəvanı qorumaq üçündür. Belə bir durumda necə inanaq ki, İran Cənubi Qafqazda sülh və sabitlikdə maraqlıdır? Ancaq Tehranın qeyri-müəyyənliyin saxlanılmasına, nəticə etibarilə nə sülh, nə müharibə dövrünün uzanmasına çalışdığını vurğulamaq mümkündür. Çalışır, ta o vaxtadək ki, Ermənistan güclənsin?

Bu gün İrəvan kütləvi silahlanma xətti götürübsə, İran təminat verə bilərmi ki, həmin xətt regionda sərhədlərin dəyişdirilməsi məramına xidmət etmir. Axı otuz ilə yaxın müddətdə torpaqlarımızı işğal altında saxlayan Ermənistanın məqsədi elə bu idi. O zaman keçmiş sobhanilər, araqçılər və digərləri ərazi bütövlüyünün və suverenliyin toxunulmazlığından kəlmə belə kəsmirdilər, yalnız ümumi ifadələrlə kifayətlənir, işğalçını adı ilə çağırmır, nəticə etibarilə təcavüzün leqal görkəm almasına "töhfələrini" verirdilər.

Əlqərəz, M.Sobhani, obrazlı desək, əlinə qalxan alaraq bildirir ki, ölkəsi Ermənistanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləyir. Görəsən, niyə İranda da Ermənistandakı kimi hesab edirlər ki, ikincini təhlükə gözləyir? Məgər bunu kimsə bəyan edibmi? Azərbaycan haqqı olan istəyir. Həm də ona görə ki, İrəvanın barəsində söz açdığımız bəyanatla üzərinə götürdüyü öhdəlik var. Üstəlik, üçtərəfli bəyanatlar və onlar əsasında indiyədək Azərbaycan, Rusiya və Ermənistan rəsmiləri arasında aparılmış danışıqlarda müxtəlif formullar nəzərdən keçirilib. Həmin formullar Ermənistan üçün toxunulmazlıq təminatı idi. Yəni, ölkənin ərazi bütövlüyünün və suverenliyinin sabit saxlanılması əsas götürülmüşdü. Ancaq Paşinyan və komandası bununla razılaşmadı. Görəsən, İranda bu məqamı bilmirlər? Yaxşı tutaq ki, səfir Sobhaninin erməni sevdası başına vurub, bəs başqa İran siyasiləri? Sadə reallığı



dərk etmək bu qədərmi çətindir?

Sadə reallıq isə budur ki, Qərb Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq istəyir və ona görə Ermənistanın regional kommunikasiyalarda açar rolunu oynamasına can atır. Bu, bütövlükdə regionun düzəninə zidd və zərərli təmayüldür. Məsələ heç də onda deyil ki, Moskvanın bölgədə mövcudluğu kimi bir məcburiyyət var. Əsas məqam Ermənistana avantürist niyyətlərinin gerçəkləşməsi üçün meydan vermək, beləliklə, onu Azərbaycana qarşı alət kimi istifadə etməkdir. Təxminən belə: bölgədə Rusiya olmasın və Azərbaycana qarşı erməni millətçiliyi diri saxlanılsın. Məgər İran növbənin ona çatacağından xəbərdar deyil? Tehranın gələcəkdə erməni amili ilə hədəfə götürülməyəcəyinə dair hansısa zəmanəti varmı? Xeyr! Ola da bilməz. Amma İranı "iştaha gətirən" məqamlar mövcuddur və bu barədə yazımızın son bölümündə söz açacağıq. Hələlik isə...

M.Sobhani bildirir ki, İran Sünik (Zəngəzur) vasitəsi ilə Azərbaycanı Naxçıvanla birləşdirən yola başqa ölkələrin nümayəndələri tərəfindən nəzarət edilməsinə qarşıdır. Onun "Biz başqa ölkələrdən bura gəlib hansısa təhlükəsizlik və nəzarət yaratmağa çalışan insanları dəstəkləmirik" deməsi də maraqlıdır. Səfirin "başqa ölkələr" məntiqi qeyri-müəyyəndir. Hazırda Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində Avropa İttifaqının mülki müşahidə missiyası keşik çəkir. Həmin missiyanın tərkibi Sobhaninin təbirincə desək, başqa-başqa ölkələrdəndir. İran bunamı etiraz edir? Yoxsa "başqa ölkələrdən gələnlər" dedikdə Rusiyanı nəzərdə tutulur? Hər halda, üçtərəfli bəyanatın 9-cu bəndində açıq şəkildə yazılıb ki, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yola nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidməti, daha doğrusu, rus sərhədçiləri həyata keçirəcəklər. Deməli, İran Rusiyaya qarşıdır? Birinci ikincinin bölgədəki varlığını istəmir? Bəs nə düşünür? Yoxsa 1812–1813, 1826–1828-ci illər məğlubiyyətinin heyfini almaq eşqinə düşüb?

Sonda gələk, İranın "iştahasına". M.Sobhani İranın nə düşündüyünü diqqətə çatdırır. O bildirir ki, Ermənistan, İran və Hindistanın iştirakı ilə nəqliyyat marşrutu üç ölkənin xalqlarının maraqlarına cavab verir. Onun sözlərinə görə, Hindistan tərəfi Bəndər Abbas və Çabahar limanları vasitəsilə Ermənistan istiqamətində yük daşımaları həyata keçirir və ölkə bu marşrutla çox maraqlanır. Deməli, Tehran ənənəvi yolun saxlanılmasının tərəfdarıdır. O yolun ki, onun müəyyən hissəsinin birmənalı, tarixi baxımdan yanaşsaq isə bütün hissəsinin Azərbaycan torpağı olduğu şübhəsizdir. Tehran həmin ənənəvi yolu özünün türk dünyasının birləşməsinə qarşı çıxmaq avantürasına qurban verməyə hazırdırmı? Axı bölgə xüsusunda siyasi ambisiyalardan uzaq, daha konstruktiv yanaşmalar var. Konstruktivlikdən söz düşmüşkən, M.Sobhani ölkəsinin "3+3" formatında Türkiyədə xarici işlər nazirləri səviyyəsində keçiriləcək növbəti görüşə hazırlığından da söz açır. Səfir bunu bilməz, amma ümid edirik ki, İranda o vaxtadək yaxşı düşünməyin vacibliyini dərk edənlər tapılacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 378** **Bakı şəhəri, 21 avqust 2024-cü il**

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin tibb müəssisələrinin aidiyyəti dövlət orqanlarının tabeliyinə və sərəncamına verilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı”nın 7.11-ci bəndinə əsasən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin və “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin razılaşdırılmış təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidmətinin Yol Gigiyena və Epidemiologiya Mərkəzi və Yol Sanitar-Karantin Müfəttişliyi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyinə verilsin.

2. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidmətinin tibb müəssisələri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyinə verilsin (siyahı əlavə olunur).

3. Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Əncirli stansiyası ünvanında olan Əncirli Uşaq Dəmir Yolu Xəstəxanasının yerləşdiyi əmlak kompleksi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sərəncamına verilsin.

4. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti bu Qərarın 1-ci və 2-ci hissələri icra olunduqdan sonra “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidmətinin qanunvericiliyə uyğun olaraq ləğv edilməsi ilə bağlı müvafiq tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn digər məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etsinlər.

6. Bu Qərarın 1-ci və 2-ci hissələri 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, 2025-ci ilin dövlət büdcəsinin və icmal büdcənin layihələri hazırlanarkən bu Qərardan irəli gələn maliyyələşdirmə məsələlərini nəzərə alsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 380** **Bakı şəhəri, 27 avqust 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və “Azərsığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 31 yanvar tarixli 2459 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 334 nömrəli və 23 iyul tarixli 354 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci hissəyə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

“8-3/ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası”.

2. 14-cü hissənin dördüncü abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 386** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

**“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 67 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 67 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1382 (Cild I) ilə təsdiq edilmiş “Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi”nin “Dövlət orqanının adı” sütunu üzrə 37-ci hissədə “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi” sözləri “Məhkəmə-Hüquq Şurası” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 336 (Cild I) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd ləğv edilsin;

2.2. aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

| | |
|---|---|
| 6. | Məhkəmə-Hüquq Şurası |
| 6.1. | “Elektron məhkəmə” informasiya sistemi |

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 491 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1826 (Cild I) ilə təsdiq edilmiş “İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri”nin “İnformasiya resursları dövlət satınalmalarının vahid internet portalına inteqrasiya edilməli olan dövlət orqanlarının (qurumlarının) adı” sütunu üzrə 3-cü hissədə “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi” sözləri “Məhkəmə-Hüquq Şurası” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 379** **Bakı şəhəri, 23 avqust 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə”də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 667 (Cild I) ilə təsdiq edilmiş “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissə üzrə:

1.1.1. 1.1-ci bənddən “dövlət tərəfindən” sözləri çıxarılsın;

1.1.2. aşağıdakı məzmunda 1.3.2-1-ci yarımbənd əlavə edilsin:

“1.3.2-1. sənaye məhəlləsinin operatoru (bundan sonra - operator) – müsabiqə əsasında seçilən və bağlanılan idarəetmə sazişi çərçivəsində sənaye məhəlləsinin idarə olunmasını təmin edən hüquqi şəxs;”;

1.2. 3-cü hissə üzrə:

1.2.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Sənaye məhəlləsi dövlət, xüsusi və bələdiyyə mülkiyyətində olan torpaqlarda yaradıla bilər. Sənaye məhəlləsinə dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə həmin torpaq sahəsini icarəyə vermək hüququ ilə ayrılır. Xüsusi və bələdiyyə mülkiyyətində olan torpaq sahələri isə Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq bağlanılan icarə və ya alqı-satqı müqavilələri əsasında cəlb edilir. Dövlət tərəfindən sənaye məhəlləsinin yaradılması haqqında qərar Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - səlahiyyətli orqan) təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən, özəl sənaye məhəlləsinin yaradılması haqqında qərar isə sahibkarlıq subyektləri tərəfindən qəbul edilir.”;

1.2.2. aşağıdakı məzmunda 3.3-1-3.3-6-cı bəndlər əlavə edilsin:

“3.3-1. İdarəedici təşkilat sənaye məhəllələrinin və onların rezidentlərinin reyestrini (bundan sonra - reyestr) yaradır, həmin reyestrin aparılmasını və reyestrə daxil edilmiş məlumatların müntəzəm yenilənməsini təmin edir.

3.3-2. Reyestr informasiya ehtiyatıdır. Reyestrə sənaye məhəlləsinin yaradılması barədə aktın tarixi, nömrəsi və növü, yaradılmasının məqsədi, fəaliyyət profili, ərazisinin ölçüsü, yerləşdiyi inzibati ərazi vahidi, qeydiyyat tarixi və nömrəsi barədə məlumatlar daxil edilir.

3.3-3. Sənaye məhəlləsinin yaradılması barədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qərar qəbul edildikdən sonra 10 (on) iş günündən gec olmayaraq bu barədə bu Əsasnamənin 3.3-2-ci bəndində göstərilən məlumatlar idarəedici təşkilat tərəfindən reyestrə daxil edilir.

3.3-4. İdarəedici təşkilat sahibkarlıq subyektinin özəl sənaye məhəlləsinin qeydiyyata alınmasına dair təklifinin kağız daşıyıcıda və ya elektron qaydada təqdim edildiyi gündən 10 (on) iş günü müddətində həmin təklifin bu Əsasnamənin 3.3-cü bəndinin tələblərinə uyğunluğunu yoxladıqdan sonra özəl sənaye məhəlləsini qeydiyyata alır, bu barədə bu Əsasnamənin 3.3-2-ci bəndində göstərilən məlumatları reyestrə daxil edir və sənaye məhəlləsinin reyestrdə qeydiyyata alınmasını təsdiq edən sənədi sahibkarlıq subyektinə elektron qaydada təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

3.3-5. Sahibkarlıq subyektinin təqdim etdiyi təklifdə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, sənədlər təqdim edildiyi tarixdən 5 (beş) iş günündən gec olmayaraq çatışmazlıqların aradan qaldırılması üçün bu barədə təklif göndərən sahibkarlıq subyektinə bildiriş elektron qaydada təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.3-6. Təklif təqdim edən sahibkarlıq subyekti bildirişi aldığı tarixdən ən geci 10 (on) iş günü müddətində həmin çatışmazlıqları aradan qaldırmalıdır. Təklifdə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqlar 10 (on) iş günü müddətində aradan qaldırılmadıqda idarəedici təşkilat tərəfindən təklifin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və həmin qərar 2 (iki) iş günü müddətində təklifi təqdim edən sahibkarlıq subyektinə elektron qaydada təqdim olunur və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.”;

1.2.3. 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“3.4. Dövlət tərəfindən yaradılan sənaye məhəlləsi üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin torpaq sahəsini icarəyə vermək hüququ ilə ayrılır. Sənaye məhəlləsinin fəaliyyəti üçün ayrılmış torpaq sahəsi yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədilə istifadə edilir.”;

1.3. 4-cü hissə üzrə:

1.3.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.1. Sənaye məhəlləsinin fəaliyyətinin təşkili, idarə olunması və inkişafı idarəedici təşkilat və ya həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti tərəfindən həyata keçirilir. İdarəedici təşkilat və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti həmin sənaye məhəlləsinin fəaliyyətinə görə cavabdehdirlər.”;

1.3.2. aşağıdakı məzmunda 4.1-1-ci və 4.1-2-ci bəndlər əlavə edilsin:

“4.1-1. İdarəedici təşkilat və operator sənaye məhəlləsinin rezidenti kimi fəaliyyət göstərə bilməz. Özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti və ona aidiyyəti olan şəxslər həmin sənaye məhəlləsinin rezidenti olduqda, onların sayı sənaye məhəlləsinin digər rezidentlərinin ümumi sayından çox ola bilməz.

4.1-2. Sənaye məhəlləsinin daha səmərəli idarə olunmasını təmin etmək məqsədilə dövlət tərəfindən yaradılan sənaye məhəlləsinə münasibətdə idarəedici təşkilatın, özəl sənaye məhəlləsinə münasibətdə isə onun yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin müsabiqə əsasında operator cəlb etmək hüququ vardır. Operatorun müsabiqə əsasında seçilməsi bu Əsasnamənin 5 nömrəli əlavəsinə uyğun qaydada həyata keçirilir.”;

1.3.3. 4.3-cü bənddə “Sənaye məhəlləsinin infrastrukturu və sənaye məhəlləsinin” sözləri “Dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin infrastrukturu və onun” sözləri ilə əvəz edilsin;

1.3.4. 4.4-cü bənddə “Sənaye məhəlləsinin ərazisində sənaye məhəlləsinin rezidentinin” sözləri “Özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin və sənaye məhəlləsinin rezidentinin” sözləri ilə, “rezidentin” sözü isə “müvafiq olaraq həmin sahibkarlıq subyektinin və rezidentin” sözləri ilə əvəz edilsin;

1.4. 5-ci hissə üzrə:

1.4.1. 5.1.1-ci yarımbəndə “sənaye” sözündən əvvəl “dövlət tərəfindən” sözləri əlavə edilsin;

1.4.2. 5.1.2-ci yarımbəndə “təşkilata” sözündən sonra “və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinə və ya operatora” sözləri əlavə edilsin;

1.5. 6-cı hissə üzrə:

1.5.1. 6.1.1-ci, 6.1.9-cu və 6.1.10-cu yarımbəndlərə “sənaye” sözündən əvvəl “dövlət tərəfindən yaradılan” sözləri əlavə edilsin;

1.5.2. 6.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“6.1.2. sənaye məhəlləsinin rezidenti kimi qeydiyyata alınmaq üçün müraciət edən ərizəçilərin investisiya layihəsini (bundan sonra - layihə) qiymətləndirir və nəticələrinə əsasən onlara sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsini verir, sənaye məhəllələrinin və onların rezidentlərinin qeydiyyatını (reyestrini) aparır;”;

1.5.3. 6.1.3-cü yarımbənddə “sənaye məhəlləsinin ərazisində dövlət və bələdiyyə mülkiyyətində” sözləri “dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin fəaliyyəti üçün ayrılmış torpaq sahələrini və orada” sözləri ilə əvəz edilsin;

1.5.4. aşağıdakı məzmunda 6.1.3-1-ci yarımbənd əlavə edilsin:

“6.1.3-1. dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin rezidentlərinin istifadəsində (mülkiyyətində) olan torpaq sahələrinin və digər daşınmaz əmlakların onun yeni rezidentlərinə icarəyə (subicarəyə) verilməsinin sənaye məhəlləsinin fəaliyyətinə uyğunluğunu müəyyən edir;”;

1.5.5. 6.1.4-cü yarımbəndə “səlahiyyətli orqana” sözlərindən sonra “və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinə” sözləri əlavə edilsin;

1.5.6. aşağıdakı məzmunda 6.1.4-1-ci yarımbənd əlavə edilsin:

“6.1.4-1. dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin idarə olunması üçün müsabiqə əsasında operatoru seçir, onunla idarəetmə sazişi bağlayır və operator tərəfindən idarəetmə sazişindən irəli gələn vəzifələrin icrasına nəzarət edir;”;

1.5.7. 6.1.11-ci yarımbəndə “sahibkarlıq” sözündən əvvəl “sənaye məhəlləsində” sözləri, “keçirilməsi” sözündən sonra “və” sözü əlavə edilsin;

1.5.8. aşağıdakı məzmunda 6.3-cü və 6.4-cü bəndlər əlavə edilsin:

“6.3. Özəl sənaye məhəllələrinə münasibətdə bu Əsasnamənin 6.1.1-ci, 6.1.3-cü, 6.1.3-1-ci, 6.1.4-1-ci, 6.1.5-ci, 6.1.6-cı, 6.1.8-ci, 6.1.9-cu, 6.1.10-cu, 6.2.2-ci və 6.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş vəzifə və hüquqlar həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti tərəfindən həyata keçirilir. Özəl sənaye məhəlləsinin fəaliyyəti barədə illik hesabat onun yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti tərəfindən idarəedici təşkilata təqdim olunur.

6.4. Sənaye məhəlləsinin idarə olunması üçün müsabiqə əsasında operator seçilə və idarəetmə sazişinə əsasən sənaye məhəlləsinin idarəetmə və təsərrüfat fəaliyyətinin icrası ilə bağlı bu Əsasnamənin 6.1.1-ci, 6.1.4-cü (dövlət tərəfindən yaradılan sənaye məhəllələrinə münasibətdə), 6.1.6-cı, 6.1.9-cu, 6.1.11-ci, 6.2.2-ci və 6.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş funksiyaların həyata keçirilməsi ona həvalə edilə bilər. Operator seçildiyi halda onunla idarəetmə sazişinin imzalanması və operator tərəfindən idarəetmə sazişindən irəli gələn vəzifələrin icrasına nəzarəti dövlət tərəfindən yaradılan sənaye məhəllələrinə münasibətdə idarəedici təşkilat, özəl sənaye məhəllələrinə münasibətdə isə həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti həyata keçirir.”;

1.6. aşağıdakı məzmunda 7.1.1-1-ci yarımbənd əlavə edilsin:

“7.1.1-1. sənaye məhəlləsinin idarə edilməsinə (onun infrastrukturdan və istehsal sahələrindən istifadəyə), həmçinin göstərilən xidmətlərə görə alınan haqlardan;”;

1.7. 8.8-ci bəndin ikinci cümləsinə “məhəlləsinin” sözündən sonra “və onun” sözləri əlavə edilsin;

1.8. 9-cu hissə üzrə:

1.8.1. 9.1-ci bənddə (birinci halda) “Sənaye” sözü “Dövlət tərəfindən yaradılan sənaye” sözləri ilə, “İcarə müqaviləsini” sözləri “icarə (subicarə) müqaviləsini (bu Əsasnamənin 9.1-1-ci bəndinə əsasən torpaq sahəsini və digər daşınmaz əmlakı icarəyə (subicarəyə) götürmüş hüquqi və fiziki şəxslər istisna olmaqla)” sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Özəl sənaye məhəlləsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə, tikilinin və (və ya) torpaq sahəsinin icarə (subicarə) müqaviləsi həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti ilə bağlanılır və onların surəti 10 (on) iş günü müddətində idarəedici təşkilata təqdim olunur.”;

1.8.2. aşağıdakı məzmunda 9.1-1-ci bənd əlavə edilsin:

“9.1-1. Bu Əsasnamənin 6.1.3-1-ci yarımbəndi nəzərə alınmaqla onun rezidentinin istifadəsində (mülkiyyətində) olan torpaq sahəsini və digər daşınmaz əmlakları icarəyə (subicarəyə) götürmüş hüquqi və fiziki şəxslər bu Əsasnamənin 8-ci hissəsi ilə müəyyən olunmuş qaydada sənaye məhəlləsinin rezidenti kimi qeydiyyatdan keçməlidirlər.”;

1.8.3. 9.3-cü bəndin ikinci cümləsinə “təşkilat” sözündən sonra “və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti” sözləri əlavə edilsin;

1.8.4. 11.1-ci bənddə “ərazisində dövlət və bələdiyyə mülkiyyətində olan” sözləri “fəaliyyəti üçün ayrılmış” sözləri ilə, “idarəedici təşkilat” sözləri isə “müvafiq olaraq idarəedici təşkilat və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti” sözləri ilə əvəz edilsin;

1.9. 12.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“12.1. Sənaye məhəlləsinin yaradılması və fəaliyyətinin təşkili dövlət tərəfindən yaradılan sənaye məhəllələrinə münasibətdə dövlət büdcəsinin vəsaiti, idarəedici təşkilatın əldə etdiyi gəlirlər və qanunla qadağan olunmayan digər mənbələr, özəl sənaye məhəllələrinə münasibətdə isə onun yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin gəlirləri və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.”;

1.10. 13.3-cü bəndin birinci cümləsində “onun idarəedici təşkilatının” sözləri “idarəedici təşkilatın və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin” sözləri ilə əvəz edilsin;

1.11. 2 nömrəli əlavə - “Qeydiyyat şəhadətnaməsinin forması” üzrə:

1.11.1. adında “Qeydiyyat” sözü “Rezidentin qeydiyyat” sözləri ilə əvəz edilsin;

1.11.2. “QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ” sözlərindən əvvəl “REZİDENTİNİN” sözü əlavə edilsin;

1.12. 3 nömrəli əlavə - “Sənaye məhəlləsinin rezidentlərinin reyestrinin aparılması Qaydası” üzrə:

1.12.1. adına, 1.1-ci və 1.2-ci bəndlərə “məhəlləsinin” sözündən sonra “və onun” sözləri əlavə edilsin;

1.12.2. 2-ci hissə üzrə:

1.12.2.1. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

“2.4-1. Özəl sənaye məhəlləsi barədə məlumatlar onun yaradılması ilə bağlı qərar qəbul etmiş sahibkarlıq subyektinin təklifinə, dövlət tərəfindən yaradılan sənaye məhəlləsi haqqında məlumatlar isə Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun yaradılmasına dair qəbul edilmiş qərara əsasən Reyestrə daxil edilir.”;

1.12.2.2. 2.5.1-ci yarımbənddə “rezident olan hüquqi şəxslər” sözləri “sənaye məhəllələri” sözləri ilə əvəz edilsin;

1.12.2.3. 2.5.2-ci yarımbəndə “olan” sözündən sonra “hüquqi şəxslər və” sözləri əlavə edilsin;

1.12.2.4. 2.5.3-cü yarımbənddə “rezidentin” sözü “sənaye məhəlləsinin və onun rezidentinin” sözləri ilə əvəz edilsin;

1.12.2.5. 2.5.5-ci yarımbənddə “məhəlləsində” sözü “məhəllə-sinin və onun rezidenti kimi” sözləri ilə əvəz edilsin;

1.12.2.6. aşağıdakı məzmunda 2.5-1-ci, 2.6-1-ci və 2.7-1-ci bəndlər əlavə edilsin:

“2.5-1. Reyestrə sənaye məhəlləsinə dair aşağıdakı məlumatlar daxil edilir:

2.5-1.1. yaradılması barədə aktın tarixi, nömrəsi və növü;

2.5-1.2. adı, yaradılmasının məqsədi və fəaliyyət profili;

2.5-1.3. ərazisinin ölçüsü və yerləşdiyi inzibati ərazi vahidi;

2.5-1.5. məlumatın reyestrdə qeydiyyat tarixi və nömrəsi;

2.5-1.6. reyestrə daxil edilmiş məlumatlarda dəyişikliklər barədə qeyd.”;

“2.6-1. Dövlət sənaye məhəlləsinin yaradılması barədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qərar qəbul edildikdən, özəl sənaye məhəlləsi isə idarəedici təşkilat tərəfindən qeydiyyata alındıqdan sonrakı 10 (on) iş günündən gec olmayaraq, bu barədə məlumatlar reyestrə daxil edilir.”;

“2.7-1. Sənaye məhəlləsinə vahid və təkrarolunmaz 5 (beş) rəqəmdən ibarət qeydiyyat nömrəsi verilir. Qeydiyyat nömrəsindəki ilk 3 (üç) rəqəm sənaye məhəlləsinin reyestrdəki sıra nömrəsini, növbəti iki rəqəm qeydiyyata alındığı ilin son iki rəqəmini göstərir. Qeydiyyat nömrəsi reyestrdə və reyestrdən çıxarışda əks olunur.”;

1.12.2.7. 2.9-cu bəndə “məhəlləsinin” sözündən sonra “və onun” sözləri əlavə edilsin və həmin bənddə “onun” sözü “onların” sözü ilə əvəz edilsin;

1.12.2.8. 2.10-cu bəndin birinci cümləsinə “baş verdikdə,” sözlərindən sonra “özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən sahibkarlıq subyekti, habelə” sözləri əlavə edilsin;

1.12.2.9. 2.12-ci bəndə “o cümlədən” sözlərindən sonra “özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən və” sözləri əlavə edilsin;

1.12.2.10. 2.13-cü bənddə “və rezidentin sənaye məhəlləsində” sözləri “, sənaye məhəlləsinin və onun rezidentinin” sözləri ilə əvəz edilsin;

1.12.2.11. 2.14-cü bənddə “məhəlləsində rezident” sözləri “məhəlləsinin və onun rezidenti” sözləri ilə əvəz edilsin;

1.12.3. 3-cü hissə üzrə:

1.12.3.1. 3.1-ci bənddə “Sənaye” sözü “Özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən sahibkarlıq subyekti və sənaye” sözləri ilə, “məhəlləsində” sözü isə “məhəlləsinin və onun rezidenti kimi” sözləri ilə əvəz edilsin;

1.12.3.2. 3.3-cü bəndin ikinci cümləsinə “rezident olan” sözlərindən əvvəl “özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən sahibkarlıq subyekti və” sözləri əlavə edilsin;

1.12.4. 4.1-ci bənddə “və sənaye məhəlləsində” sözləri “, həmçinin sənaye məhəlləsinin və onun rezidenti kimi” sözləri ilə, “saxlanılmaq” sözü “mühafizə edilmək” sözləri ilə əvəz edilsin;

1.13. 4 nömrəli əlavə - “Sənaye məhəlləsinin idarəedici təşkilatı ilə rezidenti arasında bağlanılan sənaye məhəlləsinin ərazisində dövlət mülkiyyətində olan tikilinin və (və ya) torpaq sahəsinin İcarə Müqaviləsi” üzrə:

1.13.1. adı aşağıdakı redaksiyada verilsin:

“Sənaye məhəlləsinin ərazisində olan tikilinin və (və ya) torpaq sahəsinin rezidentə icarəyə (subicarəyə) verilməsinə dair İcarə (Subicarə) Müqaviləsinin NÜMUNƏVİ FORMASI”;

1.13.2. preambula hissəsində “sənaye məhəlləsinin idarəedici təşkilatının” sözləri “dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin idarəedici təşkilatının və ya özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin” sözləri ilə əvəz edilsin;

1.13.3. 1-ci hissə üzrə:

1.13.3.1. 1.1.2-ci yarımbəndə “Prezidenti” sözündən sonra “və ya sahibkarlıq subyekti” sözləri əlavə edilsin;

1.13.3.2. 1.1.4-cü yarımbəndə “idarəedici təşkilatı” sözlərindən sonra “və ya yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti” sözləri əlavə edilsin;

1.13.3.3. 1.1.5-ci və 1.1.6-cı yarımbəndlərdə “dövlət mülkiyyə-tində” sözləri “, sənaye məhəlləsində” sözləri ilə əvəz edilsin;

1.14. 2-ci hissə üzrə:

1.14.1. 2.1-ci bənddə “dövlət mülkiyyətində” sözləri “sənaye məhəlləsində” sözləri ilə əvəz edilsin;

1.14.2. 2.2-ci bəndin ikinci cümləsində “razılığı olmadan” sözləri “yazılı razılığı olmadan digər şəxslərə subicarəyə verilməsinə,” sözləri ilə əvəz edilsin;

1.15. “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə”yə 5 nömrəli əlavə - “Sənaye məhəlləsinin operatorunun müsabiqə əsasında seçilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Dünya Bankı ölkəmizdə ÜDM-in davamlı artacağını proqnozlaşdırıb

*(əvvəli 1-ci səhifədə)*

Yeri gəlmişkən, Azərbaycanın qeyri-neft sektorunun dinamik inkişaf prosesini diqqətlə izləyən Dünya Bankı ötən ilin aprel ayında bununla bağlı nikbin fikir söyləmişdi. Belə ki, bank növbəti hesabatlarının birində 2026-cı ilə kimi Azərbaycanda qeyri-neft iqtisadiyyatının artacağı ilə bağlı proqnoz vermişdi. Sənəddə qeyri neft-qaz sektorunun iki illik sürətli artımdan sonra "COVID-19" pandemiyasından əvvəlki səviyyəsinə yaxınlaşması xüsusi vurğulanmışdı. Sözügedən hesabatda, həmçinin kənd təsərrüfatı üzrə artımın real ÜDM-də payının 2024 və 2025-ci illər üzrə isə davamlı 3 faiz, sənaye üzrə isə müvafiq olaraq 1 faiz və 1,2 faiz müəyyən edilmişdi. Bununla yanaşı, ölkəmizin xidmət sektoru üzrə artımın 2024-cü ildə 4,5 faiz, 2025-ci ildə isə 4,6 faiz səviyyəsində proqnozlaşdırılmışdı.

Qeyd edək ki, Azərbaycan 1992-ci ildən Dünya Bankının üzvüdür. Bu günə kimi ölkəmizdə bankın kredit vəsaitləri hesabına ümumi məbləği 4,4 milyard ABŞ dolları olan 54 layihə həyata keçirilib. Ötən müddətdə bank tərəfindən ölkəmizdə reallaşdırılan 115-dən artıq texniki yardım və bir çox istiqamətlərdə qrant layihələrinə, təxminən, 30 milyon dollardan artıq vəsait ayrılıb. Azərbaycanın uğurlu tərəfdaşlarından olan Dünya Bankının maliyyə dəstəyi ilə nəqliyyat, sosial, su təchizatı və irriqasiya, kənd təsərrüfatı, ətraf mühit, ədliyyə və digər sahələrdə həyata keçirilən layihələr ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələr verib.

Yeri gəlmişkən, 2022-ci ilin fevral ayında Avropa İttifaqı və Dünya Bankı Azərbaycan üçün Çevik Texniki Yardım Aləti (AZTAF) üzrə inzibati saziş imzalayıblar. Xatırladaq ki, AZTAF proqramı hökumətin təxirəsalınmaz prioritetlərinə cavab verən konkret fəaliyyətləri əhatə edir. Bu fəaliyyətlər hökumətin dövlət müəssisələrinin idarəçiliyi, dövlət satınalmaları, su ehtiyatlarının idarə edilməsi, "ağıllı kəndlər", rəqəmsal inkişaf, enerji səmərəliliyi, qadınların sahibkarlıq fəaliyyəti, əlillik və inkluzivlik kimi geniş spektrli prioritetlərini dəstəkləyəcək. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən həmin proqramın dəyəri 5,25 milyon avro təşkil edir. Üç il müddətində icra olunacaq AZTAF proqramının idarəçiliyi də Dünya Bankı tərəfindən həyata keçirilir. Sözügedən sənədin məqsədi Azərbaycanın 2030-cu ilə Milli Prioritetləri və 2022–2026-cı illər üzrə Milli Sosial-İqtisadi İnkişaf Strategiyasına uyğun olaraq hökumətə məsləhət və analitik dəstək göstərmək, onun potensialını gücləndirməkdən ibarətdir. Artıq AZTAF üzrə 9 texniki yardımdan 4-ü tamamlanmaq üzrədir.




Eyni zamanda, Dünya Bankı Azərbaycan hökuməti ilə karbon qazı emissiyalarının kvotalarının monetizasiyası imkanlarını müzakirə etməyi planlaşdırır. Belə ki, bank ölkəmizin bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsi (AZURE) layihəsi çərçivəsində əməkdaşlığı genişləndirmək niyyətindədir. Xatırladaq ki, ilkin hesablamalara görə, AZURE layihəsinin ümumi dəyəri 250 milyon ABŞ dolları təşkil edəcək. Layihə çərçivəsində birinci mərhələdə Dünya Bankı Neftçalada 315 meqavatlıq, Biləsuvarda isə 445 meqavatlıqlıq günəş elektrik stansiyalarının elektrik şəbəkəsinə inteqrasiyası üçün ötürücü infrastrukturu maliyyələşdiriləcək.

Bu ilin oktyabrında isə Dünya Bankının Direktorlar Şurası Azərbaycanla 2025–2029-cu illər üçün nəzərdə tutulmuş yeni tərəfdaşlıq strategiyasını təsdiq etməyi planlaşdırır. Bankın Cənubi Qafqaz üzrə direktoru Rolanda Praysın rəhbərlik etdiyi nümayəndə heyətinin iyulun 15-də Bakıya səfəri zamanı çərçivə sənədi ilə bağlı məsləhətləşmələr aparılıb. Bankın Bakı ofisinin məlumatında qeyd olunduğu kimi, 2015-ci ildə təsdiq edilmiş əvvəlki tərəfdaşlıq strategiyası Azərbaycanın qarşısında duran ciddi çağırışlar nəzərə alınmaqla hazırlanmışdı. O, yeni artım modelinə keçid zamanı dövlət maliyyə idarəçiliyi və iqtisadiyyatın şaxələndirilməsi sahəsində daha yaxşı göstəricilərə nail olmaq üçün ölkənin dəstəklənməsinə, eləcə də ölkənin xarici şoklara qarşı dayanıqlığının gücləndirilməsinə fokuslanmışdı.

Dünya Bankının Azərbaycanla yeni tərəfdaşlıq strategiyasın isə əsas məqsədi karbohidrogenlərə qlobal tələbatın azalması fonunda neftin qiymətinin kəskin aşağı düşməsi şəraitində ölkəmizin "yaşıl" iqtisadiyyata keçid və bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı qarşısına qoyduğu iddialı məqsədləri dəstəkləməkdən ibarətdir.

# "Günəşli" yatağının neft ehtiyatları öyrənilir

**Azərbaycan Dövlət Neft Şirkəti ilə ABŞ-nin "Halliburton" şirkəti arasında "Texniki xidmətlərin göstərilməsi"nə dair razılaşma əldə olunub. Bununla bağlı sazişi SOCAR-ın "Azneft" İstehsalat Birliyinin baş direktoru Əli Qurbanov və "Halliburton" şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Qrem Teylor imzalayıblar.**



Sənəd Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Günəşli" yatağının qalıq karbohidrogen potensialının yenidən qiymətləndirilməsi və qalıq neftli zonaların dəqiqləşdirilməsi üçün müasir tədqiqatların icra edilməsi məqsədi daşıyır.

Xatırladaq ki, "Günəşli" yatağı Bakı şəhərindən 120 kilometr şərqdə, "Neft Daşları" yatağından isə 12 kilometr cənub-şərqdə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşir. "Günəşli" qırışığı "Çilov-Neft Daşları" antiklinal qırışıqlıq qurşağına daxildir. Yataqda suyun dərinliyi 80 metrdən 300 metrədək dəyişir. Yatağın uzunluğu 12,5 kilometr, eni 4 kilometrdir. Ötən müddətdə burada, ümumilikdə, 370 quyu qazılıb ki, hazırda onlardan 279-u istismardadır. İşlənmənin əvvəlindən həmin quyulardan 201,3 milyon ton neft (kondensatla birlikdə) və 127 milyard kubmetrdən çox qaz hasil olunub.

"Günəşli" yatağında (dayaz sulu hissəsi) maksimal hasilat 1991-ci ilə təsadüf edib. Həmin il 114 işlək quyudan 6,7 milyon ton neft çıxarılıb. Burada maksimal qaz hasilatı isə 2008-ci ildə 6,6 milyard kubmetr olub. Hazırda işlənmənin 3-cü mərhələsində olan "Günəşli" yatağının dayaz sulu hissəsi SOCAR-ın "Azneft" İstehsalat Birliyinin 28 May adına Neft-Qazçıxarma İdarəsi tərəfindən istismar olunur.

# Azərbaycan avtomobillərinin alıcıları çoxalır

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarının avtomobil istehsalı müəssisələrinin fəaliyyətində də böyük canlanma müşahidə edilir.**

İlin əvvəllərindən sənaye zonaları 41 milyon manatlıq avtomobil satışı həyata keçirib. Cari ilin birinci yarısında Hacıqabul Sənaye Parkında 38 milyon manatlıq 1323, Neftçala Sənaye Məhəlləsində isə 3,2 milyon manatlıq 203 avtomobil satılıb. Bu da ötən ilin eyni dövrünə nisbətən təqribən 20 faiz artım deməkdir.

Qeyd edək ki, yanvar–iyun aylarında ölkənin sənaye zonalarında "Chevrolet", "Isuzu", VGV, UAZ, "Lada", "Khazar" və s. markalı avtomobillər istehsal edilib.




# Türk dövlətləri "ASAN" ticarət edəcək

**Türk dövlətləri arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün Azərbaycanın "ASAN xidmət" modelinin əsasında "ASAN ticarət" modeli yaradılacaq.**



Bunu Türk Ticarət Sərgisinin təqdimat konfransında Azərbaycanda fəaliyyət göstərən Türk Ticarət Mərkəzinin həmtəsisçisi Ramazan Karaşahin bildirib. Sözügedən yeniliyin elə Türk Ticarət Mərkəzində tətbiqinin nəzərdə tutulduğunu diqqətə çatdıran həmtəsisçi bu istiqamətdə lazımi addımlar atacaqlarını və iş adamlarına bütün istiqamətlərdə dəstək göstərməyə hazır olduqlarını vurğulayıb.

Xatırladaq ki, Türk Ticarət Sərgisi bu il noyabrın 7–9-da qardaş ölkənin Ticarət Nazirliyinin himayəsi altında fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatının Ticarət və Sənaye Palataları Birliyi ilə əməkdaşlığı çərçivəsində İstanbulda keçiriləcək. Tədbir Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr arasında ticarət, sənaye, investisiya, texnologiya və xidmətləri inkişaf etdirmək, bu xidmətlərin dünyanın digər yerlərində marketinqini asanlaşdırmaq məqsədi daşıyır. Dövlət səviyyəsində dəstəklənən sərgi çərçivəsində B2B görüşləri və konfranslar keçiriləcək.

# Xaricdən ölkəmizə 1 milyard manat pul köçürülüb

**Bu ilin yanvar–iyul aylarında Azərbaycanda banklara sürətli pul köçürmə sistemləri vasitəsilə 1 milyard 58,2 milyon manat vəsait daxil olub. Banklardan xaricə göndərilən vəsaitin həcmi isə 303 milyon manat təşkil edib.**

Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2023-cü ilin yanvar–iyul aylarına nisbətən sürətli pul köçürmə sistemləri vasitəsilə banklara daxil olan vəsaitin həcmi 450,9 milyon manat və ya 29,9 faiz, banklardan xaricə köçürmələr isə 64,6 milyon manat və ya 17,6 faiz azalıb.

Xatırladaq ki, ötən ilin yanvar–iyul aylarında Azərbaycanda banklara sürətli pul köçürmə sistemləri vasitəsilə 1 milyard 509,1 milyon manat daxil olub. Banklardan xaricə isə 367,6 milyon manat vəsait göndərilib.

# Aqroparkların sənaye təməli güclənir

**İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioritetlərindəndir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunması ilə yanaşı, qeyri-neft sektorunun da ümumi daxili məhsulda xüsusi çəkisi getdikcə artır.**




Ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyi üçün qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı bölməsi iqtisadiyyatın əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib və inkişafı üçün əlverişli şərait yaradılıb.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilib. Eləcə də, ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prosesində intensiv metodların geniş tətbiqində istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rolu olan aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılıb.

Respublikamızda son illər ərzində kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması istiqamətlərində mühüm uğurlar əldə edilib. Prezident İlham Əliyev tərəfindən aqrar islahatların müasir mərhələsi ilə bağlı qəbul olunan qərarlar, bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks layihələrin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf dövrünə keçməsini şərtləndirib. Bütün bu tədbirlərin nəticəsində isə yerli istehsal potensialı güclənib və ərzaq məhsullarının rəqabət qabiliyyətliliyi artıb, həmçinin ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin olunması və əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi gerçəkləşib.

Qeyd edək ki, aqroparklar torpaq sahələrindən səmərəli istifadə, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün innovativ və əlverişli mexanizmdir. Bu baxımdan həmin müəssisələrin ərzaq təhlükəsizliyinin möhkəmlənməsində rolu getdikcə gücləndirilir, sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməsinə xüsusi önəm verilir.

Ümumiyyətlə, son illərdə iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində də əhəmiyyətli rol oynayır.

Ötən illər ərzində respublikamızın aqroparklarında fərdi sahibkarların fəaliyyətinə xüsusi diqqət yetirilib, rezidentlərin sayı artırılıb. Bunun bariz nümunəsi olaraq İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki Yevlax Pilot Aqroparkda daha bir fərdi sahibkara rezidentlik verilib.

Agentliyin məlumatına görə, yeni rezident 21,4 hektar sahədə investisiya dəyəri 200 min manat olan intensiv meyvə bağları salacaq, 3 nəfəri daimi, 8 nəfər isə mövsümi işlə təmin edəcək.

Qeyd edək ki, Yevlax Pilot Aqroparkda fermerlər dövlət vəsaiti hesabına infrastrukturla təmin edilir, burada "pir pəncərə" prinsipi və ağıllı idarəetmə sistemi tətbiq olunur. Ötən müddətdə İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən aqroparkın 5 rezidentinə 7,1 milyon manat güzəştli kredit verilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# Bakı qlobal iqlim savaşının baş qərargahıdır



**COP29-a evsahibliyi etmək məsuliyyətini üzərinə götürən Azərbaycan Respublikası ilk günlərdən etibarən qlobal iqlim dəyişiklikləri, onun mənfi təzahürlərinin aradan qaldırılması sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla sıx təmaslar qurub, bütün tərəflərin və həmfikir qrupların, eləcə də müşahidəçi qismində çıxış edən digər maraqlı qurumların fikir və rəyləri diqqətdə saxlayıb.**

COP29-un müəyyən olunmuş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Bakıda Azərbaycan Hakimlər İttifaqı və Ali Məhkəmənin birgə təşkilatçılığı ilə "Hüquq və iqlim" mövzusunda keçirilən beynəlxalq konfransda bu barədə ətraflı məlumat verərək iqlim maliyyəsinin COP29-un əsas mövzusu və prioriteti kimi müəyyənləşdirildiyini bildirib. O, COP29 Sədrliyinin 14 əsas təşəbbüs irəli sürdüyünü, qarşıya qoyulan məqsədin isə təkcə milli deyil, həm də qlobal səviyyədə yeni yanaşmalar və innovativ həll yolları təklif etmək olduğunu vurğulayıb. Muxtar Babayev Azərbaycanın bu təşəbbüslərlə qlobal səviyyədə "yaşıl" iqtisadiyyata keçidini dəstəkləməkdə öz liderliyini davam etdirəcəyini, ölkəmizin bu tədbirlərlə beynəlxalq səviyyədə etibarlı və məsuliyyətli tərəfdaş kimi mövqeyini daha da gücləndirəcəyinə əminliyini diqqətə çatdırıb.

Yeri gəlmişkən, COP29-un müəyyən olunmuş prezidenti bir qədər əvvəl Tərəflərə və Həmfikir Qruplara ünvanladığı məktubunda da bu sahədə həyata keçirilən hazırlıq işləri və çoxsaylı görüşlərlə yanaşı, qarşıdakı aylarda reallaşdırılması nəzərdə tutulan tədbirlərlə bağlı geniş və əhatəli məlumat verib.

Məlum olduğu kimi, dünya ölkələrinin, iqlim sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət təşkilatlarının COP29-dan gözləntiləri olduqca yüksəkdir. Bakı konfransında həllinin tapacağına ümid bəslənilən məslələrdən biri də iqlim maliyyələşdirilməsi ilə bağlıdır. Təsadüfi deyil ki, bu mühüm məqam COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayevin yuxarıda adıçəkilən məktubunda da öz əksini tapıb. Burada Paris Sazişinin bütün istiqamətlərində, xüsusilə də iqlim maliyyəsi sahəsində COP29-da birgə irəliləyişin əldə edilməsi üçün güclü çağırışların olduğunu vurğulayan Azərbaycanın ekologiya və təbii sərvətlər naziri iqlim dəyişmələrinin fundamental insan hüquqlarının təminatına da ciddi təhlükə yaratdığını xatırladır, həmçinin sessiyanın dövlətlər və beynəlxalq təsisatlarla yanaşı, iqlim dəyişmələri danışıqlarında maraqlı olan digər tərəflər – ekoaktivistlər, uşaq və gənclər, əlilliyi olan şəxslər, eləcə də digər həssas qruplar üçün də əhəmiyyətli platforma olacağını qeyd edib. "Heç kimin kənarda qalmaması və bütün maraqlı tərəflərin COP prosesində iştirak hüququnun təmin edilməsi prioritet məsələlərdəndir. Bunun əhəmiyyəti nəzərə alınaraq ictimai iştirakçılıq barədə müddəa COP29 tədbirinin ölkəmizdə keçirilməsi ilə əlaqədar olaraq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi ilə imzalanmış "Ev sahibi ölkə sazişi"ndə də öz əksini tapıb", – M.Babayev qeyd edib.

Ekspertlər bildirirlər ki, Azərbaycanın COP29-a sədrliyi dövründə iqlim dəyişikliyi ilə mübarizədə qanunvericiliyin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki qlobal iqlim böhranına qarşı mübarizədə hüquqi alətlərin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın daha da dərinləşdirilməsi ölkəmizdə yeni iqlim strategiyasının hazırlanması istiqamətində işləri sürətləndirir. Azərbaycanın iqlim strategiyası həm qlobal öhdəliklərə uyğunlaşmanı, həm də milli prioritetlərin icrasını özündə birləşdirir. Yeni strategiyada bütün iqtisadi sektorların əhatə olunacağı, aşağı karbonlu inkişafı hədəfləyəcəyi gözlənilir.

Mütəxəssislərin fikrincə, bu gün qarşıda həllini gözləyən ən böyük çağırışlardan biri iqlim dəyişikliyinə uyğunlaşmaq üçün potensialın artırılmasıdır. Xüsusilə təmiz texnologiya və beynəlxalq iqlim maliyyəsi sistemlərinə çıxışın məhdudluğu yerli səviyyədə yeni layihələrin gerçəkləşdirilməsinə çətinlik yaradır. Bununla bərabər, Azərbaycanın milli iqlim qanunvericiliyi bəzi sahələrdə beynəlxalq standartlara uyğunlaşdırılmalı, iqlim dəyişikliyi ilə mübarizənin daha təsirli olması üçün əlavə islahatlar keçirilməlidir. Qanunvericilikdə iqlim dəyişikliyinə qarşı daha aydın və konkret mexanizmləri tətbiq etməklə həm qlobal iqlim öhdəliklərimizin icrasında, həm də iqlim hüquqpozmalarının qarşısının alınmasında daha güclü hüquqi əsaslar yaradılmalıdır.

Bütün bu qeyd edilənlərin gerçəkləşdirilməsi isə ölkəmizdə iqlim dəyişmələri ilə mübarizənin uğurunu şərtləndirir, kənd təsərrüfatı, su ehtiyatları, meşə, biomüxtəliflik, səhiyyə və turizm sahələrinin inkişafını sürətləndirir, Xəzər dənizinin səviyyəsinin ciddi şəkildə azalmasının qarşısını alır. Bir sözlə, Azərbaycanın milli iqlim qanunvericiliyinin müəyyən sektorlarda beynəlxalq standartlara uyğunlaşdırılması, bununla bağlı əlavə islahatlar keçirilməsi antropogen və texnogen təsirləri zəiflədir.

COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayevin sözlərinə görə, iqlim dəyişmələrinin təsiri gücləndikcə qanunvericiliyin rolu da artır. Hüquq sistemləri yalnız emissiyaların azaldılmasını təmin etməklə kifayətlənməməli, iqlim dəyişmələrinin təsirlərindən ən çox əziyyət çəkən icmaların hüquqlarının qorunmasına yönəldilməlidir. Hüquq sistemləri iqlim dəyişmələri üzrə qlobal sazişlərin icrasını gerçəkləşdirməli, iqlim ədalətini həyata keçirməli, ən əsası iqlimə həssas olanların hüquqlarını qorumalıdır. Bu vəzifələr təkcə milli səviyyədə deyil, həm də beynəlxalq əməkdaşlıq çərçivəsində reallaşdırılmalıdır. Beynəlxalq hüquq iqlim dəyişmələri ilə mübarizədə ən güclü vasitələrdəndir. Bir çox ölkə məhkəmələrində iqlim dəyişikliyi ilə bağlı məsələlərə baxılır və qərarlar çıxarılır.

## Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

COP əsas beynəlxalq ekoloji sazişlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının və Paris İqlim Sazişinin həyata keçirilməsi üzrə danışıq prosesinin ali orqanıdır. Bu gün COP həm də ona görə mühüm önəm daşıyır ki, dövlət başçıları, nazirlər, digər dövlət xadimləri, eləcə də biznes, vətəndaş cəmiyyəti, akademiya, media və gənclər daxil olmaqla iqlim gündəliyinin geniş aktorlar dairəsini bir araya gətirir. İqlim probleminin həlli məqsədilə məhz belə sahələrarası yanaşmaya ciddi zərurət duyulur.

COP29 iqlim böhranından əziyyət çəkən cəmiyyətlər üçün yüksək dəyərləndirilir. Azərbaycanda keçiriləcək bu nüfuzlu tədbir artıq haqlı olaraq "maliyyə müşavirəsi" də adlandırılır, çünki məhz cari ilin noyabr ayında iqlim maliyyələşdirilməsi sahəsində yeni kollektiv razılaşdırılma gözlənilir.

İqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsində yeni hədəf isə inkişaf etmiş dövlətlər tərəfindən aşağı gəlirli ölkələr üçün nəzərdə tutulan maliyyə öhdəliyinin gerçəkləşdirilməsidir. Bu məsələdə problem ondan ibarətdir ki, 2009-cu ildə vəd edilən bütün vəsait ayrılmamışdı, bu da iqlim dəyişikliyi ilə mübarizənin ciddi şəkildə ləngiməsinə gətirib çıxardı. Ancaq iqlim böhranından əziyyət çəkən cəmiyyətlərdə inkişaf etmiş ölkələrin maliyyələşmə ilə bağlı verdikləri vəd və öhdəliklərin COP29-da tam həcmdə yerinə yetiriləcəyinə böyük ümid bəslənilir.

İqlim dəyişikliyindən danışarkən, bir məqama da toxunmaq istərdim. Bu da sözügedən sahədə mövcud beynəlxalq və milli hüquqi tənzimləmə alətləri barədə məlumatlılığın artırılmasından ibarətdir. Ümumiyyətlə, iqlim dəyişikliyi təkcə ekoloji, sosial-iqtisadi məsələ deyil, həm də hüquqi məsələdir. Çünki iqlim dəyişikliyi prosesi insan hüquqlarının pozulması, məhkəmə çəkişmələrinin yaranması, məsuliyyət tədbirlərinin tətbiqi və məhkəmə təcrübəsinin formalaşmasına da səbəb olur. Baş verən iqlim dəyişikliyi, əsasən, insan davranışlarının və fəaliyyətinin nəticəsidir. Bu səbəbdən də hüquq təkcə iqlim dəyişikliklərinin fəsadlarına məruz qalan deyil, eyni zamanda onu tənzimləyən və bu proseslərdə preventiv xarakter daşıyan bir vasitədir.

Beləliklə, hüquq ekosistemi iqlim dəyişikliyi ilə mübarizədə əsas rol oynamalıdır. Çünki iqlim dəyişikliyi müasir dövrün ən ciddi qlobal problemlərindən biridir. Həmin problem təkcə ətraf mühitin və təbiət resurslarının qorunması ilə bağlı deyil, həm də insan hüquqları, iqtisadiyyat və sosial ədalət məsələlərini də əhatə edir. İqlim dəyişikliyi nəticəsində baş verən təbii fəlakətlər, əkin sahələrinin azalması, su qıtlığı və digər problemlər bir çox ölkələrdə insan hüquqlarının pozulmasına səbəb olur. Bu mənada, hüququn iqlim dəyişikliyinə qarşı mübarizədə rolu əvəzolunmazdır.

# "Azərkosmos"un Millətlər Birliyi Təşkilatı ilə ekoloji əməkdaşlığı

**"Azərkosmos" Millətlər Birliyi Təşkilatının (MBT) üzvləri sırasındakı inkişaf etməkdə olan kiçik ada dövlətləri və digər həssas üzv ölkələri ilə iqlimlə bağlı fəaliyyətin gücləndirilməsi istiqamətində əməkdaşlığı Azərbaycan və MBT-nin birgə imzaladığı memorandum çərçivəsində həyata keçirir.**




Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, "Azərkosmos" birliyə üzv olan ölkələrə iqlim dəyişikliyində kosmik texnologiya və coğrafi məlumatlar vasitəsilə təhlillərin aparılması, eləcə də fəaliyyətin qiymətləndirilməsi məqsədilə kompleks proqram hazırlayıb.

Proqram çərçivəsində birliyin üzvü olan dövlətlərdə, xüsusilə Karib dənizi regionunda və Sakit okean ölkələrinin ərazilərində peyk görüntülərindən istifadə etməklə quraqlıq səviyyəsinin monitorinqi və quraqlıq riskinin qiymətləndirilməsi, əkin sahələrinin sinifləndirilməsi, meşələrin kompleks monitorinqi, həmçinin metan ($CH_4$) konsentrasiyasının kosmik monitorinqi fəaliyyətləri icra olunacaq.

Bu fəaliyyətləri icra edərkən vacib məqam olan məsafədən müşahidə və Coğrafi İnformasiya Sistemləri üzrə bilik və bacarıqların artırılması, tematik təlim və konsultasiyanın verilməsi proqramın tərkib hissələridir.

Kosmik həllərə çıxış imkanının olub-olmamasından asılı olmayaraq bütün ölkələr gündəlik olaraq kosmik xidmətlərdən istifadə edirlər.

Hazırda iqlim dəyişikliyinin mənfi təsirlərinin ön cəbhə xəttində olan kiçik ada dövlətlərində iqlimin monitorinqinin ən güclü aləti kosmik həllərdir. Məsələn, kosmik texnologiya ada dövlətlərinin davamlı dolanışıq və iqtisadi inkişafı üçün həyati əhəmiyyət kəsb edən işlərdə rol oynayır. Həmçinin sahil mühafizəsi üçün sahil xətlərinin monitorinqi, okeanda suyun səviyyələrinin monitorinqi, qeyri-qanuni balıq ovuna nəzarət və neft dağılmalarının aşkar edilməsi kimi nümunələri misal göstərmək olar. Kosmik texnologiya əlçatmaz ərazilərdən məlumat əldə etməyi təmin edir. Bu da kiçik ada dövlətlərinin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən aspektdir.

"Azərkosmos"un hazırladığı bu proqram iqlim dəyişikliyinə həssas və kosmosa az və ya heç bir çıxışı olmayan dövlətlərdə Azərbaycanın kosmik təcrübəsini bölüşmək və onların kosmos sahəsində insan kapitalının inkişafına öz töhfəsini verəcək.

Kosmik texnologiya və coğrafi məlumatların gücündən istifadə etməklə bu tərəfdaşlıq iqlimə davamlılığı gücləndirmək, fəlakətlərə hazırlığı təkmilləşdirmək və davamlı inkişafı dəstəkləmək məqsədini daşıyır. Kosmik həlləri özündə ehtiva edən bu proqram Millətlər Birliyi Təşkilatına daxil olan dövlətlərə həm Bakıda keçiriləcək COP29 tədbirində, həm də gələcəkdəki iqlim dəyişikliyi üzrə fəaliyyətlərdə bir növ yol xəritəsi rolunu oynayacaq.

# İqlim barometrində "qırmızı" hədd

## *Son 30 ildə karbon tullantıları 33 milyard tondan 54 milyard tona çatıb*

***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Bakıda keçirilən "Genişləndirilmiş Şəffaflıq Çərçivəsində ümumi iştirak vasitəsilə iqlim məsələlərinin şəffaflığının artırılması" adlı yüksək səviyyəli dialoq çərçivəsində həyəcan təbili çalıb.***

Görkəmli ictimai-siyasi xadim bildirib ki, əgər 30 il əvvəl bəşəriyyət atmosferə ildə 33 milyard ton karbon qazı buraxırdısa, hazırda bu rəqəm ildə 54 milyard tondur: "Bu gün karbon qazının konsentrasiyası Yer kürəsinin son 2 milyon ildə metan və azot oksidləşməsi isə son 800 min ildə ən yüksək səviyyədədir".

İ.Serageldin vurğulayıb ki, iqlim dəyişikliyinin ziyanını azaltmağa kömək edəcək mühüm qərarlar qəbul edilməli, bunun üçün birgə səmərəli fəaliyyət göstərilməlidir. Yalnız bu yolla vəziyyət düzəldilə və bəşəriyyət fəlakətdən xilas edilə bilər.

# COP29 Azərbaycan Sədrliyinin diplomatik təqdimatı




**Dünən COP29 Azərbaycan Əməliyyat Şirkəti Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri üçün iqlim konfransına hazırlıq prosesi və tədbir planları ilə əlaqədar ikinci brifinqini keçirib.**

Əməliyyat Şirkətinin mətbuat ofisindən aldığımız məlumata görə, tədbirdə COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini Ramin Tağıyev, həmçinin Bakıda rəsmi səfərdə olan UNFCCC Konfrans İşləri Şöbəsinin direktoru Wasim Mir və BMT-nin Təhlükəsizlik departamentinin nümayəndəsi Kevin O'Hanlon iştirak ediblər.

Hibrid formatda təşkil edilən interaktiv brifinqə Azərbaycanda fəaliyyət göstərən diplomatik missiyaların rəhbər şəxsləri ilə yanaşı, respublikamızda akkreditə olunmuş və xarici ölkələrdə yerləşən diplomatik korpusun nümayəndələri də daxil olmaqla, ümumilikdə, 150-dən artıq diplomat qoşulub.

Brifinqdə geniş təqdimatla çıxış edən Nərmin Carçalova COP prosesinin təqviminə daxil edilən başlıca tədbirlər, fərqli istiqamətlərdə aparılan intensiv hazırlıq prosesi, konfransın keçiriləcəyi Bakı Stadionunda COP29-la bağlı müxtəlif məqsədlər üzrə ərazi bölgüsü və müvafiq infrastrukturun qurulması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. N.Carçalova COP29 zamanı bütün rəsmi tədbirlərin keçiriləcəyi məkan olan Mavi Zonanın, eləcə də müxtəlif tərəfləri innovativ iqlim yanaşmaları üçün bir araya gətirəcək Yaşıl Zonanın qurulması üzrə irəliləyişlər barədə ətraflı məlumat verərək, işlərin plana uyğun şəkildə davam etdirildiyini bildirib.

Prezidentin Protokol xidməti rəisinin müavini Ramin Tağıyev COP29 çərçivəsində təşkil ediləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitində iştirak üçün Bakıya gələcək dövlət və hökumət rəhbərlərinə, rəsmi heyətlərinə şamil olunan imtiyazlar, qarşılama, yerləşdirilmə və nəqliyyat məsələlərində protokolla bağlı yer alan məqamlara toxunub. O, Heydər Əliyev Beynəlxalq Aeroportunun tədbir zamanı fəaliyyət sxemi, şəhərdaxili nəqliyyatın təmin edilməsi, eləcə də Dünya İqlim Fəaliyyəti Sammitinin gündəliyi haqqında diplomatları məlumatlandırılıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Əli Nuriyev – 85

# Milli iqtisad elminin yorulmaz tədqiqatçısı

**Bu günlərdə ölkənin elmi-mədəni ictimaiyyəti, çoxsaylı alim yetirmələri və tələbələri görkəmli iqtisadçı alim, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Əli Nuriyevin anadan olmasının 85, elmi-pedaqoji fəaliyyətinin 60 illiyini sevgi-sayğı ilə qeyd edirlər. Milli iqtisad elminin yorulmaz tədqiqatçısının mənalı ömür yolu və zəngin elmi yaradıcılığı Vətəninə zəkası ilə xidmət nümunəsi kimi dəyərləndirilir.**



Əli Nuriyev 1939-cu il iyun ayının 26-da Fizuli rayonunun Horadiz kəndində kolxozçu ailəsində anadan olmuşdur. Atası II Dünya müharibəsində həlak olmuş uşaq anasının himayəsində böyümüş, orta və ali təhsil alaraq həyatda davamlı uğurlar qazanmışdır.

1963-cü ildə Bakı Dövlət Universitetinin iqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirən Əli Nuriyev 1966-cı ildə AMEA İqtisadiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur. Gənc iqtisadçı 1969-cı ildə “Aşağı Kür-Araz sənaye kompleksi və onun gələcək inkişaf yolları” mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. O, “Yeni təsərrüfatçılıq şəraitində Azərbaycan xalq təsərrüfatının ərazi quruluşunun təkmilləşməsi” mövzusunda doktorluq dissertasiyasını isə 1991-ci ildə M.Lomonosov adına Moskva Dövlət Universitetinin və Moskva Coğrafiya İnstitutu birgə dissertasiya şurasında müdafiə etmişdir.

Elmi yenilikləri, çalışqanlığı və məsuliyyəti ilə seçilən iqtisadçı alim 1972–1979-cu illərdə Naxçıvan Elm Mərkəzində iqtisadiyyat və tarix şöbələrinin müdiri, 1980-1981-ci illərdə Ümumittifaq Kənd Təsərrüfatı Elmi Tədqiqat İnstitutu Azərbaycan filialının direktor müavini olmuşdur. Alim sonrakı 10 ildə AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, 2002–2012-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzinin direktoru vəzifəsində işləmişdir.

Bacarıqlı elm və təhsil təşkilatçısı Əli Nuriyev 2013-cu ildən İdarəçilik Akademiyanın Regional İqtisadi və Sosial Araşdırmalar İnstitutuna rəhbərlik edir. 2003–2006-cı illərdə bu nüfuzlu elm və təhsil ocağında elmi-tədqiqat işlərinin istiqamətlərinin, problem və mövzuların müəyyənləşdirilməsinə bilavasitə rəhbərlik etmiş alim “Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalının nəşrə hazırlanmasının da təşkilatçılarından olmuşdur.

Professor Əli Nuriyev genişprofilli iqtisadçı-regionşünas alimdir. O, 300-dən çox əsərin, 20 monoqrafiya, dərslik və vəsaitin müəllifidir.

Onun “Məhsuldar qüvvələrin respublika daxilində yerləşməsinin təkmilləşməsinin sosial-iqtisadi problemləri”, “Azərbaycan Respublikasının iqtisadi və inzibati ərazi quruluşunun kompleks təkmilləşdirilməsi”, “Azərbaycan İqtisadiyyatının böhrandan çıxması və inkişafının prinsipial məsələləri”, “Regional siyasət və idarəetmə”, “Regional siyasət və idarəetmənin əsasları”, “Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları.”, “Ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri”, “Azərbaycan iqtisadiyyatının inkişafı və regional strukturunun təkmilləşməsi istiqamətləri” kimi fundamental tədqiqatları milli iqtisad elminə dəyərli töfələr olmuşdur.

İqtisadçı alimin əsərlərində keçmiş ittifaq məkanında ilk dəfə olaraq inzibati-ərazi bölgüsü, iqtisadi rayonlaşdırma və ərazi idarəetmənin kompleks təkmilləşməsi konsepsiyası işlənib hazırlanmışdır. Azərbaycanda ərazi-istehsal kompleksinin formalaşması, məhsuldar qüvvələrin yerləşməsinin təkmilləşməsi, davamlı və tarazlı regional inkişaf, regional siyasət və idarəetmə məsələlərinin təhlili, keçid dövrünün elmi cəhətdən əsaslandırılması Əli Nuriyevin adı ilə bağlıdır.

İqtisadçı alimin elmi yaradıcılığında ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf siyasətinin təhlili, təbliği və reallaşdırılması ilə bağlı elmi təklif və tövsiyələr önəmli yer tutur. Onun “Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları” fundamental tədqiqatı Ulu öndərin sosial-iqtisadi inkişaf siyasətinin təhlilinə və onun yaradıcılıqla davam və inkişaf etdirilməsi məsələlərinin şərhinə həsr olunmuşdur.

Son illərdə Əli Nuriyevin fəal iştirakı ilə Azərbaycanda inzibati-ərazi bölgüsü və ərazi idarəetmənin təkmilləşdirilməsi konsepsiyasını işləyib hazırlamışdır. Onun yaradıcılığının mühüm istiqamətlərindən birini də ailə, elm, təhsil, cəmiyyət və onun idarəetmə sistemi haqqında fəlsəfi yanaşmalar təşkil edir. Bu əsərlər elmi-mədəni dairələrdə cəmiyyət problemlərinə yeni baxış kimi qarşılanmış, geniş oxucu kütləsinin də rəğbətini qazanmışdır.

Əli Nuriyevin yaradıcılığı həyata vəsiqə alma miqyasına görə də önəmlidir. Onun baramaçılıq-ipəkçiliyin inkişafına, aqrar-sənaye məhsulları keyfiyyətinin yüksəldilməsinə, əhalinin ət və ət məhsulları ilə təminatının yaxşılaşdırılmasına aid tədqiqatlarının nəticələri qeyd edilən sahələrdə problemlərin həllinə kömək etmişdir. Alimin ötən əsrin 80-ci illərdə hazırladığı inzibati-ərazi bölgüsünün, iqtisadi rayonlaşdırmanın və ərazi idarəetmənin qarşılıqlı əlaqədə və sistem halında təkmilləşməsi konsepsiyasından müstəqilliyin ilk illərində yeni inzibati rayonların yaranmasında, 1995-ci ildə qəbul edilmiş iqtisadi rayonlara bölgü şəbəkəsinin formalaşmasında elmi mənbə kimi istifadə olunmuşdur.

Əli Nuriyevin bilavasitə rəhbərliyi altında 30 fəlsəfə doktoru və elmlər doktoru hazırlanmışdır. O, 50 ildən artıq müddətdə elmi fəaliyyəti tədrislə sıx əlaqələndirərək ali məktəblərdə müxtəlif fənlərdən mühazirələr oxumuşdur. Alim son 20 ildə Dövlət İdarəçilik Akademiyasında dövlət İdarəçilik nəzəriyyəsi, regional idarəetmə fənlərdən dərs demişdir.

Əli Nuriyev 1970-ci ildə gənc alimlərin respublika müsabiqəsinin qalibi olmuşdur. İqtisadçı alim 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. 2005-ci ildə ona professor elmi adı, 2009-cu ildə isə Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Təhsildə və elmdə xidmətləri ilə ucalmış və məşhurlaşmış, ölkəmizin iqtisdi tərəqqisinə elmi töhfələr vermiş görkəmli iqtisadçı alimimiz Əli Nuriyevin ötən yubileyləri ölkəmizdə layiqincə qeyd edilmişdir. Azərbaycan elminin nufuzlu ağsaqqallarından olan müəllim və dostumuzun növbəti yubileyində onun dəyərli xidmətlərini qədirbilənliklə yada salmaqla dərin ehtiramımızı ifadə edirik. Əli müəllimi 85 illik yubileyi münasibətilə səmimi təbrik edir, ona uzun, sağlam ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Rəna SULTANOVA ,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru***

***Sevda MİKAYILOVA,***
***ETN İqtisadiyyat İnstitutunun baş elmi işçisi, iqtisad elmləri doktoru***

# Göygöldə moruq festivalı

**Heç iki ay deyil ki, Göygöl rayonunda ikinci Milli Yaylaq Festivalı başa çatıb. İndi budur, rayonda daha bir fesftivalın açılışına sayılı günlər qalır. Ölkədə ilk dəfə olaraq Moruq festivalı təşkil olunacaq. Sentyabrın 14-ü və 15-də baş tutacaq festivalın rayonun Köşkü kəndində təşkil olunması planlaşdırılır.**






Festival günlərində iştirakçılara hər növ moruqlu içkilər və təamlar, müxtəlif musiqi və rəqslərdən ibarət konsert proqramları, kamp qurmaq istəyənlər üçün isə ayrılmış ərazi təqdim olunacaq. Festivalda həmçinin sənətkarlıq məhsullarının sərgi-satış yarmarkası keçiriləcək. Əvvəlcədən bildirilib ki, tədbirə hər kəs ödənişsiz olaraq qatıla bilər.

Hazırda Birinci Moruq Festivalına hazırlıq tam sürətlə davam edir. Sənətkarlıq məhsullarının sərgi-satış yarmarkası, uşaqlar və böyüklər üçün müxtəlif əyləncələr də nəzərdə tutulan bu xüsusi bayram tədbirinin niyə ilk dəfə Göygöl rayonunda keçirilməsi oxucu üçün də yəqin maraqlıdır.

Qeyd edək ki, Göygöl rayonu həmişə müxtəlif növ moruqları ilə tanınıb. Rayon ərazisindən keçən Gəncəçay sahili boyu yerləşən Zurnabad, Topalhəsənli, Şəhriyar və digər kəndlərdə illərdir bol moruq yetişir. Göygöl şəhərinin özündə də çoxlu moruq kolları var və son vaxtlar yerli icra strukturlarının təşəbbüsü və fermerlərə yaradılan şərait nəticəsində çoxlu moruq təsərrüfatları yetişdirilib. Yəni bu yerlər ta qədimdən bol moruğu ilə tanınıb, əvəzsiz məhsul sanki rayonun simvollarından birinə çevrilib. Yeri gəlmişkən, təbabətdə daha çox meyvələrindən, az hallarda isə yarpaqlarından istifadə edilən moruq dərman vasitələrindən biridir, susuzluğu kəsir, dadlı və ətirlidir. Çay kimi dəmlənmiş meyvələri qədimdən soyuqdəymədə hərarət salan vasitə kimi istifadə edilir. Moruq tərkibində ən çox dəmir olan giləmeyvədir. Onun 100 qramının enerji dəyəri 41 kaloridir. Qlükoza və fruktoza ilə zəngin olduğuna görə ürək-damar və beyin patologiyası zamanı faydalı meyvədir. Qanazlığı və hamiləlik zamanı da istifadə olunur. Angina və digər boğaz ağrılarında moruğun meyvələrindən hazırlanmış həlimlə qarqara edilir.

Məhz bu məhsulun faydasını, həm də satış baxımından çox dəyərli və əlverişli olduğunu görən mütəxəssislər rayon icra hakimiyyətinin tövsiyəsi ilə yerlərdə görüşlər, seminarlar, praktik tədbirlər keçirməyə başladılar, suvarma məsələlərinə diqqət artırıldı və sair. Nəticədə rayon ərazisində əvvəllər dağlıq ərazilərdə, çay kənarlarında yetişən moruq kollarını son illər sənaye üsulu ilə əkib becərməyə başladılar. İndi əldə olunan məhsul əsasən Bakı və Gəncə bazarlarına, eləcə də xarici bazara çıxarılmağa başlanıb. Təsərrüfat sahiblərinin bu giləmeyvənin rayonda daha geniş ərazilərdə əkib-becərməsinə həvəsləndirən səbəblərdən biri də coğrafi iqlim şəraitinin əlverişli olması ilə yanaşı, həm də dövlət tərəfindən dəstək olan subsidiya verilməsidir.

Moruq yetişdirilməsi ilə məşğul olan fermerlərin bir çoxu ilə danışıb söhbət etdik, fikirlərini öyrəndik. Ümumi rəy belədir ki, həmin sahəyə qoyulan sərmayə nəinki itmir, əksinə əvəzini 5-6 dəfə çıxarır. Moruğun aqrotexniki qulluq qaydalarına gəldikdə isə, təsərrüfat sahibləri dedilər ki, bir moruq tinginə təxminən hər suvarılmada 7 litrə qədər su sərf olunur.

**Fermer Fuad Zalov:**

– Mənim 4 hektar moruq bağım var. Neçə illərdir faydasını görürəm, yaxşı qazanc gətirir. Belə olmasaydı, heç məşğul olmazdım. Özü də dolanan təkcə mən, ailə üzvlərim deyil. Hazırda yığım gedir və bu işlə hər gün 45-50 adam məşğul olur və kifayət qədər də zəhmət haqqı alırlar. Hələ gələn ayın sonlarınadək moruq yığılacaq.

Moruq bağında demək olar ki, bütün işlər əl əməyi vasitəsilə görülür. Moruğun budaqlarının 2 metrdən çox uzanmasına imkan verilmir. Məhsuldar olması üçün hündürlüyü stabil qaydada saxlanır. Moruq kollarının özündən də yeni məhsuldar tinglər əldə edirlər. Bu tingləri fermerlər həm özləri istifadə edir, həm də satışını həyata keçirirlər. Bir çoxu da öz həyətində 3-4 sotluq sahədə moruq becərir. Yerli sakinlərin sözlərinə görə, bu yerlərdə moruqbecərmə ənənəsi bir əsrə yaxındır ki, yaşayır.

...Bəlkə də çoxları bilmir ki, dünyada moruğun 250-dən çox növü var. Azərbaycanda isə həm yabanı, həm də mədəni şəkildə yayılan bu bitkinin 15 növü mövcuddur. Onu da deyək ki, moruq ildə iki dəfə yığılır. Birinci yığım iyun-iyul aylarında, ikinci isə indi, sentyabr-oktyabr aylarında dərilir.

Bax, belə bir vaxtda Göygöl rayonunda maraqlı bir təşəbbüs ortaya atılıb: “Gəlin moruq festivalı keçirək və bu, bir ənənə şəklini alsın.”

Gözəl təşəbbüsdür, niyə də rayonda yetişən, neçə-neçə ailəyə ruzi-bərəkət gətirən bu əvəzsiz giləmeyvəyə biganə qalmalıyıq?! Əslində tarixi eramızdan neçə əsrlər qabağa gedən Göygölün moruğunun özü da bir tarixdir. Gərək bu tarixi yaşadaq!

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Göygöl rayonu***

# Azərbaycan təhsili: yeniyə – “hə”, köhnəyə – “yox”

**Təhsil sağlam gələcəyin sütunudur. Özünü inkişaf etdirmək, yüksəlmək, sivil və mədəni cəmiyyətə adaptasiya olmaq, karyera hədəflərinə çatmaq üçün keyfiyyətli təhsil vacibdir. Ulu öndər Heydər Əliyev təhsili millətin gələcəyi hesab edirdi.**



Dünyada və eləcə də ölkəmizdə təhsilə diqqət, maraq, texnologiyanın tətbiqi daim nəzarətdə saxlanılır. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Avstraliya, Belçika, Kanada, Yaponiya kimi inkişaf etmiş ölkələrdə müxtəlif təhsil modelləri, özünəməxsus təhsil strategiyaları tətbiq olunur. Başqa sözlə desək, hər bir ölkənin oturuşmuş təhsil baxış bucağı var. Məsələn, beynəlxalq səviyyədə istinad edilən təhsil sisteminə malik Finlandiyada təhsil bərabərlik, çeviklik, tələbəyə diqqət aşıladığı halda, Sinqapurda bilik, intizam və texnoloji tərəqqi vasitəsilə yüksək nailiyyətlər əldə edilir. Almaniya peşə təhsili və əməkdaşlıqlar gələcəyə investisiya etməkdə olduqca maraqlıdır. Yaponiyada isə mədəni dəyərlər və xarakterik təhsil ön plandadır. Bir sözlə, dünyanın müxtəlif təhsil sistemləri özünəməxsusluğu ilə seçilsə də, bir-birindən öyrəniləcək bir çox bilgilər var.

Hələ 2 il əvvəl Londonda 107 ölkədən 112 nazirin iştirakı ilə keçirilmiş Dünya Təhsil Forumunda qeyd edilmişdi ki, təhsilin inkişafı vasitəsilə sülhün, tərəfdaşlığın və rifahın əldə edilməsi, uğurlu iqtisadiyyatların qurulması zəruridir. Forumda təhsilə hamı üçün bərabər çıxış, iqtisadi artım, süni intellektin istifadəsi, texnologiya və data əsaslı qərarvermənin cəmiyyətlər üçün əhəmiyyəti də müzakirə edilmişdi.

Heç kimə sirr deyil ki, Azərbaycanda təhsilə böyük qayğı var. Beynəlxalq miqyasda ciddi uğurlar əldə etmişik. Son illər Təhsil Nazirliyinin səlahiyyət və statusunu artırmaq məqsədilə bu qurum Elm və Təhsil Nazirliyi adlandırılıb. Bu, o deməkdir ki, təhsil və elm qarşılıqlı şəkildə inkişaf edəcək, bir-birindən ayrılmayacaq. Nazirliyin tabeliyində bir sıra agentliklərin yaradılması ölkə təhsilinin inkişafı üçün önəmli və ciddi addım idi. Nəzəriyyə varsa, mütləq onun praktikası, real zamanda tətbiqi də olacaq.

Azərbaycanın ilk sistemli təhsilin əsası ibtidai məktəblərin yaradılması ilə başlayıb. Təbriz, Marağa, Ərdəbil, eləcə də Gəncə, Naxçıvan, Şamaxı kimi şəhərlərimiz əzəli təhsil mərkəzləri kimi tanınıb. Tarixi mənbələrdə qeyd olunub ki, XVIII əsrdə Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsə, Şamaxıda 40-a qədər məktəb və 7 mədrəsə, Ərdəbildə Şeyx Səfi məqbərəsində xüsusi mədrəsə fəaliyyət göstərib. Azərbaycan Xalq Cümhuriyyəti və sovet hakimiyyəti dövründə də ölkəmizdə təhsil sahəsində xeyli inkişaf olub.

Bu gün Azərbaycanda təhsil daha da əlçatandır. Son illər ali məktəblərə qəbul olmaq üçün plan yerlərinin, xüsusilə də dövlət sifarişli yerlərin artırılması, dərin təhsil islahatları, orta təhsilin gücləndirilməsi, müəllimlərin müsabiqə yolu ilə işə qəbulu və digər proseslər inkişafın hansı səviyyədə olduğunu göstərir. Milli təhsilin inkişafı məhz ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu öndər 1969-cu ildə ilk hakimiyyətə gəldiyi dövrdən Azərbaycanda orta və ali təhsilin yüksək səviyyədə inkişafı, o cümlədən, ölkədən kənarda kadr hazırlığı başlandı. Heydər Əliyev 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox ali məktəbində ölkəmizin elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına köməklik göstərmişdir. Bir fakt mütləq qeyd edilməlidir ki, 1970-ci ilə qədər ölkədən kənarda təhsil alanların 40 faizi azərbaycanlı idisə, sonrakı mərhələdə bu rəqəm 97,7 faizə yüksəlmişdi. Prezident İlham Əliyev varislik ənənəsinə sadiq qalaraq təhsili əsas prioritet sayır. Bu sahədə Heydər Əliyev Fondunun xidmətləri də danılmazdır.

Pandemiya dövründə təhsildə müəyyən qədər durğunluq olsa da, sonrakı illərdə bunun qarşısı alındı. Təkcə bu il 53 məktəbli 11 illik buraxılış imtahanından maksimum 300 balı topladı. Bu rəqəm təhsil tarixində bir ilk idi. Qarabağ, Türkiyə–Azərbaycan, Azərbaycan–İtaliya universitetlərinin yaranmasına və plan yerlərinin artırılmasına baxmayaraq, bu il tələbə qəbulunda yüksək nəticələrin şahidi olduq. Eləcə də şagirdlərimizin olimpiada uğurları, təhsildə nailiyyətləri bizi sevindirir.

Azərbaycanda keçirilən Beynəlxalq Təhsil Forumu yeni dövrün təhsil tələbləri və təhsildə keyfiyyətin yüksəldilməsi ehtiyaclarına yönəlib. Burada əsas məram təhsil keyfiyyətini artırmağa, mövcud vəziyyəti təhlil etməyə, təhsildəki yeni çağırışları müzakirə etməyə yönəlir.

Keçən il Bakı Konqres Mərkəzində təhsil işçilərini bir araya toplayan Azərbaycan müəllimlərinin XVI qurultayında təhsilin bütün sahə və istiqamətləri hərtərəfli müzakirə olundu. Bu qurultay elm, təhsil cameəsi üçün son dərəcə vacib və əlamətdar hadisə idi. Azərbaycan müəllimlərinin XVI qurultayı Ümummilli lider Heydər Əliyevin 100 illiyində baş tutması və eləcə də ərazi bütövlüyümüz tam təmin edilib, işğaldan azad edilmiş rayonlardakı məktəblərin müəllimlərinin də qurultaya qatılması qürurverici idi. Qurultayda elm və təhsillə bağlı diqqətə çatdırılan mövzular XXI əsrin çağırışlarına tam cavab verirdi. Səsləndirilən fikirlərdən biri o idi ki, bu günün təhsili daha dinamik olmalı, zamanın tələbləri ilə çevik şəkildə ayaqlaşmalıdır. Biz həmçinin dünya təhsil sisteminə sıx inteqrasiyadan geri qalmamalıyıq.

Başlıca məramımız təhsilin məzmununa müasir yanaşmanı təmin etmək olmalıdır. Elm və təhsilin birgə inkişafı olduqca müsbət haldır. Azərbaycan təhsil sistemi məhz bu yolu seçib. Çünki keyfiyyətli təhsil olmadan elm inkişaf edə bilməz. İnteqrasiya irəliləyişə müsbət təsir edə bilməlidir. Elə formalar tapmaq lazımdır ki, inkişafyönümlü olsun və dövrün tələblərini ödəyə bilsin.

2023-cü il noyabrın 5-də Təhsildə Yeni Çağırışlar III Beynəlxalq Forumunda təhsildə yeni çağırışlar müzakirə edilərək, yeni dövrün təhsil tələbləri nəzərdən keçirildi və keyfiyyətin daha da yüksəldilməsinə nail olmağın yol xəritəsi üzərində danışıldı. “Daha təhsilli gələcək" şüarı ilə baş tutmuş forum çərçivəsində “Rəqəmsal dünyada öyrənmək necə təşkil edilməlidir?”, “Hansı yeni yanaşmalara, yeni məktəb modellərinə ehtiyac var?”, “Təhsildə təlim prosesinin və məzmunun gələcəyi necə olacaq?”, “Məktəb həyatını həyat məktəbinə çevirmək üçün hansı çağırışlara cavab verilməlidir?”, “Gələcəyə necə insan hazırlamalıyıq?”, “Yeni çağırışlar təhsilin məqsədi və vəzifələrini hansı istiqamətdə dəyişir və ya dəyişməlidir?" mövzuları dərindən müzakirə edildi.

Fərəhli haldır ki, bu gün Azərbaycanda təhsilin bütün pillələrində yeni formalar tətbiq edilir. Bir zamanlar dalana dirənmiş peşə təhsili müəssisələri artıq yeni məzmunda tələbələrini qəbul edir. İldən-ilə peşə təhsili almaq istəyən gənclərin sayı artır. Məsələn, peşə məktəblərinə tələbə qəbulunun 1-ci mərhələsində 2020-ci il üzrə sənəd verənlərin sayı 11 814 nəfər olduğu halda, bu rəqəm 2022-ci ildə 14 876-ya çatdırıldı. Bu il isə peşə məktəblərində təhsil almaq istəyənlərin sayı ilk müraciət üçün 27269 nəfər oldu. Bu, tam orta ixtisas təhsil müəssisələrində və universitetlərdə də belədir. Təhsilin əlçatımlığı oxumaq istəyən gənclərin sayını artırır. Çünki burada obyektivlik, bərabər imkanlar və sağlam rəqabət var.

Bir sözlə, Azərbaycanda təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Qarşıdan yeni dərs ili gəlir. İnanırıq ki, təhsil ənənələrimiz bu il də davam və inkişaf etdiriləcək

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Cəfər Cəfərov – 110

# Milli məfkurənin ədəbi mücahidi

**Görkəmli teatrşünas, tənqidçi, ictimai xadim, Əməkdar incəsənət xadimi Cəfər Cəfərov səmərəli ədəbi-elmi və dövləti fəaliyyəti ilə tanınmış ziyalılardan olub. Azərbaycan milli teatrşünaslığın inkişaf yönlərinin konseptual elmi məcraya düşməsində onun xidmətləri danılmazdır. Gördüyü dəyərli işlərin həcmi yaşadığı 69 illik ömrün çərçivəsinə sığmayıb.**

Cəfər Cəfərov 1914-cü il sentyabrın 7-də Bakıda tacir ailəsində anadan olub. Bakı Pedaqoji Texnikumunu bitirib və 2 il müəllim işləyib. Sonra Moskvadakı Andrey Bubnov adına Pedaqoji İnstitutun ədəbiyyat fakültəsinə daxil olub. Ali təhsilli mütəxəssis Bakıya qayıdaraq, hərəsində 1 il olmaqla Akademik Milli Dram Teatrında ədəbi hissə müdiri, "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin müdiri, daha sonra "Ədəbiyyat" qəzetində tənqid şöbəsinin müdiri, Azərbaycan Yazıçılar İttifaqının məsul katibi vəzifələrində çalışıb. Bir ara Moskvanın "Pravda" qəzetinin Azərbaycan üzrə müxbiri olub. Azərbaycan KP MK-da şöbə müdiri, mədəniyyət nazirinin müavini, ali məktəblərdə müəllimlik edib, Elmlər Akademiyasının müxbir üzvü seçilib. Bir sıra teatrşünas alimlərin yetişdirilməsinə, kino və teatr sənətinə aid tədqiqatlar aparılmasına rəhbərlik edib. Eyni zamanda 1967–1972-ci illərdə Azərbaycan KP MK-nın İdeoloji iş üzrə katibi vəzifəsini icra edib.



... Teatrın, dramaturgiyanın tarixi-nəzəri problemlərinə dair sanballı əsərlər yazıb. Bu baxımdan Hüseyn Ərəblinskinin, İsmayıl Hidayətzadənin, Həqiqət Rzayevanın, Mehdi Məmmədovun, Tofiq Kazımovun, Abbasmirzə Şərifzadənin, Rza Təhmasibin yaradıcılıqları barədə elmi məqalə və monoqrafiyalarını qeyd etmək olar. O, Akademik Milli Dram Teatrının tarixini fundamental şəkildə araşdırıb və həmin mövzuda bir neçə kitab çap etdirib. Azərbaycan və bir sıra rus teatrlarının ən maraqlı tamaşalarına resenziyalar yazıb.

Onun elmi əsərləri mövzuya dərin bələdliyindən, tarixi və elmi faktları sistemləşdirmək və əhatəli təhlil etmək bacarığından soraq verir. Alimin "Hacı Qara", "Azərbaycan dramaturgiyası", "Dramaturgiya və teatrımızın yeni yüksəlişi uğrunda", "Yüksək keyfiyyətli dramaturgiya uğrunda", "M.F. Axundov və teatr", "Nəcəfbəy Vəzirov", "Vilyam Şekspir", "Cavid teatrı", "Cəfər Cabbarlı", "Dramaturgiyada yüksək sənətkarlıq uğrunda", "Naxçıvan teatrı", "Antoni və Kleopatra", "Təklik faciədir", "Yalansız", "Teatrda müasirlik" kimi yazıları, "M.F.Axundovun dramaturgiyası", "Azərbaycan teatrı" adlı monoqrafiyaları aktuallığı ilə seçilib.

C.Cəfərov milli teatr mədəniyyətimizin sınaqlarla dolu yaranış dövrünü, 1873–1905-ci illəri "Azərbaycan teatrının doğuluşu və təşəkkülü" kimi səciyyələndirir. 1873-cü il mart ayının 10-da milli teatrımız "Lənkəran xanının vəziri" tamaşası ilə həyata qədəm qoyub. C.Cəfərov bunu konkret faktlarla sübut etmək üçün yazıb ki, M.F.Axundovun arxivindən əldə edilən afişa, o zaman Tiflisdə rus dilində nəşr olunan bir müxbir yazısı, tamaşa üçün icazənin alınması ilə bağlı bir sıra rəsmi sənədlər martın 10-da Bakıda səhnəyə qoyulmuş ilk tamaşanın, həqiqətən, "Lənkəran xanının vəziri" olduğunu təsdiqləyir.

Teatrşünas-alim yazılarında XIX əsrin 70-ci illərində Azərbaycan şəhərlərində səhnəyə qoyulan tamaşalar barədə məlumatın az olduğunu təəssüf hissi ilə qeyd edib. Eyni zamanda, 1875-ci ildə Qubada, 1879-cu ildə isə Şəkidə səhnələşdirilən tamaşalar haqqında məlumatın olduğunu diqqətə çatdırıb. XX əsrdən bəhs edərkən artıq bu ərəfədə Azərbaycan teatrında bir sıra mühüm nailiyyətlərin əldə olunduğunu göstərib. "Bu nailiyyətlərdən önəmlisi o idi ki, Ə.Haqverdiyevin və C.Zeynalovun rəhbərliyi ilə Azərbaycan teatrında mübazirə aparan az-çox əzmli bir aktyor kollektivi təşəkkül tapır, ikincisi, "Nadanlıq", "Bəxtsiz cavan", "Müsibəti-Fəxrəddin", "Müfəttiş", "Evlənmə", "Otello" və bu kimi digər yeni orijinal və tərcümə əsərləri teatrın repertuarını zənginləşdirir, üçüncüsü, teatrın yaradıcılıq imkanlarının daha geniş vüsət alması bütün yaradıcı qüvvələrin bir təşkilat içərisində birləşməsi zərurətini ortaya qoyur".

Müəllifin sonrakı mərhələlərə aid araşdırmaları da bu sahəni öyrənənlər üçün əsl tədris vəsaiti, dərslik səciyyəsi daşıyır. 20–30-cu illəri, İkinci Dünya müharibəsi dövrünü və sonrakı illəri əhatə edən bölümlər teatr tariximizə işıq tutmaq baxımından əsl fədakarlıq nümunələridir. "Müasirlik yolları ilə" adlı təqdim edilən 1953–1967-ci illəri C.Cəfərov Azərbaycan teatrının ən mürəkkəb dövrü kimi səciyyələndirib, bunun obyektiv və subyektiv səbəblərinin olduğunu iddia edib. Teatrşünas-alim Ələsgər Ələkbərovun, Səməd Vurğunun, Mehdi Hüseynin, Cabbar Məcnunbəyovun dünyalarını dəyişməsinin milli səhnə sənəti üçün ağır itki olduğunu bildirib, amma bu itkilərlə bərabər, teatrın nailiyyətlər qazandığını da oxucuların nəzərinə çatdırıb.

Xalq yazıçısı Anar unudulmaz alim haqqında deyib: "O, Vətənə, millətə hər zaman sadiq bir ədib olub. Mirzə Fətəli Axundov haqında geniş tədqiqatları var. Mənim onun haqqında "Sənət yanğısı" adlı essem çıxıb. Həmin essedə Cəfərovun yaradıcılığından, Azərbaycan teatr sənətinin tarixini yazan çox dəyərli monoqrafiyalar müəllifi kimi barəsində geniş yazmışam. Cəfər müəllim atam Rəsul Rza ilə yaxın dost olub. Rəsul Rza Yazıçılar Birliyinin sədri olanda Cəfər Cəfərovu dəvət edərək bu təşkilatda katib vəzifəsinə təyin edib. Cəfərov həm də universitetdə mənim müəllimim olub. Diplom işimin rəhbəri idi... Atamla yaxın olduğundan, hər zaman evlərinə gediş-gəlişimiz olub. Onun xəstə yatağında tez- tez yanına gedərdim. Cəfər bəyin Vətən eşqi xəstə yatağında belə onu hər zaman narahat edirdi. Təbrizi xatırlayırdı və mənə deyirdi ki, o şəhəri paytaxt görmək istəyirəm".

Cəfər Cəfərov 1973-cü ildə, elə anadan olduğu sentyabr ayında dünyasını dəyişib. Məzarı Bakıdakı Fəxri Xiyabandadır. Tez-tez qədirbilənliklə yad edilir, məzarının üstündən tər güllər əskik olmur. Həyat yoldaşı Zibeydə Əzizbəyova botanika üzrə elmlər doktoru, professor olub. Ömür-gün dostunun həm fərəhli, həm də acılı günlərinə şəriklik edib...

Nəhayət, onu da qeyd edək ki, M.F.Axundov adına Milli Kitabxanada böyük cəfakeş alim Cəfər Cəfərovun anadan olmasının 110 illiyi münasibətilə kitab sərgisi açılıb. Bu günlər ora yolu düşənlər "Cəfər Cəfərov – 110" adlanan sərgidə onun müəllifi olduğu əsərlər, tərcümələri, tərtib və redaktə etdiyi kitabları ilə tanış olurlar. Həmçinin Cəfər Cəfərovun həyat və yaradıcılığı haqqında yazılan ədəbiyyatlar Azərbaycan və xarici dillərdə nümayiş etdirilir. Bir həftə davam edəcək sərgi insanın cismani yoxluğundan sonra onun yadigar qoyduğu irsin yaşatdığını təsdiqləyir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Kuklaların nağıl dünyası

**Onun üçün yaratdığı hər bir kukla doğmadır, əzizdir. Onları öz balaları kimi sevir. Əsərlərini avanqard, müasir, milli, buduar, konseptual və s. üslublarda hazırlayır. Şəxsi kolleksiyasında 200-dən çox kukla var. Heç birinə də cansız, ruhsuz müqəvva və ya adi oyuncaq deməyə adamın dili gəlmir.**

Müsahibim Azərbaycan Rəssamlar İttifaqı və Beynəlxalq Müəllif Kuklalar Təşkilatının üzvü, bir sıra dünya miqyaslı müsabiqə, festival və sərgilərin iştirakçısı Fərəh Əliyevadır. O, kukla sənəti ilə 2010-cu ildən məşğul olur. Fərəh xanımla bu peşəyə olan sevgisindən və kuklaların onun üçün nə qədər əhəmiyyətli olduğundan bəhs etdik.



**– Öncə kuklaların hazırlanma prosesindən danışardınız. Necə edirsiniz, hansı materiallardan istifadə edirsiniz?**

– Materialları fikrimdə canlandırdığım obraza uyğun olaraq seçirəm. Hər bir kuklanın hazırlanmasında fərqli texnika, məxsusi üslub və rənglərdən istifadə edirəm. Məsələn, daha çox plastik gil və papye-maşedən (yapışqan, gips və təbaşirlə qarışdırılmış kağız kütləsindən ibarət bərk maddə), dəmir məftildən karkazlar (gövdə, skelet, maket) düzəldirəm. Onu mis məftil, sonra folqa kağız və gillə örtərək, forma verirəm. Daha sonra cilalayıb bədən nahiyəsini düzəldirəm. Sonda isə üz cizgilərini verərək, saç yapışdırıram, boya çəkirəm, geyim tikirəm, geyindirirəm. Nəticədə yeni bir obraz, personaj yaranır. Hər bir kuklanın hazırlanması üçün ən az 2 həftə vaxt sərf olunur. Təxəyyülüm təkcə bununla məhdudlaşmır. Bu işdə hər hansı bir qaydaya əməl etmədən, unikal üslubda qeyri-adi yanaşmalar axtarıb tapıram. Buna əyani nümunə kimi, kukla obrazını Bakının qədim memarlıq üslubu ilə sintez etdiyim "Qız qalası" əl işimi qeyd edə bilərəm. Onu yaratmaq mənim üçün o qədər də asan olmayıb. Bu kuklanı fərqli çalarlarda, özüməməxsus formada işləyib hazırlamışam.



**– Məşhur adamlardan kimlərinsə kuklasını hazırlamısınızmı? Ümumiyyətlə, kukla düzəltmək üçün sifariş edənlər olurmu?**

– Bəli, Xurşud Banu Natəvan daxil olmaqla, ölkəmizin ən məşhur xanımlarının, həmçinin İngiltərə kraliçası Elizavetanın və başqalarının kuklalarını yaratmışam. Hazırda İrəvan xanının kuklası üzərində işləyirəm. Sifariş edənlər çox olur. Düşünürəm ki, müəllif kuklaları yaradıcı ifadənin xüsusi formasıdır. Kuklalarım oyuncaq deyil, hər biri bir əsərdir. Onlar həm də öz fəlsəfi və ideya daşıyıcısı olan, öz fərdi xüsusiyyəti ilə insanların qəlbində yaşayan personajlardır.

**– Bəs bu incəsənət növünü nə cür təbliğ edirsiniz?**

– Artıq 14 ildir ki, kuklaların hazırlanması işi ilə peşəkar şəkildə məşğulam. Artıq 100-dən çox əsərim Azərbaycan, Fransa, ABŞ, Gürcüstan, Rusiya, İsrail və digər ölkələrdəki muzeylərdə, incəsənət qalereyalarında və şəxsi kolleksiyalarda saxlanılır. Şəki muzeyində "Sarı gəlin", Heydər Əliyev Fondunda və Heydər Əliyev Mərkəzində kukla kolleksiyalarım var. "Kukla" adlı ayrıca əsərin də müəllifiyəm. Ölkəmizi tələbələrimlə birgə Moskva, Ankara, Kiyev, Praqa, Tbilisi və başqa şəhərlərdə də təmsil etmişəm. Azərbaycanda bir neçə dəfə təşkil olunmuş Beynəlxalq Kukla Bienallisi tədbirlərində, mötəbər sərgilərdə iştirak etmişəm. Bu günə kimi isə 6 fərdi sərgim təşkil olunub. Bütün bu dediklərimlə sənətimi təbliğ etməyə çalışıram.

**– Tələbələrinizin işindən razısınızmı?**

– Mən 5 nömrəli internat məktəbində fiziki məhdudiyyətli uşaqlarla işləyirəm. Onlarda bu peşəyə daha çox həvəs yaratmaq üçün tez-tez sərgilər təşkil edirik. Bundan əlavə, müxtəlif yerlərdə – Beynəlxalq Oxbridge Akademiyası, Bakı Oksford Məktəbi, TİSA Azərbaycan Beynəlxalq Məktəbi və digər universitetlər, institutlar, Rəssamlıq Akademiyasının qalereyalarında tələbələr üçün ustad dərslər keçirəm. Çox istəyirəm ki, gənclər bu sənəti öyrənsinlər. Kukla ustası olmaq çox böyük təcrübə və zəhmət tələb edir. Müşahidələrim əsasında görürəm ki, müasir nəslin nümayəndələrinin böyük əksəriyyəti buna hazır deyil və işin öhdəsindən tam layiqincə gələ bilmirlər. Buna təəssüf edir və düşünürəm ki, bu sahədə təhsil və təlimə peşəkar yanaşma yoxdur. Kukla rəssamları, əsasən özləri tələbələr yetişdirirlər. Əslində, gəncləri bu sahəyə cəlb etməklə sənətə milli kolorit gətirə və mədəniyyətimizi daha da zənginləşdirə bilərik.

**– Zər-zibalı, bər-bəzəkli kuklalarınızla adamları daim sevindirəsiniz, onlara fərəh bəxş edəsiniz, Fərəh xanım!**

***Fidan SALMANOVA***
***XQ***

# Mingəçevir: məhəllələr abadlaşır, şəhər gözəlləşir

**Mincəçevirdə aparılan abadlıq-quruculuq işləri bugünlərdə payız-qış mövsümünə hazırlıq tədbirləri ilə xeyli genişlənib və sürətlənib. Şəhərin xidmət təşkilatları məhəllələrdə və kommunikasiyarda təmir-sazlama işləri aparır, sakinlərin qaldırdıqları məsələləri öyrənib yoluna qoyurlar.**



İyul ayında şəhər Mənzil Təsərrüfatı və Abadlaşdırma İdarəsinin 15 binada başladığı əsaslı təmir işləri 5 binada yekunlaşıb. Binaların ümumi istifadə sahələri abadlaşdırılıb, dəhlizlərə plastik pəncərə və seyf qapları qoyulub, pilləkən və sürahilər təmir edilib. Həyətlərdə dağılmış yerlərə asfalt örtük çəkilib. Aparılan kompleks təmir-bərpa işləri şəhər rəhbərliyinin nəzarəti altında digər binalarda da sürətlə davam etdirilir.

Bugünlərdə şəhər rəhbərliyinin, xidmət qurumlarının, ictimaiyyət nümayəndələrinin, mətbuat işçilərinin iştirakı ilə A.Məmmədov və Xətai küçələrindəki çoxmənzilli yaşayış binalarında görülmüş və davam etdirilən işlərə baxış keçirilib. Sakinlərlə keçirilən görüşdə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov ölkə Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məhəllələrdə aparılan əsaslı təmir işlərinin sakinlərin rahatlığına və məmnunluğuna xidmət etdiyini bildirib.

Sohbətdə qeyd edilib ki, ötən illərdə 260-dan artıq yaşayış binası günün tələbləri səviyyəsində təmir edilib. Mingəçevirin gözəlliyinə əlavələr edilməklə aparılan bu işlər bundan sonra da davam etdiriləcək. Qarşıdan gələn payız-qış aylarında əhalinin zəruri xidmətlərlə fasiləsiz təchiz edilməsi üçün şəhər təsərrüfatı bütün zəruri işləri vaxtında başa catdıracaq. Bünun üçün şəhər rəhbərliyi xidmət qurumlarına hərtərəfli kömək göstərir.



Sakinlər onları illərdən bəri narahat edən problemlərin mərhələli surətdə aradan qaldırılmasını razılıqla qeyd ediblər, insanların rifahının yaxşılaşdırılmasına, güzəranın yüksəldilməsinə göstərilən qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda işlərin sürətlə və keyfiyyətlə aparılması, sakinlərin istək və təkliflərinin cavablandırılması ilə bağlı şəhər təsərrüfatının rəhbərlərinə tapşırıqlar verilib.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***
**Mingəçevir**

# Azərbaycan Moskva kitab sərgisində

**Rusiyanın paytaxtında təşkil olunan 37-ci Moskva Beynəlxalq Kitab Sərgisi sentyabrın 4-dən öz işinə başlayıb. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin dəstəyi ilə ölkəmiz sərgidə təmsil olunur.**




Mədəniyyət Nazirliyindən bildirildiyinə görə, sərgidə nazirliyin nümayəndələri və uşaq yazıçısı, "İrs" Nağıllar evinin rəhbəri, professor Solmaz Amanova iştirak edirlər. Təmsilçilərimiz sərgi çərçivəsində bir sıra tədbirlərə qatılıblar. Azərbaycana dair yeni nəşr edilmiş qiymətli kitabların nümayiş olunduğu milli stenddə ölkəmizin tarixi, mədəniyyəti və kitab sənəti barədə sərginin iştirakçılarına və ziyarətçilərinə geniş məlumat verilir.

Sərgi çərçivəsində "Kitab sənəti" müsabiqəsində Azərbaycan 9 nominasiya üzrə 10 diplom alıb. Solmaz Amanova "Turac və sehrli daraq" kitabı ilə "MDB-də nəşr olunub" nominasiyasında qalib gəlib, həmçinin "Narmis və Tacşir" kitabı ilə müsabiqənin Qran-Prisinə sahib olub.

Mükafatçılar sırasında Səbuhi Əhmədov ("Azərbaycan silahları IX–XVII əsrlərdə: təkamül və inkişaf" monoqrafiyası), "Sirus Mirzəzadə: rəngkarlıq, qrafika, monumental incəsənət" fotoalbomu, "Azərbaycan Milli Xalça Muzeyi" fotoalbomu da var.

***XQ***

Turizmin üfüqləri

# Cənnət görmək istəyən Azərbaycana gəlsin!

## *Müsahibimiz tarix elmləri doktoru, kulturoloq Minaxanım Əsədlidir*

**– Son illər Bakıya dünyanın hər yerindən çoxlu turist gəlir. Bu səbəbdən tur bələdçilərə ehtiyac günbəgün artır. Sizcə, bu peşə sahiblərindən, ilk növbədə, hansı keyfiyyətlər tələb olunur?**

– Düz buyurursunuz. Bəli, bu gün qədim və modern paytaxtımız qeyri-adi gözəlliyi, təmizliyi, təhlükəsizliyi ilə xarici turistlərin nəzər-diqqətini özünə cəlb edir. Şəhərin orijinal memarlığı, qədim tarixi abidələri, zəngin muzeyləri, üstəgəl, sakinlərin üzügülərliyi, qonaqpərvərliyi və sair səbəblərdən Bakıya təşrif buyuran qonaqların sayı getdikcə çoxalır. Təbii ki, bu mənada turizmin də daha yaxşı təşkili üçün peşəkar tur bələdçilərinə ehtiyac artır.

Tur bələdçisi ixtisası həm maraqlı, məsuliyyətli, həm də yüksək mədəniyyət və intellekt tələb edən bir peşədir. Şəhərə gələn qonaq hansı münasibətlə, rəftarla qarşılaşırsa, həmin şəxsdə adekvat olaraq ölkəmiz, insanlarımız haqqında ilkin fikir formalaşır. Bu mənada tur rəhbərinin, sadə dildə desək, bələdçilərin öhdəsinə böyük məsuliyyət düşür.



Dərhal qeyd edək ki, bu, heç də asan sənət deyil. Belə ki, tur rəhbərləri uzun müddət ayaq üstə qalmağa, gün boyu yeriməyə məcburdurlar. Buna görə də bu şəxslərdən ilk tələb olunan şərt fiziki cəhətdən sağlam olmalarıdır. Onlar, həmçinin aydın nitqə sahib olmalıdırlar. Zahiri görkəmləri, geyimləri təmiz və səliqəli olmalıdır. Tur zamanı müəyyən olunmuş təhlükəsizlik normalarına riayət edilməlidir.

Bələdçilər, həmçinin müxtəlif yerlərdən gələn turistlərlə düzgün, etikaya uyğun ünsiyyət qurmağı bacarmalı, komanda şəklində işləməyi bilməlidir. Tur bələdçiləri qrupu idarə etmək qabiliyyətinə də malik olmalıdırlar.

Eyni zamanda onların ilkin tibbi yardım bilikləri də olmalıdır. Şübhəsiz, müxtəlif dil bilgilərinə sahib olmaları ilə yanaşı, həm də xalqımızın mental dəyərlərinə, adətlərinə əməl etməlidirlər. Bunlar son dərəcə vacib amillərdir.

**– Oxucular üçün maraqlıdır ki, ölkəmizdə peşəkar tur bələdçiləri harada və necə hazırlanır?**

– Azərbaycanda turizm bələdçiliyi ixtisası bir neçə dövlət və özəl ali təhsil ocağında, eləcə də professoru olduğum Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) tədris olunur.

Yeri gəlmişkən, ATMU-da təhsilin bütün pillələrində – yəni bakalavr, magistratura və doktorantura səviyyələrində turizm bələdçiliyi ixtisası üzrə kadrlar hazırlanır. Fəxrlə qeyd etmək istəyirəm ki, ATMU-nun tələbələrinə bir sıra xarici ölkələrdə təcrübə keçmək imkanı yaradılmışdır. Bizim tələbələr İsrail, Türkiyə, Kipr kimi dövlətlərdə turizmin təşkili ilə bağlı təcrübi proqramlarda iştirak ediblər. Yeri gəlmişkən, istehsalat təcrübəsinə tələbələrimizi qəbul edən digər ölkələrin siyahısına Qazaxıstan, Almaniya, Malta, Yunanıstan, Rusiya, İspaniya, Çexiya, ABŞ, Ukrayna, BƏƏ, Seyşel adaları, Çin və Bolqarıstan daxildir.

ATMU Azərbaycan Respublikasında turizm təhsili verən ali təhsil müəssisələri arasında ilk dəfə beynəlxalq ikili diplom proqramını tətbiq etmişdir. Belə ki, bu ali təhsil ocağının rəhbərliyi 2007-ci ildə Avstriyanın "IMC Krems" Tətbiqi Elmlər Universiteti ilə "Azərbaycan–Avstriya Turizm Proqramı"nın reallaşdırılması ilə bağlı müqavilə imzalamışdır. Bu proqram çərçivəsində son illər çox sayda yerli və beynəlxalq turizm təhsilinin incəliklərindən yaxşı xəbərdar olan mütəxəssislər yetişdirilib ki, onlar ölkəmizin turizm sektorunun inkişafına öz töhfələrini əsirgəmirlər.

Tələbələr təhsil aldıqları müddətdə təhsillərini 1 semestr ərzində Avstriyada davam etdirməklə beynəlxalq təcrübə əldə etmiş olurlar. Avstriyadan olan mütəxəssislər tərəfindən tədrisin aparıldığı xüsusi proqramı uğurla bitirmiş tələbələr 2 diplom – Azərbaycan Turizm və Menecment Universiteti və Avstriya "IMC Krems" Tətbiqi Elmlər Universitetinin diplomlarını əldə edirlər.

**– Bölgələrimizdə necə, gənc və istedadlı tur bələdçiləri yetişdirilirmi?**

– Bu gün bölgələrdə, həqiqətən, peşəkar tur bələdçilərinə ehtiyac var. Hazırda müəyyən çətinliklər mövcuddur. Amma ümid edirəm ki, yaxın gələcəkdə bu sahədə kadr problemi olmayacaq. Hazırda Gəncə Dövlət Universitetində, yeni təsis olunan Xankəndi Universitetində, Mingəçevir Turizm Kollecində turizm sahəsi üzrə ixtisaslı kadrlar hazırlanır.

Bundan əlavə, Bakıda və regionlardakı iri şəhərlərimizdə üç aylıq turizm bələdçiliyi üzrə kurslar da fəaliyyət göstərir. Turzm şirkətləri bu kursların sertifikatı olmadan bələdçiləri işə götürmürlər. Təklif edərdim ki, bölgələrdə turizmlə bağlı belə kurslar vaxtaşırı açılsın. Turizm bələdçiliyi təcrübəsi olan şəxslərin xarici dil kurslarına göndərilməsi də məqsədəuyğundur.

Bu gün Azərbaycanın regionlarına çoxlu əcnəbi turist gəlir. Mərhum professor Xudu Məmmədov deyirdi ki, biz gənclərə "vətənpərvər olun!" demək əvəzinə, Vətəni onlara yaxından tanıtmalıyıq. Turistlər də belədir. Onlar məmləkətimizi yaxından tanısalar, mütləq bu yurdun səmimi dostlarına çevriləcəklər. Bölgələrdə turizmin inkişafı həm də yeni iş yerləri deməkdir.

**– Professor, gəlin bir anlığa təsəvvür edək ki, siz İçərişəhərdə gənc bələdçi olaraq çalışırsınız. Burada turistlərə ən çox hansı məkanları göstərməyə tələsərdiniz?**

– Maraqlı və gözlənilməz sualdır. İçərişəhərdə olan tarixi memarlıq abidələrinin siyahısına nəzər salsaq, onların sayı 30-a çatır. Burada 8 muzey fəaliyyət göstərir. İlk növbədə, turistlərə Bakının tarixi, Qız Qalası, Şirvanşahlar Sarayı, Qoşa Qala qapıları, İçərişəhərin hamam mədəniyyəti, küçələri və muzeyləri haqqında məlumat verərdim.

Qonaqları Arxeologiya və Etnoqrafiya Muzeyi, dünyada nadir muzeylərdən olan "Miniatür Kitab Muzeyi", görkəmli caz musiqisi bəstəkarı və pianoçu Vaqif Mustafazadənin, Xalq rəssamı və xalça ustası Kamil Əliyevin, dünya şöhrətli rəssam Tahir Salahovun ev muzeyləri ilə tanış edərdim.

Eyni zamanda çox məşhur rəssamların yaradıcılığında İçərişəhər mövzusundan söhbət açardım. Axı bu doğma qədim şəhərin abidələrini və küçələrini Engelbert Kempfer, Aleksey Boqolyubov, Qriqori Qaqarin, Vasili Vereşşagin, Aleksandr Kuprin, Əzim Əzimzadə, Tahir Salahov və başqa məşhur rəssamların ölməz tablolarında görmək mümkündür.

Belə hesab edilir ki, Bakını ilk təsvir edən, 1630-cu ildə onun görünüşünü yaratmış İsveç rəssamı, səyyah Engelbert Kempfer olmuşdur. Onun əsərində Bakı dənizin dərinliyinə doğru uzanan qalın qala divarlarının içində, hamar damlı evlərlə təsvir olunmuşdur.



**– Sovet kinematoqrafiyası da İçərişəhəri diqqətdən kənarda qoymamışdır. Turistlərin nisbətən yaşlı nəsli bir çox populyar filmlərdəki Bakı ilə bağlı səhnələri yaddaşlarında qoruyub saxlayır...**

– Bəli, bir çox məşhur filmlərdə Bakı və İçərişəhərlə bağlı maraqlı səhnələr yer alıb. Mən sizin təklif etdiyiniz kimi İçərişəhərdə bələdçilik etsəydim, turistlərin diqqətini bu məkanda çəkilmiş dünyaca məşhur filmlərə mütləq cəlb edərdim. Bu məqamda "Brilyant əl", "Amfibiya adam", "Aybolit-66", "Tehran-43", "Qorxma, mən səninləyəm" və sair filmlərin adlarını çəkmək olar.

"Brilyant əl" filmində unudulmaz səhnəni məşhur rejissor Leonid Qaydayın qərarı ilə İçərişəhərdə çəkmişdilər. Filmdə İçərişəhərin qədim küçələri, Şirvanşahlar sarayı, məscid minarələri və qala divarları görünür. Filmin çəkilişlərinin aparıldığı və aktyor Yuri Nikulinin canlandırdığı qəhrəmanın yıxılaraq məşhur "Чёрт побери" ifadəsini səsləndirdiyi yerdə sevilən aktyorun abidəsi ucaldılmışdır.

**– Professor, siz Azərbaycanı tələbələrinizlə sevə-sevə, qarış-qarış gəzən insanlardansınız. Ola bilməz ki, tur bələdçiliyi sənəti ilə bağlı maraqlı bir hadisənin şahidi olmayıbsınız.**

– Turist bələdçisi üçün ən vacib xüsusiyyətlərdən biri yumor hissinin olmasıdır. Öz həyatımdan bir misal çəkəcəyəm. Bir dəfə tələbələrlə Zaqataladakı Heydər Əliyev Parkına daxil olarkən çox şən rəqs musiqilərinin çalındığını gördük. Qeyri-ixtiyari olaraq şövqlə rəqs etməyə başladım. Turistlər sanki bunu gözləyirmiş kimi mənə qoşuldular. Təbii ki, tələbələrim də məni tək qoymadılar. Birlikdə milli rəqslərimizdən bir neçəsini şövqlə ifa etdik. Həmin xoşbəxt anlar heç vaxt yadımdan çıxmır.

Mən tələbələrimlə bölgələrə gedəndə, bir qayda olaraq yol boyu həmin ərazinin tarixi, mədəniyyəti haqqında geniş bilgilər verir, intellektual oyunlar təşkil edir, qalib gələnlərə hədiyyələr təqdim edirəm. Bu, mənim hobbimdir!

Azərbaycan o qədər gözəl və əsrarəngiz bir məkandır ki, onu sevməmək mümkün deyil. Tələbələrə deyirəm ki, bu gözəl diyarı qonaqlara sevdirmək istəyirsinizsə, ilk növbədə, özünüz onu yaxından tanımalı, heyranı olmalısınız.

Bu gün Azərbaycan xalqı və dövləti öz tarixinin ən şanlı, şərəfli günlərini yaşayır. 2020-ci ilin payızında Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyev başda olmaqla Azərbaycanın igid əsgər və zabitləri doğma Qarabağımızı yağı düşmənin əsarətindən xilas ediblər.

Bu gün isə biz Cənubi Qafqazda sülhün carçıları rolunda çıxış edirik. O yerdə ki, sülh və əmin-amanlıq var, orada inkişaf və tərəqqi üçün böyük imkanlar açılır. Turistlər də arzuolunan qonaqlardır. İnanıram və çox ümid edirəm ki, ən yaxın gələcəkdə Azərbaycan, bütövlükdə Qafqaz dünyanın ən gözəl turizm məkanlarından birinə çevriləcək.

***Söhbəti qələmə aldılar:***
***Məsaim HACIXANLI,***
***Ceyhun ALIŞLI***
***XQ***

# Əsl qardaşlıq nümunəsi

**Əslində, Bakının Düşənbə ilə qardaşlaşdığı barədə faktı da bir az unutmuşdum, gələn il bu qardaş şəhərin 100 yaşının tamam olacağını da bilmirdim. Ancaq son günlər rastlaşdığım bir videomaterialdan sonra digər elektron resurslara da baxdım və nəticədə bu yazı ərsəyə gəldi.**

Söhbət ondan gedir ki, Tacikistanda fəaliyyət göstərən "Avesta" İnformasiya Agentliyinin hazırladığı "Azərbaycan – Ermənistan sərhədlərinin delimitasiyasının müəyyən edilməsində güc yoluna ehtiyac olacaqmı?" mövzulu teledebata qulaq asandan sonra, sadəcə olaraq, dostlarımız və qardaşlarımızla fəxr elədim. Tacik jurnalist Azizcon Maksudovla azərbaycanlı ekspert Fikrət Şabanovun teledebatı (həmin dialoq agentliyin "Facebook" hesabında yayılmışdı) Düşənbə ilə Bakının dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyəsini nümayiş etdirməklə yanaşı, həm də xalqlarımız arasındakı ictimai-siyasi və mədəni – mənəvi bağlılığın da göstəricisi idi.



Sonra yadıma düşdü ki, biz – "Xalq qəzeti"ndən bu sətirlərin müəllifi, "525-ci qəzet"dən Rəşad Məcid və AzTv-dən Ağanisə Sultanova (öz operatoru ilə) 2013-cü ilin dekabrında Ər-Riyada – "Səudiyyə Ərəbistanının Mərkəzi Asiya ölkələri və Azərbaycanla iqtisadi əməkdaşlığı" mövzusunda keçirilən konfransa getmişdik. Orada Tacikistanı təmsil edən həmkarlarımızdan biri məhz "Avesta" İnformasiya Agentliyinin baş direktoru Cəmşid Ulmasov idi. Cəmşid Raxmonoviç o zamankı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin kökləri, işğalla nəticələnən hərbi müdaxilə zamanı törədilən vəhşiliklər və beynəlxalq ictimaiyyətin bu haqsızlıqlara münasibətdə sərgilədəyi laqeydlik barədə olduqca müfəssəl məlumata malik idi. O danışdıqca mən elə bilirdim ki, bu gənc tacik həmkarımız ya bizim "Xalq qəzeti"nin, ya da digər mətbu orqanımızın təmsilçisidir.

Xatırladım ki, məni Cəmşid Ulmasovla məhz Ağanisə Sultanova tanış eləmiş və köhnə dostunu "tacikistanlı azərbaycanlı" kimi təqdim edərək bizə yaxın olduğunu demək istəmişdi. Ancaq sonra öyrəndim ki, onun Azərbaycanla bağlılığı yoxdur. Sadəcə, haqqı demək, ədaləti yazmaq, obyektiv olmaq, islam həmrəyliyinə töhfə vermək istəyir. Onu da əlavə edim ki, həmkarımız Qulu Kəngərlinin 2020-ci il sentyabrın ilk günlərində Düşənbədən AZƏRTAC-a göndərdiyi informasiyada deyilirdi ki, Tacikistanın Avesta.tj portalında Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranması ilə bağlı tanınmış özbək tarixçisi Şuxrat Barlasın rus dilində "Qarabağ sindromu – mənbələr və nəticələr" adlı məqaləsi verilib. Biz o vaxt qeyd etmişdik ki, qardaş hər yerdə qardaşdır: "Özbək alim öz ölkəsində də Azərbaycanın əsas problemindən söz açır, Tacikistan mətbuatında da".

"Avesta" İnformasiya Agentliyinin 2020-ci il sentyabrın 29-da – İkinci Qarabağ müharibəsinin ikinci günü öz oxucularına təqdim etdiyi informasiyanın sərlövhəsinə baxın: "Rəsmi Kabul Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı dəstəklədiyini bəyan etdi". İndi isə bu agentliyin Ermənistanın məğlubiyyət sənədini imzalamasından üç gün əvvəlki yazısını yada salaq: " Şərəfli Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ədaləti bərpa edir". Bu agentlik noyabrın 16-da (üçtərəfli bəyanatdan bir həftə sonra) isə yazırdı: "Ermənilər Qarabağı tərk edərkən öz evlərini yandırır, əmlakları məhv edirlər". Fikrimizcə, bütün bunların qardaşlıqdan başqa adı yoxdur. Elə "Avesta"nın 2020-ci il mayın 7-də yaydığı materialın sətirlərindən kədər süzülməsi də qardaşlıq nümunəsi idi: "Azərbaycan xalqı mayın 8-də ölkənin qədim tarixi və mədəni mərkəzi olan Şuşanın Ermənistan tərəfindən işğal edilməsi faktını 28-ci dəfə hüznlə yada salacağıq".

Söhbət qardaşlıqdan düşmüşkən, xatırladaq ki, Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri, Düşənbə şəhərinin sədri Rüstəm Emoməlinin rəhbərliyi ilə Tacikistan parlamentinin üzvləri və Düşənbə şəhərinin rəsmilərindən ibarət geniş tərkibli nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri zamanı (2022-ci il martın 3-də) Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla görüşdə qeyd edilmişdi ki, Bakı və Düşənbə şəhərləri qardaşlaşacaq. Elə həmin səfər çərçivəsində adı çəkilən memorandum imzalanmışdı.

O ki qaldı, qardaş şəhərin 100 yaşının tamam olmasına, qeyd etməliyik ki, tacik xalqı, dövlətçiliyi və mədəniyyəti nə qədər qədim olsa da, bu respublikanın paytaxtı kifayət qədər cavandır. Belə ki, bu gün Tacikistanın ən böyük elmi-mədəni, siyasi, iqtisadi, sənaye və inzibati mərkəzi olan Düşənbə adlı yaşayış məntəqəsinin adı ilk dəfə XVII əsrin sonuna aid məxəzlərdə xatırlansa da, şəhər kimi ötən əsrin üçüncü onilliyində formalaşmışdır. Qeyd edilir ki, bu yaşayış məntəqəsi 1826-cı ildə " Düşənbə — Kurqan" adlanırdı. 1924-cü ildə isə Düşənbə kəndi , Səriasya və Şahmənsur kəndləri ilə birləşdirilərək Düşənbə qışlağı yaradılmışdı. 1925-ci ildə Düşənbə qışlağının əsasında Düşənbə şəhəri təşkil edilmiş, 1929-cu ildə şəhərin adı dəyişdirilərək, Stalinabad qoyulmuşdu. Stalinin ölümündən sonra isə – 1961-ci ildə şəhərin tarixi adı – Düşənbə adı bərpa edilmişdir.

Azərbaycan – Tacikistan əməkdaşlığına gəlincə isə qeyd edilməli məqamlar yüzlərcədir. Ekspertlər yazırlar ki, Azərbaycanın Mərkəzi Asiya dövlətləri arasında Tacikistanla münasibətləri xüsusi əhəmiyyətə malikdir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il mayın 29-da qurulub. 2007-ci ildə Azərbaycanın Tacikistanda, bir il sonra isə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. Əlavə edilir ki, ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun şəxsi dostluq münasibətləri mühüm rol oynayır.

Xüsusilə vurğulanır ki, səmimi dostluq münasibətləri dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyində və məhsuldarlığında da özünü göstərir. Belə ki, Prezident İlham Əliyev Tacikistana indiyədək altı dəfə səfər edib. Ötən il dövlətlərimiz arasında ali səfərlər baxımından olduqca məhsuldar il olub. Azərbaycan Prezidenti 2023-cü ildə dost ölkədə iki dəfə səfərdə olub. Dövlətimizin başçısı 2023-cü il aprelin 5-6-da Tacikistana dövlət səfəri edib. Prezident İlham Əliyev ötən il sentyabrın 14-də Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının Düşənbədə keçirilən iclasında Prezident Emoməli Rəhmonun dəvəti ilə yeganə fəxri qonaq qismində iştirak edib. Tacikistan Prezidenti Emoməli Rəhmon isə ötən il noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olub.




Ölkələrimizi tarixi dostluq əlaqələri, siyasi, humanitar və digər sahələrdə münasibətlər də birləşdirir: "Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir. İki ölkə arasında, ümumilikdə, 70-dən çox sənəd, o cümlədən 2007-ci il martın 15-də "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə" imzalanıb. Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin başçısının ötən il Tacikistana dövlət səfəri çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair 14 sənəd imzalanıb".

Bu sətirləri isə Tacikistan Prezidenti Emoməli Rəhmonun bu il mayın 23-də Bakıda azərbaycanlı həmkarı İlham Əliyevlə birlikdə mətbuat üçün verdiyi bəyanatdan seçdiyimiz iqtibasla tamamlamaq istəyirik: "Danışıqlar zamanı təhlükəsizliklə bağlı risklər və təhdidlər müzakirə edildi. Öz növbəmdə onu qeyd etmək istərdim ki, beynəlxalq aləmdə mövcud vəziyyət mürəkkəb və gərgin olaraq qalmaqdadır. Fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Tacikistan bütün ziddiyyətlərin və münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır. Biz Azərbaycanla təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən və məzmunundan məmnunluğumuzu bildiririk. Bu baxımdan, terrorizmə və ekstremizmə, radikalizmin təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən kibercinayətkarlığa və narkotik qaçaqmalçılığına qarşı mübarizəyə mühüm yer ayırırıq. Bu xətt üzrə xüsusi xidmət orqanlarının və ixtisaslaşdırılmış digər idarələrin fəaliyyətinin əlaqələndirilməsinin gücləndirilməsini zəruri hesab edirik".

***İttifaq MİRZƏBƏYLİ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 195 (30599) 8 sentyabr 2024-cü il, bazar

# Paralimpiyaçılarımızın 4-cü qızıl medalı




**“Paris-2024”də iştirak edən paralimpiyaçılarımız böyük qələbələr qazanaraq Azərbaycanı layiqincə təmsil edirlər. Paris Yay Paralimpiya Oyunlarının başa çatmasına 1 gün qalmış xalqımız daha bir qızıl medal sevincini yaşadı.**

Azərbaycan paraatleti Orxan Aslanov T13 kateqoriyasında uzunluğa tullanma yarışında 7,29 metr məsafə göstərici ilə çempion adına layiq görüldü. Orxan Tokio Paralimpiadasında da uzunluğa tullanma turnirində qızıl medal əldə etmişdi.

Bu mötəbər yarışda 100 metr məsafəyə qaçışda 1-ci yeri tutan Lamiyə Vəliyeva (T13 kateqoriyası) isə 400 metr məsafəyə qaçışda finiş xəttini 2-ci keçərək gümüş medala sahib çıxdı.

Daha bir medal ümidimiz olan paraüzgüçü Raman Salei (S12 kateqoriyası) oyunlarda növbəti dəfə qüvvəsini sınadı. 100 metr məsafəyə “butterfly” üsulu ilə üzmə yarışının təsnifat mərhələsində finişə 58.16 saniyə ilə birinci çatan idmançı finala vəsiqə qazandı. Finalda 58,13 saniyəlik nəticə göstərən paraüzgüçümüz finiş xəttinə üçüncü çataraq bürünc medal qazanıb.

Xatırladaq ki, Raman Salei bundan əvvəl S12 kateqoriyasında 100 metr məsafəyə arxası üstə üzmə yarışında gümüş, 100 metr məsafəyə sərbəst üzmə üsulunda isə bürünc mükafat qazanıb.

Paracüdoçumuz İlham Zəkiyev (J1 kateqoriyası, +90 kq) bürünc medal qazanıb.

Qeyd edək ki, komandamız ümumilkdə 4-ü qızıl olmaqla 11 medal qazanıb.

*LQ URBANOVA*
*XQ*

## Avropa çempionatında cüdo qələbəmiz



**Cüdo üzrə gənclər arasında Estoniyanın paytaxtı Tallində gənclər arasında keçirilən Avropa çempionatında Azərbaycan komandası uğurla çıxış edərək 4 qızıl, 2 gümüş, 2 bürünc medal qazanıb.**

Qızıl medalları komandamızın aktivinə qadın millimizin üzvləri Könül Əliyeva (48 kq), Fidan Əlizadə (57 kq), kişilər arasında isə Vüsal Qələndərzadə (73 kq), Süleyman Şükürov (81 kq) yazdırıblar. Nizami İmranov, Aslan Kotsoyev (90 kq) gümüş medal qazanıblar. Kənan Nəsibov (+100 kq), Tuncay Şamil (+100 kq) 3-cü yeri tutublar.

Yekun nəticəyə görə, millimiz bütün komandaları qabaqlayaraq 1-ci yeri tutub.

Qeyd edək ki, gənclər arasında Avropa çempionatında 4 qızıl medal Azərbaycan cüdosu tarixində bir ilkdir.

## Qubada beynəlxalq futbol turniri başa çatıb



**Quba şəhərində 12 yaşadək futbolçular arasında keçirilən “Ulduz Cup” beynəlxalq futbol turniri başa çatıb.**

Gənclər və İdman Nazirliyi, AFFA və “Ulduz” Futbol Akademiyasının birgə təşkilatçılığı ilə Quba Olimpiya İdman Kompleksində keçirilən turnirdə 5 ölkədən 8 komanda iki qrupda mübarizə aparıb.

Turnirin final matçında “Ulduz” Futbol Akademiyasının komandası “Dinamo” (Minsk, Belarus) kollektivi ilə üz-üzə gəlib. Rəqibinə 6:0 hesabı ilə qalib gələn “Dinamo” komandası beynəlxalq turnirin qalibi adını qazanıb.

## Minifutbol millimizin dünya rəqibləri




**Minifutbol üzrə U-23 dünya çempionatının püşkü atılıb.**

Azərbaycan minifutbol millisinin də Dünya çempionatında rəqibləri bəlli olub. Yığmamız B qrupunda Kolumbiya, Slovakiya və İraq komandaları ilə mübarizə aparacaq.

Dünya çempionatı oktyabrın 7-də Xorvatiyada start götürəcək.

*LA ZAD*
*XQ*

# Naxçıvanda veloyürüş



**Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar olaraq Naxçıvanda veloyürüş keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, muxtar respublikanın Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin birgə təşkilatçılığı ilə reallaşan kütləvi-mədəni idman aksiyasında yaşı 14-dən yuxarı olan 250-dən çox insan öz velosipedi ilə iştirak edib.

Rəsmi çıxışlardan sonra iştirakçılar start xəttinə dəvət olunub və yürüşə start verilib. İştirakçılar təyin olunmuş bir dövrəlik marşrut üzrə 8000 metr məsafə qət ediblər. Nəticələrə gəlincə, kişilər arasında Asiman Cabbarov, qadınlarda isə Zöhrə Sadiqova finişə birinci çatıblar. Cavid Qasımlı və Fatimə Məmmədli ikinci, Elvin Mikayılzadə ilə Aydan Qasımlı isə üçüncü olublar.

İlk üç yerin sahiblərinə nazirliyin diplom və medalları, eləcə də sponsorların hədiyyələri təqdim olunub.

*XQ*

## Çin Ayı süni intellektlə öyrənəcək

**Çində Ay məlumatlarının emal sürətini əhəmiyyətli dərəcədə artırmaq məqsədilə dünyanın ilk peşəkar, multimodal böyük süni intellekt modeli (LLM) yaradılıb. “Sinxua” agentliyi xəbər verir ki, yeni model Çin Elmlər Akademiyasının Geokimya İnstitutu və “Alibaba” bulud kəşfiyyat qrupu tərəfindən təqdim edilib.**

Geokimya İnstitutunun tədqiqatçısı Lyu Jiançjonqun dediyinə görə, diametri 1 kilometrdən çox olan 1 milyondan artıq Ay krateri və saysız-hesabsız kiçik kraterlər var. O əlavə edib ki, təkcə işçi qüvvəsinə güvənsək, bütün Ay kraterlərini öyrənmək mümkün olmayacaq.

Tədqiqatçılar indi yalnız Ay kraterinin şəklini daxil etməklə LLM-nin köməyi ilə onun formasını, ölçüsünü və yaşını müəyyən edə biləcək. Çinli alimlər bildirirlər ki, burada dəqiqlik əmsalı 80 faizdən çoxdur. Onların fikrincə, planetar elmin tərəqqisi və inkişafı iki amildən - dərin kosmosun tədqiqi texnologiyasının inkişafı və məlumatların işlənməsi və tətbiqi səviyyələrindən asılıdır. Böyük məlumatlar əsasında aparılan tədqiqatlar elmin və texnologiyanın inkişafı prosesini dəyişdirir. Lyu Jiançjonq deyib: “LLM çox yüksək IQ-ya malik uşaq kimidir. Biz onun böyüməyə davam etməsinə icazə verəcəyik və bu, gələcək elmi tədqiqatımıza kömək edəcək”.



*XQ*

## Abşeronda “Bilik günü”

**Abşeron rayonunda 2024–2025-ci tədris ili üzrə ali məktəbə daxil olan və birinci sinfə gedəcək şəhid övladları, o cümlədən yüksək bal toplayan abituriyentlərlə görüş keçirilib.**



“Bilik Günü” münasibətilə keçirilən görüş Xırdalan şəhərində yerləşən Heydər Əliyev Mərkəzində təşkil olunub.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev çıxış edərək, bu il ali məktəblərə keçirilən imtahanlarda uğur qazanan abituriyentləri və məktəblərə ilk qədəmlərini qoyan şəhid övladlarını təbrik edib, onlara təhsil həyatlarında müvəffəqiyyətlər arzulayıb. Bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi, siyasi iradəsi, “Dəmir yumruq” ətrafında sıx birləşən xalqımızın və ordumuzun qəhrəmanlığı sayəsində torpaqlarımız düşmən əsarətindən azad olunduqdan sonra bütöv müstəqil Azərbaycanda təhsilin tədrisinə başlanıb.

Sonda şəhid övladları olan birincilərə və tələbə adını qazanmış şəhid övladlarına, o cümlədən yüksək bal toplamış abituriyentlərə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, Abşeron rayonu ərazisində yaşayan 81 şəhid övladı məktəbli ləvazimatları ilə təmin olunub.

*XQ*

## Əzgil bütöv aptekdir, faydalılıqda təkdir

**Tərkibi olduqca zəngin olan əzgil çox xeyirli meyvədir. Bu meyvədə C, A, B1, B2, B3, B6, B9 vitaminləri, kalium, dəmir, maqnezium, yod, kalsium, fosfor, selen, sink, orqanik turşular, pektin və s. kimi faydalı maddələr var.**



Dietoloqlar bildirirlər ki, əzgildən hələ qədim zamanlarda da təbii dərman kimi istifadə olunub. Kal əzgil ilə ishalı, dəymiş əzgil ilə qəbizliyi müalicə ediblər. Fitonsidlərlə zəngin olan əzgil nəfəs yollarının iltihabları və bronxial astma zamanı çox faydalıdır. Xalq təbibləri əzgil əzməsinin balla qarışığı ilə öskürək, bronxit, astma və digər xəstəlikləri sağaldıblar. Bu qarışıq, həmçinin ürək və qaraciyər üçün də çox faydalıdır. Qaraciyəri möhkəmləndirir, ürəyin fəaliyyətini yaxşılaşdırır, təzyiqi aşağı salır. Əzgilin əzməsini eyni miqdarda balla qarışdırır və gündə 2 dəfə 1 xörək qaşığı qəbul edirlər.

Əzgilin yarpaqlarının da müalicəvi xüsusiyyətləri var. Yarpaqların dəmləməsi nəfəs yollarını təmizləyir, bəlğəmi durulaşdırır, iltihabları azaldır. Dəmləməni hazırlamaq üçün 1 xörək qaşığı yarpağı 1 stəkan suda 30 dəqiqə dəmləyir, süzür və gün ərzində 3 dəfə stəkanın 1/3 hissəsi qədər qəbul edirlər.

*Z.HÜSEYNLİ*
*XQ*

## Son baharın nəfəsi duyulur

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, bölgələrdə isə 34 dərəcə isti olacağı gözlənilir. Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**



Bildirilib ki, Bakıda və Abşeron yarımadasında mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 27-31° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 40-50 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21° isti, gündüz 29-34° isti, dağlarda gecə 8-13° isti, gündüz 13-18° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3823
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00